FEYRUZ BAĞIROV

XATIRLANAN ÖMÜR



NAXÇIVAN — 2014

FEYRUZ BAĞIROV

XATIRLANAN ÖMÜR

Müəllif yazdığı Xatırlanan ömür kitabında ailə-uşaqlarına, qohum əqrəbalarına, dost və yaxınlarına həyatında olmuş tarixi məqamları ədəbi formada miras qoymaq istəmişdir.

Ön sözün müəllifi: Adil Qasım,- şair, Azərbaycan Respublikası Veteranlar Şurasının üzvü.
Redaktor: Vəli Qaraxan,- şair, Azərbaycan Respublikası Yazıçılar Birliyinin üzvü.
Kompyuter tərtibatı: Hafiz Bağırov.

NAXÇIVAN — 2014

SÖZ YOLUNDA

> *“Əgər insanların bilmədiklərini yazan olarsa, qalın kitablar yarana bilər.”*
>
> **(Jül Vern)**

> *“İnsan həyatında nə qədər çox bilərsə, bir o qədər də az bildiyinə inanır.”*
>
> **(Qədim Çin kəlamı)**

> *“Çox bilən az danışar, az bilən isə çox.”*
>
> **(Qədim Atalar sözü)**

> *“Ömür yaddaşını xatırlayanın, ömrü qısalar, yaddaşı olmayanın isə ömrü uzanar.”*
>
> **(Qədim Oğuz kəlamı)**

> *“Əbədi aləmdə kimsəsiz qalmamaq üçün bu dünyada kimsəsizlərin kimsəsi olmaq ən gözəl işdir.”*
>
> **(Həzrəti Əli (ə))**

Kitabdakı reallıqları yazanda həyatın əyri güzgüsündə özümü düz görüb və təskinlik tapmışam. Çünki “Həqiqətən hər çətinlikdən sonra bir asanlıq gələr.” (bax; Quran, İnşirah 94/6). Allaha (c.c.) pənah gətirib kitabdakı adı çəkilən bütün şəxsləri hafizəmin yaddaşından qələmə almışam.

MÜNDƏRİCAT

Kitaba ön söz 5

Şəcərə (nəsil) “ağacı” 7

Uşaqlıq-şıltaqlıq 17

Məktəb illəri 23

“Könüllü” iməciliklər 28

Qabiliyyət həvəsi 32

Ömrün “yaz” fəsli 44

İxtisaslara yiyələnmək 49

Tələbəlik illəri 54

İcbari hərbi mükəlləfiyyət 60

Mədəniyyət yollarında 66

Şərəfli pedaqoji iş 70

Ailə xoşbəxtliyi 80

Zirvəyə çatan ömür 83

Qocalıq çətin həyatdır 91

Əsrin tarixini xatırladıqda... 95

Ömrün “payız” fəsli 101

Məhəllə ahılları 107

Arxivin “sim-sim” qapısı 115

“Nuh yurdu” internet saytı 156

“Əkdim ki, izim qala” 160

Əlvida ateizm ! 167

Xəritə, plan və foto şəkillər 171

İstifadə olunan qaynaqlar 195

Ön Söz

Neçə illərdir ki, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Əmək Veteranı və ziyalısı kimi tanıdığım Feyruz Abdulla oğlu Bağırov, bir neçə kitab və elmi məqalələrin müəllifidir. O, dövri mətbuatda bir-birindən mənalı yazılarına görə oxucuların qəlbinə yol tapmışdır.

Mənəviyyata bağlı olan bir ziyalının yazdığı kitablar əsasən müstəqil Azərbaycan dövlətçiliyi və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının tarixini, mədəni irsini və turizm sahəsini təbliğ edir. Müəllif bir neçə peşə sahibi olaraq, istər foto- kino sənətinə və istərsə də, rəssamlıq sahəsinə önəm verərək, əsasən yaşlı insan və pedaqoq kimi dünya həyatında insanlara mədəni irs qoymuşdur.

Feyruz müəllim keçən əsrin ortalarından mədəniyyət sahəsində çalışaraq, yorulmadan xalqa və dövlətçiliyə vicdanla xidmət göstərir. O, Sovetlər dövründə Azərbaycan Respublikasının rəhbəri olmuş H.Əliyevin Naxçıvana səfərləri ilə bağlı çəkdiyi tarixi foto şəkil dəstini, təmənnasız Heydər Əliyev Muzeyinə hədiyyə etmişdir. Həmin tarixi sənədli foto şəkillər muzeylərdə arxiv ekspozisiyası kimi qorunub saxlanılır.

37-ci ilin repressiya qurbanı olmuş şair dramaturq H.Cavidin sümük qalıqlarının uzaq Sibirdən Naxçıvana gətirilməsi tarixi hadisələrini F.Bağırov, şairə ehtiram əlaməti kimi lentə çəkdiyi fotoları da təmənnasız olaraq şairin Bakı və Naxçıvandakı ev muzeylərinə hədiyyə etmişdir. Feyruz müəllim səksəninci illərdə ictimai əsaslarla şəhər 1 №-li mədəniyyət evində "Kino həvəskarları studiyası"na rəhbərlik etmiş və kino həvəskarı Respublika baxış müsabiqəsinin qalibi olmuşdur.

Qabiliyyət həvəsli və tükənməz enerjisi olan Feyruz müəllim, mədəniyyət və təhsil sahələrində işləsə də, sovet dövründəki bəzi çətinliklərlə üzləşməli olmuşdur. O, istər uşaqlıq və istərsə də, gənclik illərində maddi vəziyyətdən əziyyətlərə qatlaşaraq və vətənpərvər ziyalı kimi bütün maneələrə səbirlə yanaşmışdır.

Azərbaycan Respublikasının müstəqillik illərində Feyruz müəllimin yazdığı bədii elmi publisistik məqalə və kitabları, oxucuları düşündürməyə cəlb etmişdir. Muxtar respublikanın tarixi arxeoloji abidələri, dini-mifik pir və insanların inanc yerləri və habelə təbii sərvətləri haqqında olan kitablar, oxucuların marağına səbəb olmuşdur. Müəllifə internet saytı vasitəsi ilə kitab və məqalələrinə dünyanın bütün ölkələrindən xoş məramlı məktublar gəlir.

Feyruz Bağırovun yaradıcılığı iki əsrin təzadları, insanların rifahı və sosial problemləri və eyni zamanda Azərbaycan xalqına millətçi ermənilər tərəfindən törədilən vəhşilikləri, bir vətəndaş kimi iti qələmində pisləyərək tarixin yaddaşında əks etdirmişdir. Hələ Sovetlər dövründə Feyruz müəllimin atası dövlət qulluqçusu işləmiş Abdulla kişini yaxşı tanıdığım kimi, yazdığı kitablarına görə son beşiyini də yaxından tanımalı oldum.

Müəllifin həyat salnaməsi ilə tanış olduqda görürük ki, o, uşaqlıqda dəcəl və şıltaq kimi görünsə də bacarıqlı bir insan, gənclik illərində püxtələşmiş bir şəxsiyyət kimi, ona lazımi qayğı göstərilmədiyi üzündən çətinlik girdabına düşmüşdür. Həyatının ən gözəl vaxtlarında müəllifi məngənəyə salan haqsızlıqlar, az qala onun istedad və bacarıq qabiliyyətini əlindən çıxarmalı olmuşdur.

Həyatda çox vaxt əsl istedad sahibləri qaranlıq və tozlu künclərdə itib batır və qabiliyyət və istedadı olmayanlar isə kimlərinsə hesabına öndə gəzirlər. Müəllif yazdığı "Əzablı günlər" adlı tarixi mənzum pyesində epiqraf kimi işlətdiyi böyük Fransız yazıçısı Viktor Hüqonun belə bir sözünü yerində işlətmişdir;

> *"Yer üzündə nadanlıq və səfalət hökm sürdükcə sənətkarın yaradıcı ömrü də qısa olar."*

Ömrünün 70 ilinə yaxınlaşan müəllif, Muxtar respublika tarixi və arxeoloji abidələri mühafizə cəmiyyətinin üzvü kimi, Naxçıvandakı tarixi abidələrin bərpa edilib xalqa çatdırılmasında qürur duyur. Uzun illər mədəniyyət sahəsində çalışdığına görə Azərbaycan Respublikası Mədəniyyət və Turizm nazirliyinin "Əmək Veteranı" adına layiq görülən Feyruz müəllim, yaradıcılığında İslam mənəviyyatına da yer ayırır. Buna misal olaraq müəllifin yazdığı "Dünya həyatı" adlı tarixi, fəlsəfi və mənəvi ensiklopedik kitabını nümunə göstərmək olar.

Feyruz müəllim "Xatırlanan ömür" adlı kitabının üzərində yenidən işləyərək və şəxsi həyatındakı tale yazısını süzgəcdən keçirmişdir. Müəllif yazdığı kitabında ailə-uşaqlarına, qohum əqrəbalarına, dost və yaxınlarına tarixi məqamları ədəbi formada miras qoymaq istəmişdir. Kitabda müəllifin qələmə aldığı ad göstəriciləri reallıqla həqiqətə uyğundur.

Adil Qasım- şair, Azərbaycan Respublikası Veteranlar Şurasının üzvü.

> *"Keçmişini bilməyən, gələcəyini də bilməz."*
>
> (Şeyx Edebali)

Şəcərə (nəsil) “ağacı”

“Ömrümü xərclədim vətən yolunda,

Nə qədər ki, güc var idi qolumda.

Dərdimi deməyə bağlandım sözə,

Cürbəcür fitnəyə mən dözə-dözə.”

(Adil Qasım)

İngilis filosofu Bekon Frensis (1561-1626) yazdığı “Yeni Orqanon” fəlsəfi əsərində yazır ki;

> *“Yalan zəiflərin daldalanacaq yeri və sığınacağıdır.”*

Mənim doğum şəhadətnaməmdə,

> *“1946-cı ilin 16 may tarixində Azərbaycan Sovet Sosialist Respublikasının Naxçıvan (Araz üstə) şəhərində anadan olmuşdur”*

sözləri yazılmışdır. Doğulduğum məhəllə şəhərin şimal-şərq hissəsindəki “Əlixan məhəlləsi”dir ki, əvvəllər ora “Bazar çayı”nın yuxarı tərəfimdəki “Yuxarı dəyirman” və ya “Bəktaş arxı” ərazisi deyilərdi. (bax; “Xəritə, plan və foto şəkillər” bölməsinə).

> *“Qaranlıq aydınlıqdan, yalan doğrudan qaçar.” (Ömər Xəyyam)*

Məhəlləmizdə keçmiş illərdən qalmış mülkədar Əlixan bəy Kəngərlinin iki mərtəbəli “iqamətgahı” Puşkin caddasının (küçəsinin) başlanğıcında yerləşirdi. Həmin yaraşıqlı binanın mənzilləri, Sovet hakimiyyəti dövründə (1930-cu illərdə) dövlət mülkiyyətinə çevrildiyindən, ictimai kommunal təsərrüfat binası kimi evsiz vətəndaşlara verilib paylanmışdır.

Tarixi binada 1960-cı ilədək hökumət məmurlarından Ə.Hacıyev, Ə.Haşımov, H.İsfəndiyarov, Ş.Əliyev və başqaları ailəliklə yaşamışlar. Bişmiş kərpicdən tikilmiş iki mərtəbəli yaraşıqlı tarixi bina, şəhərdəki keçmiş mülkədarlara məxsus digər tarixi binalar kimi, yerində dördmərtəbəli ictimai bina tikildiyindən sökülərək xalqın yaddaşından silinmişdir.

1961-ci ildə ərazidə söküntü işləri aparılaraq, orada beşmərtəbəli ictimai yaşayış binası tikirlər. Son illərədək yeni binaya “pilləkənli qastronom” adı deyilərdi. Həmin bina ilə üz-üzə Abdulla oğlu Hacınun, (şair H.Cavidin (1882-1941) atası idi) yaraşıqlı iki mərtəbəli evi var idi. (bax; “Xəritə, plan və foto şəkillər” bölməsinə).

Bişmiş kərpicdən tikilmiş evin bir hissəsində Naxçıvan MSSR Kənd Təsərrüfatı Naziri Hidayət Axundov, digər hissəsində isə “Şərq qapısı” qəzetinin məsul katibi Əli Mirzəyevin ailələri yaşamışlar. 1967-ci ildə Puşkin küçəsi genişləndiyi zaman, ərazidəki evlərlə bərabər həmin tarixi bina da söküntüyə məruz qamışdır.

Naxçıvan şəhəri “Cığatay məhəlləsi”ndə doğulmuş ata babam Hacı Məhəmməd Kərbəlayı Bağır oğlu (1850-1933), 1920-ci ilədək, Nehrəm kəndinin mülkədar kəndxudası olmuşdur. Rus imperatorunun təsdiq etdiyi möhürlü rəsmi sənəd (mülkədar Şəhadətnaməsi), atamın vəfatından sonra (1974-cü ilin yanvarında) digər sənədlərlə birlikdə Bağır əmim tərəfindən götürülmüşdür.

Həmin sənədə əsasən Naxçıvan çayının sol sahilindəki torpaq əraziləri (“Pircüvar” düzü), Qubernatorla qəza müvəkkilinin təsdiqli imzası ilə babamın şəxsi mülkiyyəti olmuşdur. Nehrəm kəndinin mərkəzində babamın iki mərtəbəli mülkədar malikanəsindən, (“kolxoz həyəti” adlanan sahədə) sonradan uşaq bağçası, əczaxana və çayxana kimi istifadə edilmişdir.

1937-ci ildə Nehrəm kəndindəki yaradılan kollektiv (kolxoz) təsərrüfata, babamın ixtiyarındakı mülki ilə bərabər mal-qara və heyvan sürüsünü də əlindən alırlar. Rus Şura hökumətini könülsüz qəbul edən babam Hacı Məhəmməd, 1933-cü ilin payızında (kolxoz iclasında) 73 yaşında Nehrəm kəndində vəfat etməli olur. Mərhumun məzarı Nehrəm kəndindəki qəbiristanlıqdadır. Allah Ruhuna rəhmət eləsin! Amin!

Ata nənəm Püstə Hacı Həsən qızı (1860-1954) Nehrəm kəndində kəndxuda ailəsində doğulmuşdur. Nənəm uşaqlıqda anası Hacı Fatma İsmayıl qızından oxuyub-yazmağı öyrənmişdir. Gənclik illərində at minib tüfəng atmağa məharət göstərən nənəm, 1918-ci ildə Nehrəm kəndini mühasirəyə alan erməni qulduru Andranik Ozanyanın silahlı dəstəsinə qarşı döyüşlərdə kişilərlə bərabər iştirak etmişdir. Ata nənəmin Abdulla və Bağır adlı oğlanları ilə Sara və Fatma adında qızları olmuşdur. Ata nənəm Püstə, əri vəfat etdikdən sonra Naxçıvanda kiçik oğlu Bağırın himayəsində olmuşdur. O, 1954-cü ildə “Cığatay məhəlləsində”ki (Əzizbəyov küçəsi ev № 68-də) yaşadığı oğlunun evində vəfat etmiş və şəhər qəbiristanlığında dəfn olunmuşdur. Allah Ruhuna rəhmət eləsin! Amin!

Atam Abdulla Hacı Məhəmməd oğlu (1888-1973) Naxçıvan qəzasının Nehrəm kəndində kiçik mülkədar ailəsində doğulmuşdur. Uşaqlıqda Nehrəm kəndindəki rus-tatar ibtidai məktəbində oxuyan atam, sonra isə 1912-ci ildə Naxçıvandakı "Nicat" (Rüşdiyyə) məktəbinin yeddinci sinfini bitirmişdir.

1924-cü ildə Bakıya gedən atam Sabunçu dəmir yolu vağzalındakı yeni açılmış Bakı Sənaye Məktəbinə (sonrakı illərdə Azərbaycan Sənaye İnstitutu olmuşdur) qəbul olur. İki il həmin məktəbin "Dəmir yolu çəki ustası" şöbəsində oxuduqdan sonra, texnik-mexanik ixtisasını almışdır. Tələbəlik dövründə atam Bakıdakı "Hümmət" siyasi partiyasının üzvü kimi, sonrakı illərdə Naxçıvandakı bolşevik hökumətinin də etimadını qazanmışdır.

1955-ci ilədək atam dövlət idarə və təşkilatlarında müxtəlif vəzifələrdə işləyərək və qocalığına görə təqaüdə çıxır. Atam 1973-cü il dekabr ayının 7-də 85 yaşında qara ciyər iltihabından vəfat edib və şəhər qəbiristanlığında dəfn olunmuşdur. Allah Ruhuna rəhmət eləsin! Amin!

Atamın Sara və Fatma adlarında bacıları var idi. Sara bibim Güznüt kəndinə Qasım adlı Rəncbərə ərə gedəndən sonra, 5 oğlu ilə 2 qız uşağın doğmuşdur. Sara bibimin oğlanları Həmid, Əbdüləzim, Mənsumalı, Kamil və Şamil, qızları isə Surə ilə Zəhra idi. Bibimin oğlanlarından Həmid, Kamil və Şamil Güznüt kəndində, Əbdüləzim Araz çayı sahilindəki Təzəkənddə və Mənsumalı isə Leninqrad şəhərində evlənərək ailə qurmuşlar. (bax; "Bizim ailə" filmi, FB-film-1967, (ağ-qara).

Bibimin qızı Surənin əri öldüyündən ondan olan qızı Nərgizi öz kəndlərinə ərə verirlər. Sonradan Surə Sovetabad kəndinə Muxtar adlı dul kişiyə, bacısı Zəhra isə Muxtarın oğlu Heydərə ərə verilir. Sara bibimin əri Qasım kişi vəfat etdikdən sonra, bibim də vəfat edərək və Güznüt kəndində dəfn olunmuşlar. Allah Ruhlarına rəhmət eləsin. Amin!

Fatma bibim Nehrəmdə "Bağ arası məhəlləsi"ndə İbrahim adlı yoxsul kişiyə ərə getsə də, əri müharibədən geri qayıtmır. Dul qalmış bibimin ərindən İsmayıl adlı oğlu, Gülsüm, Tamilla və Laçın adlarında da qızları olmuşdur. Fatma bibimin uşaqları Nehrəm kəndində yaşamış, ailə qurduqdan sonra kənddə də vəfat etmişlər. Allah Ruhlarına rəhmət eləsin. Amin!

Anam Nərgiz Kərbəlayı Əli qızı (1906-1995) Naxçıvan qəzasının Nehrəm kəndində çarvadar ailəsində doğulmuşdur. Ana nənəm Fatma Məşhədi Hüseyn qızı vaxtsız vəfat etdiyindən, babam Kərbəlayı Əli Hacı Həsən oğlu, kənddəki Şəhrabanu adlı cavan qızla evlənir. Ana nənəm Şəhrabanu Hacı Zeynal qızı (1897-1969), Nehrəm kəndindəki C.Məmmədquluzadənin dərs dediyi üç sinifli ibtidai məktəbdə oxumuşdur. Şura hökuməti zamanında nənəm, kənddəki "İosif Stalin" adına kolxoza üzv olaraq manqa başçısı işləmişdir. (bax; "Qız toyu" filmi, FB-film-1968, (rəngli).

Anamın 3 qardaşı ilə 1 bacısı olmuşdur ki, Hüseyn, doğma anası Fatmadan və Zeynal, Həsən və Sara isə ögey anası Şəhrabanudan doğulmuşlar. Zeynal Əli oğlu Səlmanov ikinci Dünya müharibəsindən qayıtmadı. Həsən Əli oğlu Səlmanov isə müharibədən sonra Naxçıvandakı iki illik Müəllimlər İnstitutunu bitirərək kənddə müəllim işləmişdir. Kərbəlayı Əli babamla Şəhrabanu nənən, hər ikisi Nehrəm kəndində vəfat etmişlər. Məzarları Nehrəm kənd qəbiristanlığındadır. Allah Ruhlarına rəhmət eləsin! Amin!

Anam uşaqlıqdan fiziki işə alışaraq, ögey bacı-qardaşlarına "dayəlik" etdiyindən məktəbdə oxumamış və savadsız qız kimi erkən yaşlarında atama ərə verilmişdir. Heç vaxt xəstələnməyən anam, ərinin ölümündən sonra təklikdən darıxaraq belə deyərdi;

> *"İnsan gərək tək olmasın, hə tək olmasın, heç vaxt..."*

Keçən əsrin son onilliyində anam, İsrafil qardaşımın evində xəstələnərək vəfat edir. Məzarı Naxçıvan şəhər qəbiristanlığındadır. Allah Ruhuna rəhmət eləsin! Amin!

Ana babam Kərbəlayı Əli Hacı Həsən oğlu (1889-1939), sağlam bədənli və uca boylu olmuşdur. O, çarvadarlıqla məşğul olduğundan at, ulaq, öküz və başqa qoşqu heyvanlar saxlayaraq icarədarlıq etmişdir.

1936-ci ildə Nehrəm kəndində kolxoz təsərrüfatı yaradılanda, hər iki babam torpaq ərazilərini, qoşqu arabalarını, at-ulağı, mal-qaranı, heyvan sürüsünü, əmək alətlərini və tövlələrini də təzə hökumətə verməli olur. (Babamın tövləsi son illərədək kənddəki 1 №-li məktəbin qarşısında qalırdı). Kərbəlayı Əli babam 1939-cu ildə malyariyadan xəstələnərək vəfat etmişdir. Məzarı Nehrəm kəndindəki qəbiristanlıqdadır. Allah Ruhuna rəhmət eləsin! Amin!

Hüseyn dayımın 2 xanımından 4 oğlu Əli, Məhəmməd, Vəli, Zeynal və 2 qızı Fatma ilə Həlimə adlarında uşaqları olmuşdur. Sara xalam Salman adlı dul kişiyə ərə getmiş və Sona adlı qız ilə Abbas, İsa və Muxtar adlarında oğlanları doğulmuşdur. Həsən dayım Mina adlı qızla evlənəndən sonra onların ailəsində 6 oğlu ilə 4 qızları olmuşdur. (bax; "Qız toyu" filmi, FB-film-1968, (rəngli).

Ata və ana tərəfdən olan bütün qohum əqrəbalar mömin olmuşlar. Babalarım kənddə hər ilin bayram aylarında qurban kəsdirib və ətini kasıblara ehsan verərdilər. Nehrəm kəndindəki tayfaların özlərinə məxsus adları (ləqəbləri) olmuşdur ki, onlar dövrümüzədək qalmışdır. Ata tayfamız "Zabıtalılər", ana tayfamız isə "Həsənlilər" adı ilə çağırılırdı. Gənclik illərində atam rus dilində yazıb oxumağı bildiyi üçün, onu hökumət qulluğuna təyin edirlər. O, gənclik illərində Naxçıvan, Dilican və Gəncədə məsul vəzifələrdə işləmişdir. Elə buna görə də ailə uşaqlarının doğum tarixləri həmin şəhərlərə aid yazılmışdır.

1939-cu ildə atamı Naxçıvan dəmir yolu stansiyasında işə təyin edirlər. O vaxtdan da ailəmiz Naxçıvan dəmir yolu vağzalındakı iki mərtəbəli ictimai yaşayış binasında qalmalı olur. İkinci Dünya müharibəsi illərində atamın işini şəhərdəki təşkilatlara dəyişirlər. Bununla əlaqədar ailəmiz yenidən şəhərdəki baba evimizə (indiki Radio-Televiziya Komitəsinin yerləşdiyi binanın həyətinə) köçməli olur.

Şəhərdəki evimiz keçmiş mülkədar Nəcəfağa Sultanovun mülkünün qonşuluğundakı kommunal təsərrüfatı binasında idi. Həmin evi atama iyirminci illərdə Naxçıvan Firiqə Komissarlığı tərəfindən vermişlər. Naxçıvanda 1929-cu ildə vətəndaşlara şəxsiyyət vəsiqəsi (pasport) veriləndə, atamın sözü ilə Bağırov familiyası yazdırılır. (Bütün bunlara səbəb keçmiş mülkədarların yeni hökumət tərəfindən, əmlakı müsadirə olunub və "sinfi düşmən" adı verilməsində idi).

İkinci Dünya müharibəsi illərində atamı Vilayət Mülki Müdafiə Qərargahında təlimatçı işinə keçirirlər. Orada vətəndaşlara mülki müdafiədən icbari təlimlər keçirilərək, əhalini havadan kimyəvi və bakterioloji müdafiə üçün hazırlayırdılar.

Müharibə illərində atam mandatla tez-tez rayon və kəndlərə getdiyindən günlərlə evdə olmurdu. O, Dövlət Müdafiə Fonduna, cəbhədəki döyüşçülərə yardım məqsədilə əhalidən toplanmış müxtəlif vəsaitlər gətirirdi. Müdafiə Fonduna yığılmış vəsaiti Naxçıvana çatdırılmaq üçün atamın dediyinə görə gecə-gündüz piyada və at belində yol getməli olurdu. (Atam dəfələrlə gecələr yol kəsən quldurlarla üzləşməli olmuş və ona verilmiş tapança silahı ilə özünü qoruya bilmişdir).

1930-40-cı illərdə Naxçıvan Vilayətində malyariya yoluxucu xəstəliyi yayıldığından əhali kütləvi surətdə məhv olmaq təhlükəsində idi. Mən anadan olanda artıq qardaş və bacılarımın bir neçəsi həmin yoluxucu xəstəlikdən keçinmişlər. Xəstəlikdən ölən qardaşlarım Bağır, Müzəffər, Əli, Hüseyn, Musa və Hökümə, Hafizə, Püstə, Firuzə adlı bacılarım olmuşdur. Anamın bir oğlan uşağı doğumdan bir həftə sonra ölmüşdür. Ailəmizdə sağ qalan uşaqlar Firdovsi, Bənövşə, Məmməd, İsrafil və Feyruz idi.

İkinci Dünya müharibəsi illərində atama Hərbi Komissarlıq tərəfindən “bron” verilərək, ehtiyat əsgər kimi arxa cəbhədə qalmalı olur. O, 1941-ci ildə arxa cəbhədə layiqincə dövlət tapşırıqlarını yerinə yetirdiyi üçün, Ehtiyat cəbhə komandanı marşal S.M.Budyonnı (1883-1973) və Dövlət müdafiə komitəsinin üzvü marşal K.Y.Voroşilovun (1881-1969) imzası ilə “Fəxri fərman” almışdır. Müharibə illərində atama “Vətən uğrunda”, “Qafqazın müdafiəsi uğrunda”, “Qırmızı əmək bayrağı” və “Əlaçı ODKYC (DOSAF) işçisi” medalları da verilmişdir.

Müharibə dövründə hamı kimi anam da kolxoz təsərrüfatında işləyərək, çoxuşaqlı ana kimi iki dəfə (II və I dərəcəli) “Qəhrəman ana” medalı ilə mükafatlanmışdır. Həmin illərdə ailə üzvlərimiz Naxçıvan rayonundakı ”Oraq və çəkic” (sonrakı illərdə “Kirov” adına olmuşdur) kolxozu zəmilərində oraqla taxıl biçmiş, xırmanda dən hazırlayıb və pambıq yığınında iştirak etmişlər.

Böyük qardaşım Firdovsi (Müzəffər) Abdulla oğlu Bağırov (1923-1994) Naxçıvan mətbəəsində çapçı şagirdi (sonrakı illərdə isə usta) işləmişdir. Qardaşım 1981-ci ildə SSRİ hökuməti tərəfindən “Lenin” və “Qırmızı əmək bayrağı” ordenləri ilə mükafatlanmış və Azərbaycan SSR KP MK-nın birinci Katibi H.Ə.Əliyev (1923-2003) tərəfindən “Azərbaycanın Əməkdar Poliqrafçısı” fəxri adını almışdır.

1946-cı ildə Naxçıvan şəhər Zəhmətkeş Deputatlar Soveti İcraiyyə Komitəsinin (ZDS İK) qərarı ilə vətəndaşlara şəxsi ev tikilməsi üçün torpaq sahəsi verilir. Həmin qərarla atama da şəhərin Əlixan məhəlləsində “Yuxarı dəyirman” adlı ərazidən torpaq sahəsi bölüb verilir. Bazar çayının sağ tərəfindəki ərazilər Lermontov küçəsi adlanaraq və bizə verilmiş torpaq sahəsinin nömrəsi 49 (sonrakı illərdə 51 №-li olmuşdur) idi. (bax; “Xəritə, plan və foto şəkillər” bölməsinə).

Həyət sahəsinin cənub-şərq hissəsindən “Bazar çayı” axaraq, qərb hissədəki qonşumuz İqdırdan gəlmiş kürd Abdulla ilə xanımı Səltənət, şimal hissədə isə Zeynəddin kəndindən gəlmiş Fatma adlı dul arvad iki oğlu ilə yaşayırdı. Fatma qarının əri Bağır kişi, kolxoz tayasını yandırdığı üçün Sibirə sürgün edilmişdir.

Sonrakı illərdə Fatma Məhəmməd qızı, iki oğlu Tarverdi və İbrahim Bağır oğulları ilə Bərabər kənddən çıxarılaraq, gəlib şəhərdəki həmkəndlisi Əzim Novruzovun qonşuluğunda daxma tikib yaşamışlar. Əzim kişi də əvvəllər İqdırdan gəlib ərazidə məskunlaşmış və “sünnilər” deyilən Musa Nəbiyevin qızı Tərlan ilə evlənmişdir.

Fatma qarı oğlanlarına bədxasiyyət və zalım adam kimi tərbiyə edərək, onlarda Sovet dövlətinə qarşı nifrət hissləri yaratmışdır. Qarının oğlanları analarının təkidi ilə bir neçə dəfə, onlarla bizim aramızdakı hasara su buraxaraq uçurmuşlar. Bütün bunlara səbəb atamın kommunist olması idi. Ərinə bolşevik hökuməti cəza verdiyindən, Fatma qarı oğlanları ilə bərabər bizimlə ədavətli idilər. Hətta bu ədavəti yaşadığı illərdə nəvələrinə də təbliğ etmişlər...

İkinci Dünya müharibəsindən sonra atamı, Naxçıvan rayon ZDS İK-nə Sədr müavini (sonradan isə baş iqtisadçı) vəzifəsinə keçirirlər. Həmin vəzifədə atam qocalığa görə təqaüdə çıxanadək (1955-ci ilədək) işləmişdir. Atam partiya uçotunda keçmiş iş yerində olduğundan, tez-tez iclaslara çağırıb və rayonun iqtisadi inkişafı üçün məsləhətlər alırdılar.

Təqaüd illərində atam mənəvi əzab çəksə də, darıxmamaq üçün məscidə ibadətə gedər və vaxtını mütaliədə keçirərdi. Ömrünün ahıl vaxtlarında mənəvi kitablara maraq göstərən atamın qalın yazı dəftərində əski əlifba ilə yazdığı bəzi qeydləri var idi.

O vaxtlar Moskvada Rus dilində nəşr olunmuş İ.Y.Kraçkovskinin ərəbcədən "Quran" tərcüməsi və Fransız şərqşünası A.Massenin "İslam" adlı kitablarını oxuyurdu. Atamın otlarla müalicə haqqında yazdığı "Xalq təbabətindən nümunələr" adlı dəftəri də var idi. (bax; "Bizim ailə" filmi, FB-film-1967, (ağ-qara); F.Bağırov, "Naxçıvanın təbii sərvətləri" Bakı-2007).

1972-ci ilin payızında soyuqdəymədən xəstələnərək müvəqqəti yaxşılaşsa da, 1973-cü ilin yayında xəstəliyi ağırlaşıb və xəstəxanaya müalicəyə gedir. Uzun sürən qara ciyər serozu xəstəliyindən atam, 1973-cü ilin dekabrın 7-də 85 yaşında vəfat etmişdir. (1973-cü il dekabrın 26-da 173 №-li qeyd əsasında Naxçıvan şəhər VVAQ şöbəsinin verdiyi 8 aprel 1981-ci il tarixli II-JQ 262972 №-li ölüm haqqında şəhadətnamə qalır). Məzarı Naxçıvan şəhər qəbiristanlıqdadır. Allah Ruhuna rəhmət eləsin! Amin!

Atamın vəfatından sonra əmim "atasından qalma" kitabları seçərək rəsmi sənədləri, arxiv idarəsinə vermək bəhanəsi ilə və özü ilə aparır. Əmimin gözündən yayınmış A.Bakıxanovun (1794-1847) "Nəsihətlər"ini farscadan tərcümə əlyazısını, sonradan üzərində işləyib və kitabça kimi nəşr etdirdim. (bax; A.Bağırov və F.Bağırov, "Axirət fədaisi" Naxçıvan-2009, 20 səh.). Atamdan yalnız bizə 50 qram ağırlığındakı yumurta formasında qara meteorit daş və fəxri dövlət medalları qalmışdır.

1954-cü ilin payızında atam bəslədiyi qoçları kəsdirərək qardaş və bacılarını çağırıb və oğlanlarına "kiçik toy" edir. Kirvəmiz atamla bir yerdə işləyən inşaat mühəndisi Abbasəli Yunis oğlu Bağırov (1924-1967) idi. Sünnət toyuna çağırılan yaxın qonşular, qohumlar və kirvəmizin ailə üzvləri də qonaq gəlmişlər.

Abbasəli kirvənin Maral adlı xanımı hündürboy və ağbəniz qadın idi. Kirvənin məndən yaşda kiçik olan iki qızı ilə bir oğlu da var idi. Sonrakı illərdə ailəliklə Bakıya köçən kirvəm, özü və xanımı orada vəfat etmişlər. Qızları ərə getmiş oğlu Asif idman xəbərçisi kimi ANS tele- radio şirkətində işə girmişdir). Kirvəmlə xanımının məzarları Bakı şəhərindəki qəbiristanlıqdadır. Allah Ruhlarına rəhmət eləsin! Amin!

Atamın bir qardaşı ilə iki bacısı var idi. Əmim Bağır Hacı Məhəmməd oğlu Bağırov (1903-1986) Naxçıvan qəzasının Nehrəm kəndində doğulmuş və kənddəki məktəbdə ibtidai təhsil almışdır. İkinci Dünya müharibəsində iştirak edən əmim, topçu alayında kiçik serjant kimi və xidmətə görə ikinci dərəcəli "Şöhrət" ordeni ilə mükafatlanmışdır. Müharibədən sonrakı illərdə Bağır əmim bolşevik kimi, əvvəl Kommunal xidməti İdarəsi və Mebel fabrikində məsul vəzifələrdə işləmişdir. Ailə vəziyyətinə görə Naxçıvan şəhər Soveti İK-nin qərarı ilə əmimə Əzizbəyov küçəsində ("Cığatay məhəlləsi"ndə) ev tikmək üçün torpaq sahəsi verilmişdir.

Əmim Nehrəm kəndindən Leylan Vəliqulu qızı ilə (1917-1994) evləndikdən sonra, beş qız və dörd də oğlanları olmuşdur. Oğlanları Qalib, və Vaqif, qızları isə Anella, Gültəkin, Nəcibə, Püstə və Mehriban idi. Anella gənclik illərində özündən çox yaşlı və bir ayaqlı şikəst baytar həkimi Hüseyn Həbib oğluna ərə getmişdir. Ərinin ölümündən sonra üç kişiyə ərə gedən Anella, 2010-cu ildə vəfat edir. Mərhuməni Naxçıvan şəhər qəbiristanlığında birinci əri Hüseynin məzarı yanında dəfn etmişlər. Allah birinci əri Hüseyn və özünün Ruhlarına rəhmət eləsin! Amin!

Bağır əmim 1966-cı ildə Naxçıvan şəhər Ticarət İdarəsində mağaza müdiri işləyəndə tutularaq həbs olunur. Atam yeganə qardaşının azad olması üçün əlindən gələni etsə də faydasız olmuşdur. Müharibə veteranı kimi "Şöhrət" ordenli əmim, SSRİ Müdafiə Naziri marşal R.Y.Malinovski (1898-1967) və marşal A.A.Qreçkoya (1903-1976) yazılı xahiş etsə də cəzasını həbsxanada başa-baş çəkməli olur.

Bağır əmimin cəza müddəti qurtarmasına az qalmış, Duvannı Penitensiar xidmət (cəzaçəkmə) Kalonunda, qaz borusunun partlaması nəticəsində yanaraq və 2-ci dərəcəli əlil kimi azadlığa buraxılır. (Həmin hadisə ilə atam bərk təşviş keçirsə də, qardaşının sağ qalmasına sevinmişdir). Əmim Naxçıvana gələndə atam onun üçün qurbanlıq qoç kəsdirərək, ətini məsciddəki yoxsullara paylayır. (bax; "71-ci ilin qışı" filmi, FB-film studiyası 1972 (ağ-qara).

Bağır əmim yalnız həbsdən gələndən sonra aydın olur ki, dükanın malını qəbzlə dükançı iş yoldaşı nehrəmli Hüseynə vermiş və məhkəmədə günahkar kimi həbs olunmuşdur. Təqaüdə çıxandan sonra dünya həyatındakı uğursuz taleyinə heyfsilənən Əmim, 1986-cı ildə qüssədən vəfat edir. (Vəfatından bir neçə gün əvvəl həyatını qısa da olsa mənə danışan əmim, ağlayaraq halallıq istəmişdi). Bağır əmimin məzarı Naxçıvan şəhər qəbiristanlığındadır. Allah Ruhuna rəhmət eləsin! Amin!

Bacım Bənövşə Abdulla qızı Bağırova (1930-201.) Naxçıvan Tibb Məktəbini bitirdikdən sonra Nehrəm kənd xəstəxanasında tibb bacısı işləmişdir. Kənddə Şəhrabanu nənəmin evində qalan bacım, yalnız həftədə bir gün ərzaq üçün evimizə gəlirdi. İki ildən sonra bacımın iş yerini şəhərdəki Respublika xəstəxanasına dəyişirlər. O, 1992-ci ildə təqaüdə çıxanadək həmin xəstəxanada işləmiş və sərhəd bölgələrində ermənilərlə döyüşlərdə yaralanan əsgərlərə, tibb bacısı kimi yardım etmişdir. (bax; “Bizim ailə” filmi, FB-film-1967, (ağ-qara).

1963-cü ilin payızında bacım Bənövşə, əsilləri Ordubad rayonu Dəstə kəndindən dəlmiş Əsgərov Allahverdi Məhərrəm oğlu (1933-1990) adlı oğlana ərə gedir. Atadan yetim qalan Allahverdinin Əli Məhərrəm oğlu adında böyük qardaşı öldükdən sonra, anası Mələknisə ilə bir evdə yaşamışdı. (Mələknisə qarının böyük oğlu vəfat etdikdən sonra, iki otaqlı evin birində də Məhərrəm Əli oğlu adında körpə oğlu ilə dul gəlini qalırdı). Bacımın övladı olmadığından yetimxanadan dövlət qeydiyyatı ilə qız uşağını övladlığa götürüb və adını da Xanım qoyur. (Qız yetkinlik yaşına çatanda, İntiqam Bədəl oğlu tərəfindən qaçırılaraq və ona ərə gedir).

Firdovsi qardaşım, mətbəədə çapçı işləyəndə oradakı xadimə Məhbubə Əsgər qızı (1925-201.) ilə evlənir. Qardaşımın Məhbubədən Əkbər, Əsgər və Hafizə adlarında uşaqları olur. (bax; “Bizim ailə” filmi, FB-film-1967, (ağ-qara). Qardaşım, xanımının sözü ilə Bakıya köçür, və 1994-cü ildə yenidən Naxçıvana qayıtdıqdan sonra vəfat edir. Məzarı Naxçıvan şəhər qəbiristanlığındadır. Allah Ruhuna rəhmət eləsin! Amin!

Naxçıvan şəhərində doğulmuş ortancıl qardaşım Məmməd Abdulla oğlu Bağırov (1939-2009), 1954-cü ildə orta məktəbi bitirdikdən sonra, Bakı 5 №-li Texniki-Peşə Məktəbində oxuyub və kino mexaniki peşəsinə yiyələnir. 1963-cü ildə Şıxmahmud kəndində kino mexaniki işləyən qardaşımı, atamın xahişi ilə yeni yaradılan Televiziya və Radio verilişləri Komitəsində (sədri S.Babayev idi) texnik mexanik işinə götürürlər.

Məmməd qardaşım şəhər Ticarət İdarəsində mühasib işləyən Tamilla Abbas qızı (1939-201.) ilə evlənir. Bakı Neft və Kimya İnstitutunun avtomatika və telemexanika mühəndisliyi şöbəsində qiyabi oxuyan qardaşım, sonrakı illərdə 1976-cı ildə Naxçıvan Televiziyası rəngli təsvir sistemə keçəndə, ailəliklə Bakı şəhərinə köçür. Onların Tahir, Abbas və Niyazi adlarında oğlanları olmuşdur. 2006-cı ildə Tahir ürək xəstəliyindən və 2009-cu ildə isə atası qəlb iflicindən vəfat etmiş. Hər ikisinin məzarları Bakı şəhərində qəbiristanlıqdadır. Allah Ruhlarına rəhmət eləsin! Amin!

Diğər böyük qardaşım İsrafil Abdulla oğlu (1941-201.) Naxçıvanda anadan olmuş, orta məktəbi bitirdikdən sonra Naxçıvan Mebel Fabrikində dülgər köməkçisi işləmişdir. Əsgərlikdən sonra bir neçə il Araz SES tikintisində işlədikdən sonra, uzun illər Şəhər Elektrik İdarəsində kabelçi işində çalışmışdır. Haliyədə qardaşım təqaüd almaqla xanımı Gültəkin ilə bərabər Dövlət Arxiv İdarəsində işləyir.

1968-ci ildə İsrafil əmim qızı Gültəkin Bağır qızı (1949-201.) ilə evləndikdən sonra Rüqəyya ilə Gülsüm adlarında qızları ilə Abdulla, Ramiz və Rövşən adlarında da oğlanları olmuşdur. Uşaqlarından Abdulla hələ körpə ikən Gülsüm isə ərə gedəndən sonra vəfat etmişdir. Məzarları şəhər qəbiristanlığındadır. Allah Ruhlarına rəhmət eləsin! Amin!

İsrafil qardaşım, tövbə edərək İslama hidayət olmuşdur. Onun övladları evlənmiş, qızı Rüqəyya Arxiv idarəsində, oğlanları Ramiz hərbi hissədə zabit və Rövşən isə Televiziya mərkəzində operator işləyir. Romalı antik təbabətin klassiki Qalen Klavdi (e.ə. 201-(?)) belə söyləmişdir:

> *"Hər kəs özünü sevdiyindən öz eybəcərliyini görə bilməz. Bu eybin əlamətləri təzahür etdikçə də onu dərk edə bilməz."*

> *"Allah hər canlını bir sudan yaratmışdır. Onların bəzisi qarnı üstə sürünür, bəzisi iki, bəzisi isə dörd ayaq üstündə gəzir. Allah istədiyini yaradır. Həqiqətən Allah hər şeyə qadirdir." (Nur surəsi, 45).*

> *"Kaş ki, bu zalım dünyada doğulmayasan."*
>
> (Rabindranat Taqor)

Uşaqlıq-şıltaqlıq

“Tale (qədər) Allahın dünyada yazdığı bir proqramdır. Taleyə iman, Allaha iman etməyin bir formasıdır. Allah, insana taleyində dünyada mütləq olacaq işlərin zamanı, yeri, və necə olacağını əvvəldən yazmışdır”.

Ağlım kəsəndən doğulduğum evdə valideynlərimdən “Allahu Əkbər” sözlərini eşitmişəm. Evimizdə hər gün valideynlərim namaz qılar və ildə bir ay da oruc tutardılar. Ailənin “son beşiyi” olduğumdan uşaqlıqda azacıq ərköyün böyümüşəm. (Bütün bunlar isə mənəvi tərbiyə almağıma zərər gətirərək, cəmiyyətdə inkişafımı ləngitmişdir). Həzrəti Məhəmməd (s) Peyğəmbər buyurmuşdur;

> *“Ata-ana uşağına əxlaqdan gözəl və daha üstün miras buraxmaz.”*

“Kiçik ikən hər uşaq edilməzsə tərbiyət,
Böyüyəndə görünməz onda ədəb, nəzakət.”

Ailəmizdə atam dövlət qulluqçusu olduğundan ata tərbiyəsindən uzaq düşmüşdüm. Anam məni “son beşik” kimi ərköyün böyütdüyündən, hər şeyə laqeyd olmuşdum. Atamı görmədiyim günlərdə, evdəki divardan asılmış fotoşəkilinə baxaraq təskinlik tapırdım. Evimizdəki divardan asılan parça üzərində çəkilmiş tanımadığım gülərüz bığlı kişinin qucağında qız uşağı olan şəkildən xoşum gəlirdi. Sonralar anam deyərdi ki; “həmin “bığlı əmi” yoldaş Stalinin şəklidir”. Lakin mən anamın dediklərindən heç nə başa düşməsəm də, şəkildəki “bığlı əmi”nin qucağındakı qız uşağından daha çox xoşlanırdım.

Atamı məhəllədə “hökumət adamı” nümayəndəsi kimi hamıdan böyük və qüvvətli bilib, onunla fəxr edirdim. Alçaq, tavanı hisli, torpaq döşəməli bir otaq və dəhlizdən (qəhvəxanadan) ibarət evimiz var idi. Otaqda dəmir çarpayı ilə iki kətil və ortalıq mizindən başqa avadanlıq yox idi. Divardakı kiçik taxçaların birinə atamın kitabları, digərində gündəlik işlənən qab-qacaq və “yük yeri” deyilən böyük taxçada isə yorğan-döşək yığılardı.

Evimizin ortasında döşəmədə qazılmış kiçik təndir və üstündə isə taxtadan düzəldilmiş kürsü var idi. Samanla suvanmış damın üstündə kiçik baca olduğundan, təndirdən qalxan tüstü ordan eşiyə çıxırdı. Anam hər gün təndirdə saxsıdan düzəldilmiş "qara çölməkdə" dadlı xörəklər bişirərdi. Ağzı duvaqlı (qapaqlı) saxsı çölməkdə doğranmış yağlı qoyun əti, qabığı soyulmuş soğan, noxudulu, lobyalı və ətirli göy-göyərti ilə bişirilən şam yeməyi, mənə qismət olmurdu. Belə ki, axşamdan yorulub yatdığım üçün, çölməkdən yayılan xörəyin xoş ətri ilə kifayətlənib və şam yeməyini yuxuda "yeməli olurdum".

Dəhlizdəki divarda kərpicdən hörülmüş buxarı ocağı var idi. Anam ocaqdakı çuğun qəhvədanda ətirli otları dəmləyərək və üfürə-üfürə dəmir parçda çay içərdik. Ailəmiz mən bildiyim kimi firavan günlərini yaşayırdı. Çünki zamanın hökmü ilə bizdən pis yaşayan kasıb qonşuların pis yaşadıqlarını görürdüm. Geniş həyətyanı əkin sahəmizdə meyvə ağacları, bostan-tərəvəz bitkiləri və taxıl da əkib becərirdik. Həyətdəki tövlədə inək, qoyun, keçi və quş hinində isə toyuq, ördək və qaz saxlayırdıq. Həyətimiz hasarsız olduğundan, yalquzaq təhlükəsindən qorunmaq üçün, "Alabaş" adlı qırmızıtük köpəyimiz də var idi.

1954-cü ildə Naxçıvan MSSR-in 30-cu ildönümündə atamın xahişini nəzərə alan yerli hökumət tərəfindən, evimizə abonent radio xətti və axşamdan gecəyədək yandırılan elektrik xətti də çəkmişlər. Günortalar həyətimizə yığışan məhəllə qızları, atamın gətirdiyi "Rekord" radio ucadanışanı ilə səslənən konsertə həvəs göstərirdilər.

Payız-qış aylarında hər il tövlədəki heyvanlarımız bala doğurdu. Anam süddən qatıq-qaymaq hazırlayıb həm özümüzə yedirər və həm də qonşulara pay verərdi. Bundan başqa ehtiyaclı qonşulara, həyətdəki əkilmiş meyvə-tərəvəz məhsullarından da pay verərdi. (İnsan qəribə məxluqatdır belə ki, kasıb qonşulara kömək etsək də, bəziləri isə bizə həsəd aparırdılar). Böyük qardaşım Firdovsi ata-anamdan xəbərsiz Məhbubə ilə evləndiyindən, bizdən ayrı evdə yaşamalı olmuşdu. Bənövşə bacım Naxçıvan Tibb Məktəbində kurs bitirdikdən sonra, Nehrəm kəndindəki xəstəxanaya işə göndərildi.

Qardaşlarım Məmməd və İsrafil isə məhəllədəki 5 №-li məktəb şagirdləri idi. Yay aylarında məhəllə adamları ilə bərabər ailəmizdən də, yanacaq üçün Naxçıvan çayına gedib və təzəklə yulğun yığardılar. Bacım Bənövşə çox vaxt məni özü ilə çölə aparmazdı. Mən bütün günü məhəllə uşaqları ilə yorulunca oynayırdım.

Məhəllədəki üç qəbiristanlıqdan ikisi müharibədə əsir düşmüş alman əsgərlərinin və biri isə müsəlman məzarları idi. Müsəlman qəbiristanlığının ortasında çuxura bənzər otlu yerdən "Bəktaş arxı" nın suyu, şəhərdəki "Çimən məhəlləsi"nə tərəf axırdı. (bax; "Plan, xəritə və foto şəkillər" bölməsinə). Çəmənlikdə axşamlar yığışıb uşaqlarla söhbətləşərdik. Uşaqlarla "dava-dava", "aşıq atma", "çippolik vurma", "qayışa girmə", "eşşək beli qırma" adlı oyunlar oynayıb və günümüzü "mənalı" keçirirdik. Oynayanda uşaqlardan zədələnmə halları olsa belə, oyunumuzu yarımçıq qoymurduq. (Ertəsi günü zədələmiş uşaqların valideynləri, anama şikayət edərək məni günahkar bilirdilər)...

Uzun sürən qış aylarında çayın donmuş buzu üstündə sürüşüb, qar topu oynaya-oynaya soyuqdan büzüşərdik. (Əlli-altmışıncı illərdə çaydakı su qalın buzla örtüldüyündən, buz üzərində dərin "çalalar" qazılıb və su götürülərdi). Məhəllədəki kəhriz quyularından qış aylarında tüstüyə bənzər su buxarı qalxardı. Biz həmin "tüstünün" nə olması ilə maraqlansaq da qorxudan quyulara yaxın getmirdik. Sonrakı illərdə həmin kəhriz quyularının üstünü örtüb basdırmışlar. (bax; "Xəritə, plan və foto şəkillər" bölməsinə).

Yaz aylarında isə məhəllə uşaqları ilə kolxoz tarlasına gəzintiyə çıxırdıq. Evdən apardığımız bişmiş yumurta ilə pendir-lavaşı, "Canan bəy kəhrizi" arxından yığdığımız yarpızla, dürməkləyib iştaha ilə yeyər və sərin sudan doyunca içərdik. İsti yay günlərində Naxçıvan çayının ilıq suyunda çimib, isti qumlaqda uzanıb bədənimizi günəşlə qaraldırdıq. Qayıdanda kəhriz suyundan doyunca içər və su qablarımızı da doldurub evə gətirirdik. Payız aylarında qurumuş tikan kollarından tonqal qalayıb, yığdığımız göbələkləri közdə bişirər və qızarmış çöl qarpızı meyvələrini iştahla yeyərdik.

Uşaqlıq illərinin şıltaqlığını hələ də kədərlə xatırlayıram. Soyuq payız günlərinin birində adət üzrə anam, isti su üçün alümin qazana su doldurub və evdəki neft sobasına (maşınkaya) qoymuşdur. Səhər yatağımdan qalxıb üşüdüyümdən maşınkanın yanında qızınırdım. Tələsik ayağa duranda köynəyimin ətəyi qazana ilişdi və qaynar su üstümə töküldü. Ağrıdan qışqırıb həyətə qaçanda anam özünü mənə yetirdi. Qarnımdan aşağa tökülən isti su dərimi yandırmışdı. (Həmin hadisədən sonra bir neçə vaxt, evdə arxası üstə uzanıb və yanıq dərmanı ilə müalicə olundum).

Yaz ayları təzə başlamışdır, məhəllədəki "Əli kişinin dəyirmanı"nın (Yuxarı dəyirman) yanında uşaqlarla oynayırdıq. Uşaqlara cəsarətlə dedim ki; "Kim qorxmadan dəyirmanın "donuzluğuna" su novu ilə sürüşüb düşə bilər?" Uşaqlar bu işdən qorxaraq geri çəkildilər və hətta "aradan çıxanlar" da oldu. (bax; "Plan, xəritə və foto şəkillər" bölməsinə). Özümü hünərli göstərmək üçün su novunun içərisinə atlandım. Güclü su axını məni bir anlığa aşağıdakı "donuzluğa" apardı. Su tökülən taxta pərin üzərində fırlanaraq aşıb su axınına düşdüm. Cırılmış köynəklə sudan çıxıb uşaqların yanına gələndə, heç bir şey olmamış kimi evimizə dağılışdıq. (Mənim gözlənilməz hərəkətimdən qorxan uşaqlardan, hətta tumanlarını batıranlar da olmuşdur).

Yaz günlərinin birində uşaqlarla bərabər "meşəyə" getməli olduq. Meşə yeri Şıxmahmud kəndindən başlayan Bazar çayın hər iki sahilindəki "Nəçənnik gölü"nə kimi uzanan tarla qoryucu zolaq idi. Yolda Sovetabad kəndindən çıxanda, çayın lil suyunun içərisindən keçməli olduq. Bir neçə gün əvvəl çaya güclü sel gəldiyindən suyun rəngi qatı olmuşdu. İki metr enindəki yerdən arxa girib və sudan keçmək üçün cəsarətlə irəli cumdum. Bu zaman suya girməklə elə bir anda da dərin çuxura düşdüm.

Sel suları yumşaq torpağı yuyaraq dərin və ensiz yarğan əmələ gətirmişdir. Su məni yarğana tərəf aparanda qorxudan əllərimlə kənardan yapışmaq istədim. Məhbub adlı qonşumuz cəld əlimdən tutaraq məni yuxarı dartdı. Uşaqlar köməkləşərək məni yuxarı darta-darta yarğandan çıxardılar. (Mənə yardım etdiklərinə görə xilaskar dostlarıma indi də, minnətdaram)...

Yay günlərində Bazar çayında səhərdən axşamacan çimər və özümüzü qumluqda günə verib qaraldardıq. Böyüklərdən eşitmişdim ki, yayda çimib dərisini qaraldan adam, qışın soyuğunda üşüməz. Məhəlləmizdəki dəyirmandan yuxarıda traktorlar, təzə salınan yolda işləyirdilər Yolun altından dəyirmana gələn su, diametri 80 sm-lik beton borularla sürətlə axırdı. Birinci sifona tökülən su, yolun altındakı 25 m.- lik məsafədə beton boru ilə axıb və ikinci sifondan yuxarı qalxaraq dəyirman arxına tökülürdü.

Bir gün uşaqlara dedim ki;

> *"Kim birinci sifondan düşər və su ilə üzə-üzə gedib ikinci sifondan çıxa bilər?"*

Bu sözümdən qorxan uşaqlar dala-dala çəkildilər. Mən cəsarətlə əynimdəki köynəyimi çıxardım və uşaqlara yarı zarafat yarı ciddi halda dedim:

> *"Uşaqlar, məni ikinci sifonun yanında gözləyin..."*

Dərindən nəfəs alıb və su tökülən sifona atlandım. Suyun altında beton borulardakı palçığa bata-bata suyun axını ilə, təngnəfəs halda üzə-üzə gedib və ikinci sifondan yuxarı çıxdım. (Həmin vaxtdan sonra bir həftə ərzində xəstələnərək, yuxuda sayıqlamışam)...

Məhəllə qonşularından avtovağzalda kassir işləyən Müzəffər kişinin Bakıda yaşayan əvvəlki xanımından olan Şəmil və Kamil adında uşaqları var idi. Uşaqlar hər il məktəblilərin yay tətili günlərində Naxçıvana gələrdilər. Analığı Papıl xalanın nəvazişi ilə məhəllə uşaqlarına qaynayıb qarışan qardaşlar, isti yay günlərini mənalı keçirərdilər.

Məhəllə uşaqlarının ləqəbləri var idi ki, çox vaxt onları ləqəblə çağırardılar. Belə ki, Əvəzə "qazı", Məhbuba "üvə", Namiqə "südəmər", Nəsimiyə "balta", Nailə "zauk", Savalana "fatı", Şirəliyə "ərəb", Hüseynə "siçan", Cəbrayıla "cəbi", Ədalətə "kağızbaş", Vilayətə "vili", Natiqə "quru", Rövşənə "koru", Vaqifə "kirpi" deyirdilər.

Bundan başqa Heydərə "hedoş", Qadirə "dayə", İsmayıla "dəllək", Əliquluya "əloş", Abbasa "aba", Qasıma "hambal", Muxtərə "şair", Zakirə "aşıq", Zəkəriyyəyə "zəkoş", İntiqama "itim" və sairə ləqəblər verilmişdir. (Məhəlləmizdəki oğlanlarla bərabər qızların da ləqəbləri var idi ki, məsələn bacım Bənövşəyə "qara" deyərdilər).

Məhəllədə qonşu uşaqlara telefon əlaqəsi yaratmışdım. Evlərə çəkilmiş xəttin bir ucu qulaq radiosuna, digər ucu isə nəm torpağa bərkidilər. 4,5 voltluq cib fənəri batareyası ilə elektrik cərəyanı, evlərdəki radio qulaqlıqlara siqnal ötürülər və cərəyanı xətdən ayırmaqla bir-birimizlə qulaq radiosu ilə danışardıq. (Çox vaxt çəkdiyimiz direklər arası "telefon məftillərini" radio montyorları kəsib yerə tökərdilər).

Məhəllə məscidi yanında Məhəmməd adında bir dəli kişi var idi. O, gəlib məhəllədə uşaqlarla bir yerdə oturar və əcaib-qəribə söhbətlər edərdi. Dəli Məhəmmədin söhbətlərindən xoşlanan uşaqlar ona yemək payı gətirərdilər. Deyilənlərə görə sevdiyi qızı ona vermədiklərindən, özünü yandırmış və Məhəmmədin də başına hava gəlmişdir. Çünki o, həftənin çox günlərini məhəllədəki qəbiristanlıqda keçirərdi.

Məhəllədə əvvəllər Cəhri kənd sakini olmuş “pəhləvan” ləqəbli Allahverdiyev Haqverdi Adil oğlu adında da başqa bir “dəli” kişi var idi. Bu “dəli”, Sovetabad kəndində “cin tövləsi” deyilən uçuq binada qalırdı. Həmin illərdə Sovet hökuməti tərəfindən ev heyvanlarına ağır vergi qoyulduğu üçün, adamlar at, dəvə, qatır, ulaq və bu kimi minik heyvanları sahibsiz kimi çölə buraxmışlar. Cəhrili pəhləvan həmin sahibsiz eşşəkləri tutub və qaldığı “cin tövləsində” saxlayardı.

Məhəllədəki “Kürd Aban” ləqəbli qəssab “pəhləvan”ın eşşəklərini ucuz qiymətə alıb və satdığı ətə eşşək əti də qatardı. Sonradan Abanın fırıldaq işlərindən xəbər tutan Qulu Şirin oğlu adlı alıcını, qəssab bıçaqla öldürür. Beləliklə qəssab fırıldaqçı kimi tutularaq həbs edilir.

“Harada olursunuz olun, ölüm sizi haqlayacaq...” (Nisa surəsi, 78)

“Uşaqlıqda öyrənilən elm daş üzərində yazıya bənzər.”

(Hz. Məhəmməd (s) peyğəmbər)

Məktəb illəri

1953-cü ildə (7 yaşımda), məhəllədəki şəhər 5 №-li yeddiillik məktəbin birinci sinfinə qəbul olundum. (İlk müəlliməm Seyidova Xanım Mir İbrahim qızı (1923-2000) olmuşdur). Həmin illərdə məktəbyaşlı uşaqlar az olduğundan yaşı çatmayanları da məktəbə götürürdülər. Bütün bunlara səbəb isə uzun sürən ikinci Dünya müharibəsində yaranmış sosial ailə çətinliklərinin nəticəsi idi.

Orta təhsili bitirənədək bir neçə məktəbdə oxumuşam. Belə ki, yeddinci sinfi 5 №-li məktəbdə, səkkiz və doqquzuncu sinfi 4 № -li məktəbdə, onuncu sinfi isə 2 № -li məktəbdə oxumuşam. 1964/65-ci dərs ilində ailə vəziyyətinin ağır olması ilə əlaqədar, gündüzlər işləyib, axşam isə 2 № -li fəhlə-gənclər orta məktəbində təhsilimi davam etdirməli olmuşam. Sovet ölkəsinin rəhbəri N.S.Xruşşov (1894-1971), fəaliyyətində (daxili və xarici siyasətdə) subyektivizm və volyuntarizm meyllərinə bilərəkdən yol verdiyindən xalqın rifahı pisləşmişdi.

Həmin illərdə Sovet İttifaqında geriləmə səbəblərindən biri də, daxili siyasətdə çaşqınlıq və xarici siyasətdə də ölkənin talanması olmuşdur. Vətəndaşların ev heyvanları ilə həyətyanı təsərrüfatlara dövlət tərəfindən ağır vergi qoyulduğundan, əhali məcburiyyətdən ev heyvanlarını satıb və meyvə ağaclarını da kəsirdilər. (1959-cu ildən başlayaraq N.Xruşşovun səriştəsizliyindən ölkədə ərzaq qıtlığı başlayır).(bax; “Əsrin tarixini xatırladıqda...” bölməsinə).

Ailəmizdə atamın aldığı 33 manat (rubl) məbləğdəki təqaüdlə ailə saxlamaq çətinləşdiyindən, qardaşımla mən qərara gəldik ki, gündüzlər işləyək və axşamlar da fəhlə-gənclər məktəbində oxuyaq. (Müqayisə üçün həmin illərdə 50 kq-lıq 2-ci növ buğda ununun qiyməti 14 manat (rubl) idi). Sosial vəziyyətimiz ağırlaşdığından, İsrafil qardaşım mebel fabrikində, mən isə kinoda işə girmişdik.

Həmin illərdə Məmməd qardaşım Bakıda tələbə idi, Bənövşə bacım isə Allahverdi adlı kasıb oğlana ərə getmişdir. Atam bacımın toy tədarükü ilə cehizini çətinliklə hazırlamışdır. Qaraçuq kəndindəki V.Lenin adına Kolxoz sədri İsmayıl Həsənovdan xahiş-minnətlə iki kisə taxıl alınmışdır. (Həmin buğdanı məhəllə dəyirmanında üyütdükdən sonra, anam təndirdə toy çörəyi bişirmişdir...)

1964-cü ilin yazından şəhərdəki S.Kirov adına kinoteatrda köməkçi kino mexaniki işləyirdim. Altı saat gündüzlər kinoda işləyib və axşamlar da məktəbə oxumağa gedirdim. Axşam məktəbində şagirdlər yaşlı olduğundan mən sinifdə onlardan seçilirdim. Məktəbi başa çatdıranda sinif nümayəndəsi imtahanlar üçün bizdən pul yığanda, özümə arxayın olub və mən (rüşvət) vermədim. Artıq mən dərslərimi yaxşı oxuduğum üçün, imtahanlardan "əla" və "yaxşı" qiymətlər almışdım. Arzum Moskvadakı Dövlət Kinematoqrafiya İnstitutunun rəssamlıq fakültəsində oxumaq idi. Rus dilini bildiyim üçün, ali məktəbin qəbul imtahanlarına da hazırlaşırdım...

Mənim tale yollarım həyatımda heç vaxt hamar olmamışdır. Belə ki, məktəb direktoru Tamara Vaskanyan (İrəvana ərə getdiyi üçün) işdən çıxdığından, yerinə kimya müəllimi Salman Həsənovu müvəqqəti direktor qoyurlar. Direktor əvəzi Salman müəllimdən 3 iyul 1965-ci il tarixli (imza və möhürlə təsdiq olunmuş) Orta təhsil haqqında Attestat (Az. № 062852) alanda, bilik qiymətləri "kafi", yalnız əxlaq "əla" və rus dili fənnindən "yaxşı" qiymətlər yazıldığını gördüm.

Sənədimin səhv yazıldığından şikayət edəndə direktor dedi ki;

> *"Xəsislik edib imtahanlara pul verməyənin qiymətləri də kafi olmalıdır."*

Hirslənərək dedim ki; "Əxladan "əla" qiymət alan şagirdə məgər belə münasibət bəslənilir?" Budan sonra Salman müəllim başını aşağa salıb və mənim sualımı cavabsız qoydu. Həyatımda ilk dəfə haqsızlıqla qarşılaşanda, müəllimimə nifrət edib və Attestatı cırmaq istədim. (Özümə toxtaxtlıq verərək və səbirli olmağı düşündüm).

"Səbir və dözüm acı görünər,
İçərisinə girənlərə şirin olar."

(Sədi Şirazi)

Bütün bunların üstündən neçə illər keçmişdi. Ehtiyaclı yazıq görkəmə düşən Səlman müəllim, artıq məsciddə namaz ibadəti ilə dünyadakı günahlarının bağışlanmasını istəyirdi. Bir gün ona "Naxçıvanın təbii sərvətləri" (Bakı-2008, 198 səhifə) adlı kitabımı hədiyyə verəndə, qorxunc görkəm aldı və mənə "maşAllah" deməyi də unutdu. Tezliklə keçmiş müəllimim və məscid yoldaşım dünyadan köçməli oldu. Allah ruhuna rəhmət eləsin! Amin! (Təəssüf ki, müəllimimin mənə elədiyi ədalətsizliyi unuda bilmirəm...)

Həmin haqsızlıqdan bir neçə il keçəndən sonra, axşam məktəbində yenidən oxumaq arzusuna düşdüm. Tezliklə Naxçıvan rayonundakı Sovetabad kənd axşam (əyani-qiyabi) orta məktəbində səkkizinci sinfə qəbul oldum. Məktəbə qəbul olmağımın səbəbkarı Rayon şöbəsində müəllim işləyən dayım Həsən Salmanov idi. Dayımın xahişini nəzərə alan direktor Heydər Rzayev və müavin (məntəqə müdiri) Adil Əliyevin sayəsində oxuduğum məktəbdə sinif nümayəndəsi oldum. Dörd ildən sonra yaxşı qiymətlərlə təkrar orta məktəb bitirməli oldum...

> “Səbrin sonu səlamət, səbir xeyrə əlamət,
> Bəla səndən getsin, sən bəlaya salam et.”
>
> (Nəcib Fazil)

1971-ci il iyulun 8-də Naxçıvan MSSR Naxçıvan rayon Qiyabi Orta Məktəbi bitirəndə, Attestat (Az № 423964) sənədindəki qiymətlər aşağıdakı kimi olmuşdur;

Ana (azərb.) dili 4 (yaxşı), Ədəbiyyat 4 (yaxşı), Rus dili 5 (əla), Cəbr 5 (əla), Həndəsə 5 (əla), SSRİ tarixi 4 (yaxşı), Ümumi tarix 5 (əla), İctimaiyyat 4 (yaxşı), Fizika 5 (əla), Astronomiya 4 (yaxşı), Kimya 5 (əla), Biologiya 4 (yaxşı), Coğrafiya 5 (əla), Rəsmxət 5 (əla), (möhür və imzalar); direktor Heydər Rzayev, müavin Adil Əliyev müəllimlər: Ə.İbrahimov, B.Qasımov, Ə.Ləzgiyev, R.Nəcəfov, B.Əsgərov.

Məktəb illərində mənim gözəl paltarlarım və hətta məktəbli geyimim də olmamışdır. Birinci sinfə gedəndə anam mənim üçün qalın parçadan tikdiyi məktəbli heybəsinə, kitab-dəftərimi yığıb və tozlu-palçıqlı yol ilə məktəbə getmişəm. Əllinci illərdə ölkədəki məktəb təlim proqramında “hüsnxət” fənni tədris olunurdu. Səliqəli olduğumdan müəllimim yazı dəftərini məktəbdəki şagirdlərə nümunə göstərirdi. Uşaqlıq illərindən səliqəli olduğum üçün, yaxşı xətlə yazmağa və rəsm çəkməyə də həvəsli idim.

Məktəb illərində uşaq ədəbiyyatını mütaliə etmək və şəkilli kitablara maraq göstərirdim. Anamın mənə verdiyi qəpikləri yığıb özümə kitab, rəng, fırça və rəsm albomu da almışdım. Kitablardakı nağıl rəsmlərini məharətlə ağ vərəqlərə köçürüb və uşaqlara göstərirdim. Rəssamlığa həvəsim olduğundan “Pionerlər evi”ndəki rəssamlıq dərnəyinə üzv yazılmışdım. Dərnəyə müxtəlif məktəblərdən şagirdlər gəldiyindən bir-birimizə qayğı göstərməklə yoldaşlıq edirdik. Mənimlə dostluq edən uşaqlardan Həmzə Sadıqov, Məmməd Şirzadov, Mircəlil Seyidov, Babək Abuzərli, Baba Babayev, Nəriman Əliyev, Arif Bəktaşi, Bəhruz Axundov və başqaları sonrakı illərdə rəssamlıq sənətinə yiyələnmişlər. (Dərnəkdə bacarıqlı rəssam Məmməd Qasımov dərnək üzvlərinə təsviri incəsənətdən təlim verirdi).

Məktəb illərində kitab həvəskarı kimi bir neçə kitabxanaya üzv olmuşdum. Belə ki, Orta məktəb, Pionerlər evi, Mərkəzi kitabxana və "Səhiyyə maarifi evi"nin kitabxanasına da üzv yazılmışdım. Mütaliə etdiyim kitablara həvəs artdıqca, nədənsə məktəbdəki əsas tədris fənlərinə marağım azalırdı. Bununla belə Rus dili və ədəbiyyatı fənninə həvəs göstərdiyim üçün, məktəbdəki "Rus dili" dərnəyinin fəal üzvlərindən olmuşdum. Məndə istər-istəməz dəqiq elmlərə laqeydlik yaranmışdı. (Elə buna görə də sonrakı illərdə məntiq elmindən çətinlik çəkməli olmuşdum).

Məktəbdəki Rus dili və ədəbiyyatı fənnini, erməni millətindən olan müəllimlər tədris edirdilər. Onlar Sonya Simonyan, Arkadi Cəlalyan, Sergey Torosyan və başqalarıydı. Həmin illərdə maarifdə milli pedaqoji kadrlar olduqca azlıq təşkil edirdi. Səkkizinci sinifdə Rus dilindən dərs deyən Mollayev İbrahim (1930-1997) adlı gənc müəllim, şagirdini məktəbdən "qaçırdığı üçün" həbs edilərək pedaqoji işdən uzaqlaşdırılır. (1961-ci ilin oktyabr ayında "Şərq qapısı" qəzetinin müxbiri Məmməd Rzayev İbrahim müəllim haqqında felyeton yazmışdır).

İmam Gəzəlinin belə bir sözü vardır:

> *"Müəllimini həmişə hörmətlə yad et. Çünki müəllim haqqı ana-ata haqqından üstündür. Ana-atan dünyanı tanıdar, müəllimin isə axirətini tanıdar. Ona görə də müəllimə hörmət, valideynə hörmətdən əfsəldir."*

Məktəb illərində yuxarı sinifdə oxuyanda təbiət elmlərinə də maraq göstərirdim. Lakin bununla belə dəqiq elmlərə həvəsim azalırdı. Bütün bunların əsas səbəbi, xudbin və zalım riyaziyyat müəllimləri "çer" ləqəbli Riza Qibləliyev və "maççon" ləqəbli Məmməd Məmmədov idi.

Oxuduğum məktəblərdə şagirdlərini sevən müəllimlərdən ibtidai sinif müəlliməsi Xanım Seyidova, Azərbaycan dili və ədəbiyyatı müəllimlərindən Rəna Rəsizadə, Lətifə Hüseynova, Hüseyn Məmmədov və Bəhmən Qasımov, Rus dili və ədəbiyyatı müəllimi Hüseyn Qoçəliyev, Ararat Bağırov və Fəxrəddin Məmmədovun adlarını fəxrlə çəkmək olar. Fizika-riyaziyyat müəllimlərindən Qadir Məmmədov və Adil Əliyev, kimya müəllimi Heydər Rzayev, təbiət- coğrafiya müəllimlərindən Bilqeyis Əliyeva, Mənsurə Əliyeva və Ramazan Nəcəfov, tarix müəllimlərindən Leylan Hüseynova, Məmili Məmmədov və Əsgər Ləzgiyev, rəsm-rəsmxət müəllimlərindən Arif Əsədov və Rəcəb Rəcəbov və başqaları olmuşdur. Dünyadan köçən müəllimlərimin Ruhuna, Allahdan rəhmət diləyirəm. Amin!

“Hər kəs yaxşı əməllə gəlsə, onu bu əməlin müqabilində bir mükafat gözləyir. Bələləri o günün dəhşətli qorxusundan əmin-amanlıq içində olurlar.” (Nəml surəsi, 89)

“Qaranlığı lənətləməkdənsə, şam yandırın.”

(Konfutsi (Kun-Tszı))

“Könüllü” iməciliklər

Belə bir söz gəlişi məsəl vardır; “Bu, fani dünyada yaşamaq üçün həftənin iki gününü biyar fəhləliklə və qalmış günlərini isə faydalı işlə keçirmək gərəkdir.” “Öz zəif cəhətini etiraf edən adam güclü olar.” (O.Balzak).

Sovet dövlətinin kommunist ideologiya formalarından biri də, kommunist iməcilikləri deyilən “könüllü” fəhləlik idi. Bu barədə Ensiklopediyada belə yazılmışdır; “Kommunist iməcilikləri-Sovet əməkçilərinin cəmiyyət naminə təmənnasız könüllü iş formalarından biri kimi, adamların əməyə kommunist münasibətlərini bildirir. Kommunist iməcilikləri xarakteri və mahiyyətinə görə sosializm yarışının rüşeymləri, onun ilk formalarından idi. Bu barədə V.L.Lenin “Böyük təşəbbüs” adlı yazısında belə demişdir:

> *“... Kommunist iməciliklərinin həqiqətən çox böyük əhəmiyyəti vardır... çünki bu-fəhlə və kəndlinin özündəki intizamsızlıq, burjua xudbinliyi üzərində, mənfur kapitalizm adətləri üzərindəki qələbəsidir.”*

(bax; “ASE”, 10 cilddə (V cild) Bakı-1981).

Hələ Rusiya bolşevikləri başda V.İ.Lenin olmaqla Moskvadakı bir neçə fabrik, zavod və dəmir yolu vağzallarında pulsuz işləməklə və kommunist ideologiyasında irs qoyulmuşdur. Onlardan biri də 1918-ci il aprelin 11-də Moskva şəhərində Mixelson zavodunun həyətindəki təmizlik işləri idi. Həmin dövrdə çəkilmiş bir foto şəklə görə fəhlələrlə yanaşı Vladimir Ulyanov (Lenin) iri bir kötükdən yapışmış halda təsvir olunub. Sovet dövlətində ildə bir dəfə aprelin 11-i “Kommunist iməciliyi günü” olsa belə, sonrakı rəhbərlərin hakimiyyəti dövründə ilin müxtəlif vaxtlarında və həftənin şənbə günləri məcburi hala çevrilmişdir. (Qəribədir ki, həmin sosialist adət və ənənəsi indiki hakimiyyət dövründə də davam etdirilir).

Sosializm cəmiyyətinin mənfur ictimai formalarından biri olan kommunist iməciliyi- yəni biyar fəhləlik, nəinki istehsalat sahəsində çalışanlara aid edilmiş, bu adət ənənə hətta mədəniyyət və elm sahəsində çalışanlara və habelə ali, orta ixtisas və icbari təhsil kollektivlərinə də hakim kəsilmişdir. Yaxşı yadımdadır ki, şəhər 5 №-li yeddiillik məktəbin beşinci sinfində şagird idim. Sentyabr ayının son və soyuq günləri idi. Məktəbin direktoru İdris Səlimov, dərs hissə müdiri Abdulla Axundov və sinif rəhbərimiz Rəna Rəsizadə ilə bərabər sinfə girdilər. Direktor təkidlə şagirdlərə, sabahdan məktəbə gələrkən köhnə paltar geyimində və nahar üçün hər kəsin özünə yemək- içmək gətirmələrini bildirdi.

Ertəsi günü məktəbə gəldikdə üstüaçıq yük maşınlarına minib və kolxozçulara pambıq yığımında köməyə getdik. Bizi ilk günlərdə Naxçıvan rayonundakı Vayxır kəndinin pambıq tarlasına gətirdilər. Orada uşaqlar maşından düşdükdən sonra siniflər üzrə cərgələrə düzdülər. Pambıq tarlasında hər bir uşağa ayrıca kətandan tikilmiş torba-döşlüklər paylanıldı. Bundan sonra bizə pambığı necə yığmaq təlimatı öyrədilib və hər bir uşağın da gün ərzində azı 10 kq pambıq yığması bildirildi.

Uşaq şıltaqlığı ilə sevincək pambıq əkini cərgələrinə düşəndə, kollar arasında bitmiş tikanlı "cız otu"nun sünbülləri paltarımıza yapışdı və açılmış qozaların da iynəvarı ucları barmağımızı deşib qanatdı. Yorulub taqətdən düşən uşaqlar, günortaya kimi hər biri 5-6 kq pambıq yığa bildilər. Yığdığımız pambığı sahənin kənarında qoyulmuş qapan- tərəzidə çəkdirib və briqada başçısına təhvil verdik...

Məktəbli gənclərin kənd əməkçilərinə pambıq yığımında yaxından kömək etmələri, noyabr ayının əvvəlinədək- yəni Oktyabr bayramı gününədək çəkirdi. Həmin ərəfədə məktəb tədris proqramı əsasında keçiriləcək dərs mövzuları, müəllimlərin tapşırığı ilə hər kəs evində oxuyub sərbəst öyrənir və sinif jurnalları isə formal yazılırdı. Dərs ilinin birinci rübü ərzində məktəblilərin dərsə davamiyyəti və biliklərin öyrənilməsi formal hal daşıyırdı. Mətbuat səhifələrində sosializmdə cəmiyyətin iməciliklər keçirməklə kənd əməkçilərinə köməyi yazılaraq təbliğ edilirdi. O illərdə ideoloji təbliğat və təşviqatın ən güclü forması qəzet və jurnallar idi. (Həmin dövrlərdə radio və televiziya hələ də öz inkişafını tapmamışdır).

Böyüyüb yaşa dolduqca, oxuduğum məktəbdə sinifdən-sinfə keçib və 1960-cı ildə yeddiillik məktəbi bitirməli oldum. Məktəbimizin direktoru Sərvər Seyidov, məktəbdə işləyən Ruqiyyə müəllimə ilə əxlaqsızlıq üstündə tutularaq partiyadan çıxarıldı və məcburi cəzaçəkmə (penitensiar) xidmətinə göndərildi. Yeni direktor Asya İsmayılovanın (1932-2011) imza və möhürü ilə təsdiq olunmuş məktəbi bitirmək haqqında mənə "Şəhadətnamə" verilmişdir.

Şəhadətnamədəki bilik göstəriciləri aşağıdakı kimidir; Əxlaq-"əla", Ana dili və ədəbi qiraət-"yaxşı", Azərbaycan dili-"yaxşı", Rus dili-"yaxşı", Hesab-"yaxşı", Cəbr-"yaxşı", Həndəsə-"yaxşı", Təbiət-"əla", Tarix-"əla", Coğrafiya-"əla", Fizika-"yaxşı", Kimya-"yaxşı", Xarici (ingilis) dili-"yaxşı", Rəsmxət-"əla", Tədris emalatxanasında və məktəb tədris təcrübə sahəsində praktik məşğələlər-"əla".

1970/71-ci dərs ilində bizim sinif uşaqlarının sənədlərini orta məktəbdə oxumaq üçün şəhərdəki M.Sidqi adına 4 №-li məktəbə göndərirlər. Həmin məktəbin direktoru alçaqboy şişman Abbas Abbasov idi. Məktəbdə səkkizinci sinifdə oxuyanda sinif rəhbəri, tarix müəllimi Leylan Hüseynova və doqquzuncu sinifdə isə riyaziyyat müəllimi Məmməd Məmmədov (ona "maçon" ləqəbi verilmişdi) oldu.

1962-ci ilin may ayında məktəbdə, oxuduğum doqquzuncu sinfin son rübündə idik. Moskvada Sov. İKP-nin XXII Qurultayının (1961-ci il 17-31 oktyabr) qərarından sonra, SSRİ-də sosialist ictimai münasibətlərinin inkişafı və təkmilləşdirilməsi məsələsində ümumtəhsil məktəbləri tədris proqramında dəyişiklik edildi. Sovet dövlətinin qəbul etdiyi qərara görə məktəblərin kənd əməkçilərinə kömək məqsədi ilə, kolxoz tarlalarında "məktəb tədris-təcrübə sahələri" yaradıldı.

Beləliklə məktəbin yuxarı sinif şagirdləri, iyun ayında kənd əməkçilərinə kömək etməli idi. Hər səhər məktəbin qarşısından üstüaçıq yük maşınları ilə Naxçıvan rayonundakı V.Lenin adına Kolxoza (Qaraçuq kəndi) taxıl tarlasına gedib və zəmidəki alaq otlarını təmizləyirdik. Bu iş də pambıq yığmaq kimi çox yorucu idi. Mən aradan bir həftə keçəndən sonra, daha təcrübə sahəsinə getmədim.

Məhəllə uşaqlarından mənimlə oxuyan sinif şagirdləri bildirdilər ki, ot yığmağa getmədiyimə görə sinif rəhbəri Məmməd müəllim bərk hirslənib. Məndə nədənsə ictimai işlərə uşaqlıqdan həvəs olmadığından, məktəb və təcrübə sahəsinə getməkdən imtina etdim. Buna görə də dərs ilinin sonunda Məmməd müəllim mənə Riyaziyyat və İstehsalat təlimi fənnindən "qeyri kafi" qiymət yazmalı oldu.

> "Bu dünya bir oyundursa, adamlar da oyunbazdır,
> Sıramızda "qoyun" varsa, demək, adam, sayın azdır." (Hacı Firudin).

Məktəb ömür səhifələrinin sonrakı illərini, şəhərdəki C.Məmmədquluzadə adına 2 №-li orta məktəbdə keçirməli oldum. İşin tərsliyindən həmin il (1962) Sovet dövləti Xalq Maarifi Nazirliyinin qərarı ilə ümumtəhsil məktəbləri səkkizillik və onbirillik sisteminə keçirildi. Beləliklə bir il dala qaldığımdan, yeni məktəbdə doqquzuncu sinfi təkrar oxuyub və on birinci sinfi bitirməli oldum. (Keçmiş sinif yoldaşlarım isə, on illik orta təhsil proqramını 4 nömrəli məktəbdə başa vurdular).

Oxuduğum 2 №-li məktəbdə yeni uşaqlar və yeni müəllimlərlə qarşılaşaraq yeni günlər yaşamalı oldum. İllər keçdikcə dünya həyatında gənclik həvəsi ilə yaşayırdım. Ailə vəziyyətim ağır olduğundan on birinci sinfə keçəndə, məktəb direktoru Əqil Yusifzadəyə ərizə ilə müraciət edib və axşam məktəbinə keçdim. Gündüz kinoda işə götürüldüm, axşam isə 2 №-li fəhlə-gənclər orta məktəbin on birinci sinfində təhsilimi davam etdirirdim. (Beləliklə hər həftənin şənbə günləri mədəniyyət işçiləri kimi, iməcilik şüarı ilə mənfur ideologiyanın biyar fəhləsinə çevrildik).

“Şübhəsiz ki, Allah kafirlərə lənət eləmiş və onlar üçün yanar od hazırlamışdır. Onlar orada əbədi qalacaq, (özlərinə) nə bir hami, nə də bir mədədkar tapa biləcəklər.”
(Əhzab surəsi, 64-65)

“Bir saat elm öyrənmək, altmış illik ibadətdən xeyirlidir.”

(Hz. Məhəmməd (s) peyğəmbər)

Qabiliyyət həvəsi

“Elm öyrənməkdən öncə ədəbi öyrən.” (İmam Malik)

Allah ilk insanı (Həzrəti Adəmi (ə)) yaradanda ona xarici gözəlliklə bərabər daxili gözəllik də bəxş etmişdir. Xarici gözəllik dedikdə, insan bədəni (Qızıl nisbətdə) simmetrik quruluşda olması, dərisinin və tük örtüyünün rəngi, sifətinin gözəl cazibədarlığı və sairədir. Daxili gözəllik dedikdə isə tamamlığı (İlahi proqramlı bədəndəki bütün orqanların vacibliyi), nəcibliyi, harmonik nitqi, tərzi-hərəkəti, xasiyyəti, və sairə nəzərdə tutulur.

Bütün bunlarla yanaşı Allah hər bir fərdə xüsusi qabiliyyət həvəsi də bəxş etmişdir. İnsan müəyyən mənada oxuyub alimlik dərəcəsinə çatsa da, onun xüsusi qabiliyyət (İlahi proqramlı hidayət və təsəvvüf) həvəsi olmalıdır. Dünya həyatında hər insan xüsusi qabiliyyətə malik ola bilmir, bunun üçün adamda fitri istedad olmalıdır.

Dünya həyatında belə adamlar minlərcə olmuşdur. Onlardan həkim və filosof Platon (Əflatun) (e.ə. 428-348), rəssam, mühəndis və memar Leonardo da Vinçi (1452-1519), ilk mühəndis-ixtiraçı və kibernetika elminin banisi Cəzəri (1136-1206), ensiklopedik riyaziyyatçı Nəsrəddin Tusi (1200-1273), astronom, etnoqraf və tarixçi Biruni (973-1051), ilk tibb ensiklopedik alimi İbn Sina (980-1037), görkəmli fizik Albert Eynşteyn (1879-1955), riyaziyyatçı və fizik İsaak Nyuton (1642-1727), radionun ilk ixtiraçısı Aleksandr Popov (1859-1906), müsəlman opera musiqi sənətinin banisi Üzeyir Hacıbəyli (1885-1948) və başqalarını misal çəkmək olar.

Qədim dövrün Yunan həkim və filosofu Hz. Loğman (Kpatilin) və Sokratın yetirmələri olmuş Platon (Əflatun) demişdir ki;

> *“İnsandakı ağıl (şüur) bədəndəki Ruhun qabiliyyətlərindən biridir. Ağıl- hər şeyin yaradıcısı olduğundan, o, olmasa Ruhda da heç bir qabiliyyət həvəsi olmaz.”*

Mən uşaqlıqdan “dəcəl” olsam da, fitri istedad bacarığımla digər uşaqlardan fərqlənirdim. Belə ki, həyatımda ilk əvvəl rəng çalarlarını düzgün seçməyi, işıqla kölgənin təzadlığını bilərək gözəl əl qabiliyyətinə malik idim.

Uşaqlıqdan rəssamlığa həvəsim olduğumdan, kitab mütaliəsini sevərək və foto-kino sənətinin də vurğunu olmuşam. Uşaqlıq illərində həmişə özümün foto və kino kamerası olmasını arzulayıb və cəmiyyətdə yaradıcı sənətkar olmağı arzulamışam. Uşaqlıq illərində ayda bir dəfə evimizin yaxınlığındakı Kirov adına Kolxoz idarəsinin həyətinə səyyar kino qurğusu gətirilərdi. Oradakı divardan asılan ağ parça (ekran) üzərində kino şəkilləri nümayiş olunurdu. Camaatın marağına səsli kino tamaşaları daha çox gəldiyindən, ertəsi günü adamlar bir-biri ilə kinodan həvəslə danışardılar.

Kino nümayişi günündə dərslərimi tələsik hazırlayıb və məhəllə uşaqları ilə kolxoz həyətinə qaçardıq. Avtomaşında gətirilən avadanlıqlar meydanda quraşdırılaraq, lent hissələrini kino aparata tərs salıb və adamların yığılması üçün uca səslə səsləndirilirdi. Kino mexaniki Firudin usta (sonrakı illərdə F.Məmmədov "SSRİ-nin əlaçı kino mexaniki" fəxri döş nişanı almışdır), Rus dilində olan kinoşəkilləri bizə Azərbaycanca başa salırdı.

1958-ci ildə həyətimizin şimal-şərq hissəsində (Bazar çayının kənarında) məhəllə uşaqları ilə köməkləşib 3,5x6,5 m ölçüsündə ucalığı isə 2 m olan üstü örtülü bina tikdik. Tikilinin arxa tərəfində əlavə 2x2 m ölçüsündə, kiçik pəncərəsi olan kino kamera otağı da tikdik. Anamın məktəb bufetində xərcləməyə verdiyi pulları yığıb, özümə adi "Filmoskop" aparatı ilə müxtəlif mövzulu diafilmlər (fotoplyonkada pozitiv təsvir) almışdım. Həmin aparatı təkmilləşdirərək, günəş işığı ilə əks olunan "kineskop" da düzəldə bilmişdim. Mənim "ixtiram" maraqlı olsa belə, lakin bulutlu havada istifadəsi yararsız vəziyyətə düşürdü. Bütün bu vəziyyəti nəzərə alıb və adi elektrik lampası ilə işləyən "elektro kineskop" düzəltdim. (Həmin aparatla diafilmləri geniş formatda nəinki gündüzlər, hətta gecələr də nümayiş etdirmək olurdu).

Yay aylarında şəhərin digər məhəllələrindən uşaqlar məhəllədəki "bənd yeri" deyilən çimərliyə gəlirdilər. Çimməyə gələn uşaqlar diafilmlərə maraq göstərib və mənimlə dostluq etməyə başlamışlar. Artıq bizim "kino zalda" ağ-qara diafilmlərdən başqa rəngli diafilmlər də nümayiş olunurdu. Rəngli diafilmlər əsasən uşaq nağılları əsasında çəkilmiş və Rus dilində izahı olan (subtitrli) kadrlardan ibarət idi.

Tez bir vaxt ərzində uşaqların yardımı ilə mağazadan nəinki nağıllar, hətta elmi-kütləvi və tədris diafilmləri də alıb və "film fonda" daxil etmişdik. Uşaqlar üçün məhəllədə yaratdığım tərbiyəvi "əyləncə kino mərkəzindən" valideynlər və hətta müəllimlərimiz də məktəbdə danışıb razılıq edirdilər. Tərbiyəvi "əyləncə kino mərkəzi"nin əks-sədası digər məhəllələrə də yayılaraq, hətta yaşlı adamları da özünə cəlb etmişdi.

Məhəllədə bazar günlərində maraqlanan yaşlılar üçün xüsusi elmi-kütləvi diafilmlər nümayiş edirdik. Həmin filmlər təbiətin qorunması, insanın sağlamlığı, siqaretin orqanizmə zərəri, əhalinin hava hücumundan müdafiəsi və başqa mövzularda idi. Filmlərin nümayişində və uşaqların təşkilatçılığında məhəllə uşaqlarından Əvəz, Məhbub, Savalan və Şirəli (Qadir) fəallıq göstərirdilər.

Məktəbdə yuxarı sinif şagirdləri mənim qabiliyyətimdən söz salıb danışırdı. Hətta məktəbimizin Pioner Baş dəstə rəhbəri Hüseynova Günəş müəllimə, mənim fəal Pioner kimi xüsusi qabiliyyətim haqqında "Azərbaycan pioneri" qəzetinə "Fitri istedadlı pioner" başlıqlı məqalə yazıb göndərmişdi.

Mən çox arzulayardım ki, nümayiş edilən kino şəkilləri hərəkətli olsun. Artıq bu illərdə adi foto aparatla foto şəkillər də çəkməyə başlamışdım. Kino və foto sənətinə aid mağazadan (elmi-texniki məlumatlar Rus dilində idi) kitablar alıb oxuyurdum.

Böyük qardaşım İsrafil taxtadan mənin üçün yaraşıqlı rəssam qutusu (etüdnik) düzəltmişdir. Həmin ikiqapaqlı qutuya rəng, fırça və kağız qoyub, həvəslə məhəllə və çöl mənzərələrini kağız üzərinə çəkirdim. Uşaqlar çox vaxt mənimlə birlikdə gedib və çəkdiyim işimə kömək edirdilər. Mənzərələrdən yaxşılarını aparıb məktəbdəki "Pioner otağı"na vermişdim.

Məktəbdə açılmış əl işlərindən ibarət sərgidə mənim işlərim xüsusi fərqlənirdi. Rəssamlıq qabiliyyətimdən xəbər tutan müəllimlər divar qəzetində mənə satirik rəsmlər çəkdirirdi. (Tənbəl şagirdlər çəkdiyim satirik şəkilləri divar qəzetində görəndə məndən inciyirdilər).

Orta məktəbin son sinfində oxuyanda özümə əvvəl "Fotokor" daha sonra isə güzgülü "Lyubitel" adlı geniş lentli (12 kadrlı) foto kameraları aldım. Çəkdiyim 60 mm-lik sellüloid neqativ lentdəki şəkilləri foto kağıza həvəslə köçürürdüm.

Foto şəkillər kiçik ölçüdə (60x60 mm) olduğundan zövqü oxşamırdı. Bütün bunların səbəbi isə hələ də, mağazada enli lentlər üçün foto böyüdücü aparatının olmamağı idi. Daha sonra isə "Smena" markalı 35 mm-lik adi formatlı (36 kadrlı) foto kamera (fotoaparat) alıb və çəkdiyim neqativlərdən istənilən ölçüdə foto pozitiv şəkillər çap etməyə başladım.

Uşaqlıq və gənclik illərindəki çəkdiyim foto şəkillər əsasən məhəllə uşaqları və mənzərələrdən ibarət idi. İlk dəfə (onuncu sinifdə oxuyanda) kolxoz tarlasında çalışan pambıqçı qızın foto portretini çəkib "Şərq qapısı" qəzetinə vermişdim. (Qəzetdəki foto şəklə görə mənə müəllif haqqı olan (qonarar) pul yazıb vermişdilər).

1965-ci ildə ilk dəfə aldığım həvəskar kino kamerası ilə məhəllədə hərəkət edən kino şəkillər çəkib və uşaqlara göstərdim. Həmin hadisə həyatımda ilkin mərhələ kimi, kino yaradıcı qabiliyyətimə təkan vermişdi.

Gənclik illərində kinoda işləyərək və maddi ehtiyacımı ödəmək üçün bir qədər pul toplamışdım. Şəhərdəki "Dinamo" idman malları mağazasından "Sport" adlı ensiz (8 mm-lik) lentli sadə kinoçəkən kamerası aldım. Kamera ilə tez bir vaxt ərzində bir neçə qısa metrli kino epizodlar çəkdim. Həmin filmlərə rejissor, operator, rəssam, və ssenari işlərini özüm etdiyim üçün çətinliklə qarşılaşırdım.

Süjetli filmlər çəkəndə əsasən məhəllə uşaqlarından istifadə edib, onların iştirakı ilə qıssa epizodlar çəkirdim. Məhəllə uşaqları kinoda obrazlar yaratmaq üçün ssenaridə yazılan oyunlara (rollara) böyük həvəs göstərirdilər. Çəkilən səhnələrin işıqlanma təchizat işini yalnız günəş işığını ağ kağız lövhə ilə edirdik.

Filmdəki kadrların baxımlı olması üçün kinokameranı yuxarı yerdə (ağac, divar, damın üstü və s.) saxlayaraq panorama çəkirdim. Xüsusilə çayda çimmək, suya baş vurmaq, savaş səhnələri və başqa epizodlar dinamik olduğundan həmin səhnələr yuxarıdan çəkildiyi üçün daha baxımlı görünürdü.

Kino çəkilişi "meydanında" uşaqlarla bərabər yaşlı adamlar (valideynlər) da gəlib bizə maraq göstərirdilər. Əksər vaxtlarda "aktyorları" özüm qrimləyib və onlara evdən lazım olan paltar-papaq da gətirməli olurdum. Qrimə aid rəng və əşyaları mənə sinif yoldaşım Dram teatrın aktyoru Mirzə Ələkbərovun oğlu Cavanşir gətirirdi.

Filmlərin yazılarını (titrlərini) özüm yazsam da xüsusi ştativ (üçayaq) olmadığından kadrların statik çəkilməsində çətinlik çəkirdim. Ağ-qara təsvirdə çəkilmiş lentləri özüm hazırladığım kimyəvi dərmanlarla xüsusi spiralvarı qabda (baçokda) aşkarlayıb və kölgədə qurudurdum.

Qurumuş lentləri nömrəli kadrlara görə kəsib aseton məhlulu ilə uclarını bir-birinə yapışdırıb və adi maqnitofon babinlərinə sarıyırdım. Kino filmlərin başlanğıc rakordlarında "F.B.-film studiyası- Naxçıvan" sözlərini mürəkkəblə (tuşla) yazıb və nömrələyirdim. Hazırlanmış filmin lazımsız kadrlarını kəsib və aldığım "Luç" adlı 8 mm.-lik kino proyektorda montaj edirdim.

Kamera qarşısında çəkilən oyunçular (uşaqlar), ekranda 5-8 dəqiqə ərzində özlərinə tamaşa edib sevinirdilər. (Hərəkətli kinofilmlər də diafilm kimi ekranda səssiz nümayiş olunurdu). Sonrakı illərdə nümayiş zamanı ekranın yanında patefon qoyub və klassik musiqi vallarını səsləndiririrdim. Kino ilə bərabər foto şəkillər də çəkib və qabiliyyətimi inkişaf etdirirdim. Belə ki, xarici filmlərdəki ekran qəhrəmanlarının kadrlarını foto şəkillərə köçürürdüm. (Həmin illərdə cavanlar Hind və Azərbaycan ekran qəhrəmanlarının foto şəkillərinə həvəs göstərirdi).

1965-ci ilin axırınadək 15 adda xronikal və süjetli filmlər çəkib hazırlamışdım. Həmin ilin son ayından icbari hərbi qulluğa çağırıldım. Təəssüf ki, qardaşım İsrafil evdəki qonaqlara çəkdiyim filmləri göstərəndə lentlərin perforasiya cığırlarını korlamışdır. Belə lentlərdən biri də 1965-ci ildə çəkdiyim 10 dəqiqəlik xronikal "Pambıqçı qızlar" adlı film idi.

1967-ci ildə ilk dəfə rəngli təsvirdə 10 dəqiqəlik "Ərzaq dükanının açılışı" adlı xronikal və 10 dəqiqəlik ağ-qara "Naxçıvan ədəbiyyat muzeyi" adlı filmlərini çəkib hazırladım. (Sonrakı illərdə hər iki filmi Naxçıvan Ədəbiyyat muzeyinə hədiyyə verdim).

1968-ci ildə (baytarlıq elmləri namizədi C.Bağırovun məsləhəti ilə) 20 dəqiqəlik ağ-qara "Balbas qoyunçuluğu" adlı tədris filmini çəkib və Naxçıvan Kənd Təsərrüfatı Texnikumuna hədiyyə etdim. (Naxçıvan Kənd Təsərrüfatı Texnikumunda işləyəndə 10-dan artıq sənədli tədris filmlər, 100-dən artıq xronikal sənədli foto şəkillər və bir neçə yağlı boya ilə çəkdiyim tabloları hədiyyə etmişəm).

1969-cu dərs ilində Gənc Texniklər Stansiyasında işə girdikdən sonra orada məktəb uşaqları üçün "Kino həvəskarı" dərnək- studiya yaratdım. "Uşaq texniki dərnəkləri" adlı filmi Stansiyaya hədiyyə verdim. (Həmin ildə Stansiyada üç ədəd sənədli tədris filmi çəkib hazırladım).

Naxçıvan MSSR Xalq Maarifi nazir müavini Əli Məhəmməd oğlu Hüseynov (1914-1987), filmə baxdıqdan sonra dərnəyin həftəlik saatını artırılmasını məsləhət görmüşdür. (Stansiyanın direktoru Əsgər Nəzərov televiziyanın kino operatoru Ənvər Rəhimovu işə götürüb və dərs saatımın yarısını da ona verdi). Mən kino və foto həvəskarı kimi həyatımda rəssamlıq qabiliyyətini də inkişaf etdirirdim. Rəssamlıqla bağlı fəaliyyətim şəhərdəki Ernest Telman adına Pioner və Məktəblilər Evindən başlamışdır.

1973-cü ildə N.Krupskaya adına Moskva Xalq İncəsənət Universiteti rəssamlıq fakültəsini bitirib və Pionerlər evində uşaqlara rəssamlıq sənətini öyrətməyə başladım. Həmin ilin payızında Azərbaycan şairi İmadəddin Nəsimi portretinin çəkilməsinə açıq müsabiqə elan olunur. (Müsabiqədə iştirak etmək marağı ilə mən də, şairin portretini yağlı boya ilə çəkməyə başladım).

Nəsiminin portretini orta əsr geyimində, sağ əl çənəsində mənalı baxışlarla əzəmətli İlan dağının fonunda təsvir etmişdim. Çəkdiyim tablonu çərçivəyə salıb və Pionerlər evinə hədiyyə etdim. Müsabiqə xalq rəssamı M.Abdullayevin çəkdiyi portret münsiflər tərəfindən bəyənilir.

1972-ci ildə Naxçıvanda Muxtar Respublika Rəssamlar Birliyi yaradılır. (İlk sədri SSRİ Rəssamlar İttifaqının üzvü Məmməd Qasımov İdi). Burada tez-tez gənc rəssamlarının yaradıcılıq sərgiləri açılırdı. Bir neçə dəfə həmin sərgidə mən də iştirak etməli oldum. Tezliklə Rəssamlar Birliyinin sədri M.Qasımovu çıxarıb və həmin vəzifəyə Ordubad şəhər məktəbində müəllim işləyən Şamil Mustafayevi götürürlər. (Sonrakı illərdə Birliyin sədri Abuzər Qardaşbəyov, Babək Abuzərli, Mircəlil Seyidov, Hüseynqulu Əliyev və Ülviyə Həmzəyeva olmuşdur).

Şamil müəllim işlədiyi müddətdə yalnız öz şəxsi mənafeyini güdənlərdən idi. Çəkdiyim boyakarlıq tablolarını qohum- əqrəba və işlədiyim müəssisələrə hədiyyə edib və rəssamlıq sənətindən uzaqlaşmalı oldum. Həmin illərdə yağlı boya ilə çəkdiyim “Bardaq ilə meyvələr“ və ”Güllər” natürmortu ilə “Göl mənzərəsi” və atamla anamın karandaşla çəkdiyim portretləri yadigar saxlayıram.

Həyətimizdə atamın icazəsi ilə foto-kino laboratoriyası üçün kiçik bina tikmişdim. Orada xüsusi temperatur şəraiti yaradaraq, ağ-qara və rəngli lentləri aşkarlayıb və foto şəkillər çap edirdim. Artıq həmin illərdə enli lentlər üçün “Lyubitel-2” və ensiz lentlər üçün də “Leninqrad-2” adlı universal foto böyüdücülər almışdım.

Bədii foto sənəti də rəssamlıq sənətinə uyğun bir peşədir. Fotoqrafiyada işıq-kölgə, rəng təzadları, harmonik kompozisiya, kadr (mövzu) seçmək, fantaziya (təxəyyül) və başqa estetik duyumlar, xüsusi ustalıq tələb edir.

Həmin illərdə bədii foto sərgiləri nadir hallarda təşkil olunurdu. Naxçıvanda indi də foto həvəskarlarının yaradıcılıq sərgiləri təşkil olunmur. (Bütün bunlara səbəb Mədəniyyət və Turizm Nazirliyi ilə Gənclər və İdman Nazirliyinin laqeydliyindəndir). Sovet hakimiyyəti illərində həvəskar sənət sərgilərini Komsomol, Mədəniyyət və Həmkarlar təşkilatları təşkil edirdi.

1979-80-ci illərdə iki dəfə Muxtar respublika Xalq Yaradıcılığı Evində mənim foto işlərimdən ibarət "Bədii foto sərgisi" açıldı. On günlük sərgidən sonra mənə Mədəniyyət Nazirliyinin "Fəxri fərmanı" verilmiş və "Şərq qapısı" qəzetində isə sərgidə nümayiş olunmuş əməkçilərin portretləri dərc olunmuşdur.

1982-ci ildə Moskvada işləyən Heydər Əliyevin (1923-2003) köməyi ilə şair-dramaturq H.Cavidin (1882-1941) 100 illik yubileyi ərəfəsində məzar sümükləri İrkutsk vilayətindən Naxçıvana gətirilməsinə təşəbbüs yaradılır. Naxçıvan Vilayət Komitəsinin ikinci katibi Həmid Cəfərovun sədrliyi ilə heyət üzvləri, (Daxili İşlər Naziri müavini Telman Əliyev və Ali Sovetin deputatı Zakir Nəsirov) Rusiyanın İrkutsk vilayətində repressiya qurbanı olmuş H.Cavidin sümük qalıqları Naxçıvana gətirilib dəfn edilir.

Foto şəkillərin hazırlanma işləri mənə tapşırılmışdır. 500-dən artıq müxtəlif ölçüdə fotoları neqativlə bərabər hazırlayıb və H.Cəfərova vermişəm. Azərbaycan televiziyasının 2006-cı ildə çəkdiyi "Qayıdış" adlı sənədli filmin çəkilişində lənətlənmiş İblis, Həmid Cəfərovun əlində göstərdiyi tarixi foto şəkilləri çəkən müəllifin (Feyruz Bağırovun) adını unutdurur...

Böyük Fransız yazıçısı Viktor Hüqo demişdir ki;

> *"Yanılanlar gördükləri işin haqq olduğuna inanaraq yanılırlar."*

Dünya həyatında haqsızlıq həmişə olmuş və yenə də olmaqdadır. Rəhmətlik atam belə bir söz söyləmişdir;

> *"Şeytan qəvi, düşmən güclü, əqrəbada ki, xain çıxanda baş götürüb köçmək şərəfdir."*

Lakin hər işdə bir hikmət, hər hadisədə isə bir ibrət olmalıdır.

Hər kəs hər gün ətrafında baş verənləri diqqətlə araşdırmalı sabaha doğru nikbin olmalıdır. Qərar çıxaranda Allahın kitabı Quran rəhbər və Hz. Məhəmməd (s) Peyğəmbərin sünnəti (dedikləri) isə yolumuz olmalıdır. Çünki xeyrə, bərəkətə, səadətə gedən yol ancaq bu istiqamətdədir. Əgər insanın qərarı bu istiqamətdə deyilsə və onun cüzi iradəsi Allah-təalanın külli iradəsi ilə uzlaşarsa, o vaxt həmin niyyətlər sahibinə fayda verməz.

1982-ci ildə mədəniyyət sahəsində işləyəndə Bakıda Respublika həvəskar kino kollektivlərinin çəkdikləri filmlərin baxış-müsabiqəsi keçirilirdi. Şəhərdəki 2 №-li Mədəniyyət evi (müdiri Əli Nəbiyev idi) nəzdində ictimai əsaslarla həvəskar "Gənclik" kinostudiyasına rəhbər təyin olunmuşdum. (bax; "Bizim mədəniyyət evində" filmi, FB-film studiyası-1982, (ağ-qara), "Qış etüdləri" filmi, FB-film studiyası-1982, (rəngli). Həmin ildə çəkdiyim "Naxçıvan toyu" adlı film müsabiqədə qalib gələrək və Diplomla mükafatlanır. (Həmin film ağ-qara təsvirdə lentə çəkildiyindən və estetik baxımdan zəif olsa belə müsabiqədə 2-ci yeri tutmuşdur). (bax; "Naxçıvan toyu" filmi, FB-film studiyası-1982, (ağ-qara).

Naxçıvan Mədəniyyət Nazirliyinə (nazir Fəttah Heydərov idi) Moskvadan teleqram gəlir. Moskvada Mədəniyyət üzrə Ümumittifaq Elmi-Metodik Mərkəz tərəfindən həvəskar kino kollektivləri rəhbərlərinin seminarı keçirilirdi. Azərbaycandan yeganə namizəd olduğum üçün apardığım "Naxçıvan toyu" filmi Moskvada göstərildi. (Filmin surəti ilə fonoqramı Moskva Elmi-Metodik Mərkəzdə saxlanılır).

Moskvadan qayıdan zaman kino sənətinə aid olan avadanlıqlar alıb özümlə bərabər Naxçıvana gətirdim. İşıqlandırıcı reflektor, ştativ, "Avrora" və "Kvars" tipli dəyişən fokus obyektivli "Super" perforasiyalı kino kamerası, "Rus" adlı universal kino proyektor və sairə... (Yaradıcılığı inkişaf etdirmək üçün 16 mm-lik (ferromaqnit və fotoqrafik) səsli "Raduqa" markalı kino proyektor da alıb gətirmişdim).

1993-cü ildə son dəfə (nitro selliolid əsaslı kino lentinə) "20 ildən sonra" adlı rəngli film çəkib və yaradıcılığa fasilə verməli oldum. Buna səbəb ictimai quruluşun dəyişməsi ilə sosial vəziyyətin çətinləşməsi olmuşdu. Belə ki, əvvəlki kimi bir neçə yerdən gələn gəlirlər dayandığı üçün şəxsi avtomobilimi ucuz qiymətə satmaqla nəticələndi. (bax; "20 ildən sonra" filmi, FB-film studiyası-1993 (rəngli).

1990-cı ildə 3 №-li məktəbdə müəllim işləyəndə əmək haqqı çox alsam belə iqtisadi çətinliklə üzləşdim. Müəllim yoldaşlarım şəhər İcra hakimiyyətinin qərarı ilə (sədri Həsən Abdullayev idi) şəxsi dükan üçün yer alır. Əhali Rus mallarını İrana apararaq əvəzində ərzaq malları gətirib və "ticarətlə" məşğul olurlar. Mən isə yeni yaranmış ictimai-sosial vəziyyətdən baş çıxara bilmədiyim üçün nə edəcəyimi bilmirdim.

Doxsanıncı ildə Sovet dövlətinin dağılması nəticəsində erməni terrorçuları Ermənistan ərazilərində yaşayan soydaşlarımızı yurd yerlərindən qovub didərgin salırlar. Hərbi hissələrdə və dövlətin güc nazirliklərində intizamsızlıq yaranır. (Həmin ərəfədə mənim qabiliyyət həvəsim sanki sabun köpüyünə bənzəyirdi)...

Mənim son qabiliyyətim mənəviyyat həvəsi ilə, dini-tarixi mövzulu məqalə və kitablar yazmaq olur. Artıq yaşa dolduğumdan məndə mənəviyyat aləminə yaxınlaşmaq həvəsi baş qaldırır. Həyatımın ahıl vaxtlarında Yaradanın qarşısında günahlarımı bağışlatmaq üçün, tövbə edərək hidayət yoluna qədəm qoymaq istəyirdim. Bunun üçün isə dünya həyatına aludə olmayıb xeyirxah işlər görməklə Allaha və İslam dininə bağlandım. Tezliklə mənəvi tərbiyəyə aid olan kitabları mütaliə edib və əsgi əlifbada yazıb-oxumağı öyrənirdim.

1996-cı ildə İranın Xorasan vilayətindəki Məşhəd şəhərində müsəlmanların 7-ci İmamı Hz. Riza (ə)-ın məzarını ziyarətə getdim. Yol qeydləri əsasında həmin ildə yazdığım "Ziyarətnamə" adlı ilk turist bələdçi kitabını nəşr etdirib və ziyalılara hədiyyə etdim. İlk kitabım turizm-mənəviyyat sahəsində və İran İslam Respublikasının tarixi şəhərləri ilə maraqlananlar üçün bələdçi rolunu oynayırdı. (bax; F.Bağırov, "Ziyarətnamə" Bursa- 1996, 80 səh.).

İkinci kitab Muxtar Respublikanın yaradılmasının 75 illiyinə töhfə kimi "Nuh yurdu-Naxçıvan" adlanır. Kitabın əvvəlində insanın xeyirxah əməlləri, sonrakı bölmələrdə isə Naxçıvandakı qədim dövrlərdən günümüzədək olan tarixi-ictimai hadisələr ardıcıllıqla göstərilir. Hər iki kitablara oxucuda maraq yaratmaq üçün, foto şəkillər də əlavə edilmişdir. (bax; F.Bağırov, "Nuh yurdu Naxçıvan" Bursa- 1999, 84 səh.).

Üçüncü kitab "Əzablı günlər" adlı iki şəkilli, iki pərdəli mənzum-psixoloji tarixi pyesdir. Xalq teatrları üçün metodik vəsait, Azərbaycanın realist rəssamı B.Kəngərlinin 100 illiyinə xatirədir. Pyesdəki obrazlar tarixi şəxsiyyət olub və arxiv sənədləri əsasında qələmə alınmışdır. Həmin pyes ilk dəfə (2002-ci ildə) Naxçıvan estetik tərbiyə Mərkəzi uşaq dram kollektivinin iştirakı ilə oynanılmış və "Mədəni-maarif" jurnalında da nəşr olunmuşdur. (bax; F.Bağırov, "Əzablı günlər" (pyes) Naxçıvan- 2006, 33 səh., "Mədəni-maarif" jurnalı, Bakı- 2007, № 4, 2009, № 8-9).

Dördüncü kitab "Nuh yurduna ziyarət" adlanır ki, Muxtar respublikadakı tarixi-mənəvi ziyarətgahlar və onların yaranma tarixindən söhbət açılır. Həmin vəsait Naxçıvan Muxtar Respublikası ərazilərində müasir turizm sahəsinin inkişaf etdirilməsi üçün dəyərlidir. Kitaba elmi məsləhətçi tarix elmləri namizədi İ.Kazımov, coğrafiya elmləri namizədi Ə.Həsənov və Muxtar Respublika Tarixi Abidələri Mühafizə Cəmiyyətinin sədri Q.Həsənov rəy vermişlər. (bax; F.Bağırov, "Nuh yurduna ziyarət" Bakı- 2007, 222 səh.).

Beşinci kitab "Naxçıvanın təbii sərvətləri" adlanır ki, Muxtar respublikanın təbii sərvətləri olan flora və faunasından, habelə torpaq quruluşundan geniş məlumat verilir. Bu elmi-məlumat vəsaiti, aqrar sahədə çalışan sahibkarlar, həvəskar bağban və təbiəti mühafizə dostları üçün nəzərdə tutulmuşdur. Kitaba kənd təsərrüfatı elmləri namizədi dossent Ə.Quliyev, biologiya elmləri namizədi dossent İ.Sadıqov və kənd təsərrüfatı elmləri namizədi dosent S.Hacıyev elmi məsləhət vermişlər. Rəngli şəkilləri olan kitab, məktəblər, elmi idarə və təbiəti sevən oxucular arasında sevilərək yayılmışdır. (bax; F.Bağırov, "Naxçıvanın təbii sərvətləri" Bakı- 2008, 198 səh.).

Altıncı kitab "Axirət fədaisi" adlanaraq, Azərbaycanın görkəmli ictimai xadimi, hərbiçi və filosof yazıçı Abbasquluağa Bakıxanovun (1794-1847) "Nəsihətlər"inin farscadan müasir dildə ədəbi tərcüməsidir. Kitabdakı şərhlər və yazıçının "nəsihətləri", mənəviyyatla maraqlanan gənc oxucular üçün nəzərdə tutulmuşdur. ("Nəsihətlər"in tərcüməsində əvvəlki illərdə atamın əlyazmasından istifadə olunaraq və mərhumun Ruhuna ehtiram edilmişdir). (bax; F.Bağırov, A.Bağırov, "Axirət fədaisi" Naxçıvan- 2009, 17 səh.).

Yeddinci kitab "Tarixin yaddaşı"dır ki, Muxtar respublikanın yaradılmasının 85 illiyinə töhfə kimi yazılaraq nəşr olunmuşdur. Vəsaitdə eranın əvvəlindən Naxçıvan ərazilərinin sosial-tarixi hadisələri ardıcıllıqla yazılaraq və Azərbaycan Respublikasının müstəqilliyi geniş şərh edilmişdir.

Kitaba tarix elmləri namizədləri F.Cəfərov və A.Qasımovun elmi məsləhəti ilə, Tarixi Abidələri Mühafizə Cəmiyyətinin sədri Q.Həsənov rəy vermişdir. (bax; F.Bağırov, "Tarixin yaddaşı" Bakı- 2009, 420 səh.).

Səkkizinci kitab "Dünya həyatı" adlanır ki, mənəvi-fəlsəfi və tarixi reallıqlar cəmləşərək və müasir oxucuda Yaradana inam hisslərini açıqlayır. Kitaba tarix elmləri namizədi dossent Hacı Abutalıb Qasımov ön söz yazaraq və gənc oxucunun maraq dünyasını mənəviyyata cəlb etmişdir.

İslam mənəviyyatı, tarixi və fəlsəfəsi ilə zəngin olan dini-ensiklopedik vəsait, Türk dünyasının filosofu və zəmanənin İslam təbliğatçısı Adnan Oktarın (Harun Yəhyanın) hikmətlərindən bəhrələnərək və savab iş kimi qələmə alınmışdır. (bax; F.Bağırov, "Dünya həyatı" Bakı- 2013, 300 səh.).

Kitabda dahilərin hikmətli sözlərindən sitatlar gətirib və oxucu qəlbinə bu sözləri salmışam;

> *"Baxdım ki, dünya həyatı bir oyun və əyləncədir. Gördüm ki, gələn gedir, gedən gəlmir. Günlərimsə payız yarpaqları kimi tökülür. Külək kimi əsib gələn ömrümə yandım da, bir fərəh axtardım. Anladım ki, Ruhumun ayrılıq dərdinə ancaq Allah sevgisi dərman ola bilər..."*

Doqquzuncu "Xatırlanan ömür" kitabıdır ki, şəxsi həyatımın acılı-şirinli tarixi hadisələrini qələmə alıb və xatirəyə salmışam. Bədii yaradıcılığımda bir çox elmi-publisistik məqalələrlə dövrü mətbuatda oxucuları düşündürmək istəmişəm. Həyatım boyu haqsızlıqla qarşılaşmış və həqiqət fədaisi kimi mənfiliklərlə mübarizə aparmışam. Lakin hər işdə bir hikmət, hər hadisədə isə bir ibrət görüb, hərdən bir özüm-özümə də təskinlik verərək qəlbimi sərinlətmişəm.

Onuncu "Müsəlmanın maraq dünyası" kitabıdır ki, maraqlı faktlarla oxucunu bununla mənəviyyat aləminə aparmaq istəmişəm. Həmin kitaba əvvəllər atamın və sonra isə mənim farscadan ədəbi tərcümə əsasında yazdığım "Axirət fədaisi" olan A.Bakıxanovun "Nəsihətləri" də əlavə edilmişdir.

1989-cu ildə ilk dəfə olaraq "Sovet Naxçıvanı" qəzetində "Murtuzun hamamı" sərlövhəli satirik janrda yazdığım felyeton dərc olunur. (bax; "Sovet Naxçıvanı" qəzeti, sentyabr № 116 1989 səh. 4). İstər Sovetlər dövrü və istərsə də indiki zamanda mətbuatda felyeton dərc etdirmək müşkül işdir. Çünki söz azadlığından dəm vuran kütləvi təbliğat vasitələri, senzura idarəsinin ("Qlavlit"in) töhmətindən ehtiyat etmişlər.

Felyetonda Kommunist partiyası üzvü fəhlə-ocaqçının rüşvətxorluğu real hadisələrlə qələmə alınaraq ocaqçı timsalındakı savadsız və kütbeyin insanları Kommunist partiyası sıralarına gətirənlər ifşa olunurdu.

Məqalə senzuranın "gözündən yayındığından" şəxsi mənafeyini güdən adi Kommunist fəhlənin ləyaqətsiz hərəkətləri ictimai mühitdə geniş əks-səda yaratmışdır. (Tezliklə şəhər partiya Komitəsindəki müşavirədən sonra Qlavlitin sədri B.İsgəndərli vəzifəsindən azad edilərək qəzetin redaktoru A.Axundov və şöbə müdiri C.Vəzirova partiya töhməti verilir. Daha sonra isə Maarif şöbəsinin müdiri İ.Həsənovun nəzər-diqqətinə çatdırılır və 3 №-li məktəb müəlliminə (müəllifə) isə töhmət verirlər)...

Həyatımdakı qabiliyyət həvəsim çoxsahəli olsa da, göründüyü kimi tale yollarım heç də hamar olmamışdır. Bilirəm ki, dünya həyatında uğur və uğursuzluq da Allahın iradəsi ilə olur. Onun istəyi olmasa budaqdan bir yarpaq belə qopub yerə düşməz. İnsan gərək bütün işlərində şükürlü olsun, gördüklərindən nəticə çıxarsın və hər bir şeyə də qane olsun. İnşaAllah!

> *"Sənətkar qocalar, sənət qocalmaz, sənətsiz həyatda kimsə ucalmaz."*

> *"Əkdiyiniz (toxumu) görürsünüzmü? Onu bitirən sizsiniz, yoxsa Biz?! Əgər Biz istəsəydik, onu bir saman çöpünə döndərər, siz də mat-məəttəl qalardınız." (Vaqiə surəsi, 63-65)*

> *"Gülə-gülə günah edən, ağlayaraq cəhənnəmə gedər."*
>
> **(Hz. Məhəmməd.(s) peyğəmbər)**

Ömrün “yaz” fəsli

Quran ayələrinə görə Allah ilk insanı (Hz. Adəmlə xanım Həvvanı) torpaqdan yaradaraq istəkli bəndəsinə Ruh verib və onları Cənnətdə məskunlaşdırır. Cənnətdə bütün mələklər Adəmə ehtiram əlaməti kimi səcdə etsə də, yalnız tüstüsüz oddan yaradılmış İblis (Şeytan), torpaqdan yaradılmış insanın qarşısında əyilməmişdir.

Tezliklə Cənnətdə İblisin məkrli hiyləsindən xəta işlədən Adəm və Həvva İblislə bərabər Yerə qovulurlar. Yerdə Adəm ilə Həvvanın tövbəsini qəbul edən Allah, onlara yaşamağın sirlərini öyrədir. Kainatdakı bütün aləmlər Allahın sevgi həvəsi ilə yaradılmışdır. (Ona görə də Adəm övladı dünyada sevgisiz yaşasaydı qüssədən məhv olardı).

> *“Sevgi sevəni sevər, aslanı zəncirləyər, daşı yumşaq edər.”(Yunis Əmrə)*

Bəşər övladının sevgisi Yaradanla valideyninə, hami tərbiyəçiyə, ona verilmiş aləmlərə elm, sənət, ailə və övladına yönəlmişdir. Bundan sonra təbiətin rəngarəng çalarları və Allah sevgisi, İnsan vücudundakı (təbiətindəki) inkişaf edən amaldır. Yeniyetmələrdə sevgi həvəsi əsasən gənclik illərində daha çox ehtiraslara səbəb olur. (Orta məktəbin sonuncu sinfində oxuyanda mənim təbiətimdə də belə sevgi həvəsi olmuşdur. Bu əlamət isə təbii olaraq bütün canlılarda labüddür).

> *“Əsl məhəbbət dilsiz olur, çünki həqiqi hisslər sözdən çox görülən işlə ifadə olunur.” (V.Şekspir)*

Həzrəti Əli ibn Əbu Talib (ə) belə buyurmuşdur ki;

> *“Arzu ilğım kimidir, göräni aldadır və ümid edəni də məyus edir.”*

2 № -li məktəbin 10-cu sinfində oxuyanda şagirdlərin çoxusu qızlar idi. Sinfimiz şəhərdəki 4 və 5 № -li məktəblərdən gələn uşaqlar olduğundan ilk günlərdə bir-birimizi tanımırdıq. Sinfimizdə kasıb geyimli şagird iki nəfər idi ki, onlar mən və Süst kəndindən gəlmiş Mehdi adlı oğlan idi.

Köhnə və nimdaş üst paltarım olduğundan, tənəffüs zamanı məktəb həyətinə çıxmağa xəcalət çəkirdim. Sabir küçəsində yaşayan S adında sinif nümayəndəsi qıvrımsaç ağ çöhrəli və orta boylu bir qız idi. S dərs əlaçısı olduğundan, savad və sadəliyinə görə sinifdəki digər qızlardan fərqlənirdi. Tənəffüs zamanı S riyaziyyat fənnindən ev tapşırığıma kömək edər və mən isə onun rəsmxətdən çertyoj işini çəkirdim. (Beləliklə məktəbdən başlayan gənclik həvəsli illər, ilğım kimi əriyib xatirəyə çevrilirdi).

1963/64-cü dərs ilinin son günlərində təbiət-coğrafiya dərsini deyən Mənsurə müəllimənin sözü ilə təbiətə ekskursiyaya getmişdik. Sinif şagirdlərimizlə bərabər, Naxçıvan çayın sol sahilindəki (dəmir körpünün yanında) otlaq bir yerdə dincəlib və xatirə foto şəkilləri çəkdirirdik. (Sonrakı illərdə həmin foto şəkilləri həyat yoldaşım qısqanclıqdan yandırmışdır). (bax; "Xəritə, plan və foto şəkillər" bölməsinə).

On birinci sinfə keçəndə ailə vəziyyətimin maddi çətinliyinə görə, təhsilimi axşam məktəbində davam etməli oldum. Beləliklə gündüzlər kinoteatrda işləyib və axşamlar da (həftənin beş günü) məktəbə gedirdim. Talenin hökmü ilə sinif yoldaşımı bir daha görə bilmədim. Böyük Türk yazıçısı Rəşad Nuri Güntəkin (1889-1956) demişdir ki;

> *"Ayrılıq böyük məhəbbətləri daha da qüvvətləndirir, natamam olanları isə öldürüb məhv edir."*

(1968-ci ildə keçmiş sinif nümayəndəmiz ali pedaqoji məktəbdə xarici dil üzrə təhsil aldıqdan sonra Bakı şəhərinə ərə getmişdir).

1965-ci ilin avqust ayında lazım olan sənədləri, Naxçıvanda yenicə açılmış orta ixtisas Pedaqoji Məktəbin qəbul komissiyasına verdim. Arzum belə idi ki, əsgər gedənədək, pedaqoji məktəbdə təhsil alam. Beləliklə üç fəndən imtahan ("Azərbaycan dili və ədəbiyyatı" inşa yazı "4" şifahi "4" və "Riyaziyyat" şifahi "3" qiymətlərini aldım) verəndən sonra yəqin etdim ki, texnikuma qəbul olmuşam. Lakin məsəl var deyərlər: "Sən saydığını say, gör fələk nə sayır ?!" Bir də belə Atalar sözü var: "Ağıllı fikirləşincə, dəli çayı keçər."

Ertəsi günü divardan asılan məktəbə qəbul olmuş tələbələr siyahısında, mənim adım yox idi. Məktəbə qəbul olmayanların siyahısında isə, adımın qabağında "iki illik iş stajı yoxdur", sözləri yazılmışdır. Atamın xahişini nəzərə alan Pedaqoji Məktəbin direktoru (keçmiş hərbi komissar) Əsgər Əhmədov, sənədlərlə birlikdə imtahan qiymət vərəqini də bizə verdi. Həmin sənədləri gətirib Kənd Təsərrüfatı Texnikumu direktoru Roza Talıbovaya verdikdən sonra, əyani şöbədə "Texnik planavik" ixtisası üzrə tələbə oldum.

1965-ci ilin dekabr ayının 5-də talenin hökmü ilə icbari hərbi qulluğa çağırıldığım üçün, tələbə yoldaşlarımdan ayrılmalı oldum. Əsgəri xidmətdən qayıdandan sonra texnikumda oxuduğum şöbə olmadığı üçün, fərq imtahanı verməklə "Aqrokimya" ixtisasına qəbul olundum.

Kurs rəhbərimiz kimya elmləri üzrə aspirant Raiq Hacılının təşəbbüsü ilə məni Tələbə Həmkarlar Təşkilatının Sədri və Komsomol Komitəsinə də müavin seçdilər. Texnikumun ictimai işlərində fərqləndiyim üçün, Tiflisdə keçirilən Zaqafqaziya Respublikaları orta ixtisas məktəbləri Komsomol fəallarının bir həftəlik seminar müşavirəsinə ezam olundum. (Tiflisdə olarkən Lənkəran və Ağdamdan gəlmiş yeni dostlarla tanış olandan sonra bir müddət onlarla məktublaşırdım).

Tələbəlik illərində texnikumda yaradılmış özfəaliyyət dərnəyində (dərnək rəhbəri Nəriman Sadıqov idi) həvəslə iştirak edirdim. Kollektivin iştirakı ilə rayonlardakı təsərrüfatlara gedib və konsert proqramı ilə çıxış edirdik. (Yerli kütləvi təbliğat vasitələri bizim özfəaliyyət kollektivi haqqında xəbərlər verirdi).

Texnikumda təlim-təcrübə ilə bağlı foto stendlər, divar qəzetləri və bədii təşviqat plakatlarına kömək etdiyim üçün, müəllim kollektivinin hörmətini qazanmışdım. (bax; "Xəritə, plan və foto şəkillər" bölməsinə). Texnikumun tələbə radio qovşağındakı nasaz avadanlıqları sazlayıb, tənəffüs vaxtları radio ilə tədris xəbərləri və bədii özfəaliyyət üzvlərinin lentinə yazılmış çıxışlarını təşkil edirdi.

1967-ci ildə şəhər Komsomol (katib Eldəniz Əliyev idi) və rayon Həmkarlar təşkilatlarının (sədr Rza Əliyev idi) "Fəxri fərman"larını aldıqdan sonra Bilgəhdəki İstirahət Evinə göndərildim. (İstirahət Evinə tələbə yoldaşlarımdan naxçıvanlı Məsum və Noraşenin Ərəbyeycə kəndindən olan Mamed ilə bərabər dincəlməyə getmişdik).

İstirahət Evində dincələn zaman dostlarımla bərabər Quba Sovxoz-Texnikumu tələbə qızları ilə tanış olduq. İstirahət Evində mənalı günlər keçirmək üçün özümlə götürdüyüm "Zenit" foto aparatla xatirə şəkilləri çəkirdim. (Sonradan poçt ilə həmin şəkil nümunələrindən "təzə dostlara" da göndərdim).

1969-cu ilin yayında şəhərdəki "SMU-6" deyilən Su Tikinti İdarəsinin fəhlə qəsəbəsindəki 1 №-li Mədəniyyət Klubuna işə girmişdim. Klubda kütləvi işçi kimi təbliğat və təşviqat işləri apararaq ictimai əsaslarla kino-foto və rəsm dərnəklərinə də rəhbərlik edirdim.

> *"Sevgi müharibəyə bənzəyir. Onu başlamaq asandır, dayandırmaq isə çox çətin." (Mengen).*

Bir gün Klubdakı kitabxanaya gələn uzunsaç bir qızla rastlaşdım. Pedaqoji məktəbin tələbəsi Mehriban adlı həmin qız qəsəbədə sürücü işləyən Mamed Teymurovun qardaşı qızı idi. Həmin il mən iki yerdə, Klub və gənc texniklər Stansiyasında işləyirdim. Texniklər stansiyası Pedaqoji məktəb binasının birinci mərtəbəsində olduğundan hərdən tələbələr gəlib və bizim fəaliyyətimizlə maraqlanırdı.

Ucaboy, ağbəniz və uzun qara hörüklü gənc qızı ilk görəndən bəyənmişdim. Mehribanın oxuduğu məktəb və qaldığı ev mənim iş yerimin yanında olması xoş bir təsadüf idi. Belə ki, evdən məktəbə gedəndə yolboyu onunla söhbətləşib və bir-birimizə bələd olub tanışlığımızı artırırdıq. Həmin ildə atamın dərzi dostu Yusif ustaya tikdirdiyim qara rəngli "boston" kostyumla boynu kraxmallı ağ köynəkdə daha da cazibədar görünürdüm. (Bəzənmiş məhəllə qızları qapıları ağzında dayanaraq və mənim yaraşıqlı geyimimə ehtirasla baxırdılar).

1970-ci il oktyabrın 11-də atam mənimlə Mehribanın evlənmə kəbinini məscidin Axundu İrəvanlı molla Hüseynə kəsdirib və toyumuzu etdi. (Allah möhlət verərsə 2020-ci ildə 50 illik "qızıl toyumuzu" nəvələrimlə birlikdə edərik. İnşəAllah!) Bizim evlənməyimizə ən çox sevinən anam olmuşdu ki, çünki bu ziyafət son beşiyinin toyu idi. (bax; "Kənddə" filmi, FB-film studiyası- 1971 (ağ-qara).

Beləliklə sevgi həvəsli salnamənin xatirələrini "mücrüyə" qoyub qapağın bağladım və "qızıl" açarını da həyətdə qazdığım 15 metrlik su quyusuna atdım. (Hər kəs həmin quyunun suyundan istifadə edərsə, "kankanına" rəhmət diləsin) Güman edirəm ki, ömür səhifələrindəki xatirələrin pozulmasına Fələkdən başqa heç kəsin hünəri çatmaz.

> *"Arvad məşuqəmiz deyil, dostumuz və həyat yoldaşımızdır. Ona görə də təbidir ki, o, yaşa dolduqda, lap qocalıb qarı olduqda da onu sevmək və ona hörmət etmək lazımdır."*
> *(V.Q.Belinski)*

"Allahdan başqa heç bir tanrı yoxdur. Əbədi, əzəli varlıq odur. ... O, bütün yaranmışların keçmişini və gələcəyini bilir. Onlar (yaranmışlar) Allahın elmindən Onun Özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər..." (Bəqərə surəsi, 255)

> *“Beşikdən qəbir evinədək elm öyrənin.”*
>
> **(Hz. Məhəmməd (s) peyğəmbər)**

İxtisaslara yiyələnmək

“Bir elm öyrənmək istədikdə sən,

Çalış ki, hər şeyi kamil biləsən.”

(N.Gəncəvi)

Bütün elmlərin sahibi dünyanın yaradıcısı Allahdır və O, elmləri istədiyi qullarına öyrədər. Kiminsə hər hansı bir elmə sahib olması özündən asılı deyil. Allahın o adama taleyində bir elm verməsi nəticəsidir. Dünya həyatında bir neçə ixtisas sənət və peşələrə yiyələnmişəm ki, onlardan biri kino mexaniki sənətidir. Mədəniyyət sahəsində əmək fəaliyyətinə başlayıb və kino mexaniki sənətinə yiyələnmişəm. Bu sənət üzrə əvvəl şəhərdə daha sonra isə Şıxmahmud və Sovetabad kənd klublarında işləmişəm.

1965-ci ildə Naxçıvan Kənd Təsərrüfatı Texnikumunda (direktor Roza Talıbova dərs müdiri Novruz Sadıqov idi) əyani şöbəyə qəbul olub və icbari hərbi xidmətdən sonra təhsilimi davam etdirmişəm. 1967-ci ildə Sovetabad kənd axşam məktəbində oxuyub və yenidən orta təhsil almaq arzusunda oldum. Naxçıvan rayon Xalq Maarif Şöbəsində müəllim işləyən dayım Həsən Səlmanovun məsləhəti ilə axşam məktəbinin 8-ci sinfinə qəbul olundum. (1971-ci ildə axşam məktəbini əla və yaxşı qiymətlərlə bitirib və ikinci orta təhsil haqqında Attestat aldım).

1970-ci ildə Kənd Təsərrüfatı Texnikumunu “Aqrokimyaçı aqronom” ixtisası üzrə bitirdikdən sonra əl qabiliyyətimi görən İxtisas İmtahan komissiyasının Sədri Kənd təsərrüfatı elmləri namizədi alim Əli Abdullayev, rəssamlıq məktəbində də oxumağı məsləhət bildi. Həmin il lazım olan sənədləri hazırlayaraq aparıb Bakıdakı Ə.Əzimzadə adına Dövlət Rəssamlıq Məktəbinə verdim. Bakıda qəbul imtahanlarından yaxşı qiymətlər alıb və məktəbdəki “Rəsm və rəsmxət müəllimi” şöbəsinə qəbul oldum.

1970/71-ci dərs ilində yenicə dərslərə başlamışdıq ki, məktəbə qəbul olan tələbələrin daimi yaşayış yerin pasport qeydiyyatından çıxmasını bildirdilər. Kurs rəhbərimiz Bağır Bağırzadə müəllimdən icazə alıb və qeydiyyatdan çıxmaq üçün Naxçıvana gəldim. Naxçıvanda pasport qeydiyyat uçotundan çıxandan sonra, Mehribanla birlikdə Sumqayıta gedib və orada birlikdə yaşamağa ev kiraladıq.

Ertəsi günü dərsə gedəndə direktor Əyyub Hüseynov (1916-1998) məni otağına çağırtdırdı. Noraşen rayonunun Xok kəndindən olan direktor mənə ciddi tərzdə;

> *“Bir həftə dərslərdə iştirak etmədiyin üçün məktəbin tələbə sırasından azad olmuşsan”*

dedi. Kurs rəhbəri Bağır müəllimdən icazə alıb pasport və komsomol qeydiyyatından çıxmaq üçün Naxçıvana getməyimi direktora desəm də heç bir xeyri olmadı. Direktor qətiyyətlə dedi ki;

> *"Sənədləri geri götür və sonrakı ildə gəlib yenidən qəbul imtahanı ver."*

(Sonradan öyrəndim ki, rüşvətxor direktor "Eyyub" Azərbaycan Mədəniyyət Nazirliyi işçisinin qızını mənim yerimə tələbə götürmüşdür).

Naxçıvana qayıtdıqdan sonra uğursuz taleyimə görə valideynlərim çox narahat oldular. Həmin sənədləri poçt ilə Moskvadakı N.Krupskaya adına Qiyabi Xalq İncəsənət Universitetinə göndərdim. Bir həftə ərzində Moskvadan mənə Universitetin "Təsviri incəsənət" fakültəsi ikinci kursa qəbul olmaq haqqında tədris proqramı və təbrik məktubu gəldi. Allaha şükür edib və öz-özümə dedim ki;

> *"Elə ağacı qurd içindən yeyər və sapı özümüzdən olan baltalar özümüzə qənim kəsilər"*

.

1971-ci ilin fevralından Naxçıvan Kənd Təsərrüfatı Texnikumuna laborant vəzifəsinə işə götürüldüm. Texnikumda bədii təşviqat işləri mənə həvalə olduğundan şüar, plakat və bədii tərtibat işlərini aparmalı oldum. Bundan sonra isə yeni yaradılmış "Texniki vasitələr kabineti"ni də mənim ixtiyarıma verdilər. Kabinetdə ictimai əsaslarla tələbələr üçün "Foto-kino dərnəyi" yaratdıqdan sonra orada elmi-kütləvi və tədris filmlərinin nümayişini təşkil edirdim.

1973-cü ildə Moskvada qiyabi oxuduğum Universitetin "Dəzgah rəngkarlığı və qrafika" üzrə tam kursunu bitirərək və ali təhsilli rəssam ixtisasına yiyələndim. Həmin il filial kimi fəaliyyət göstərən Naxçıvan Pedaqoji İnstitutu sərbəst oldu. Tarix müəllimi arzusunda olmaq üçün lazım olan sənədləri hazırlayıb və tələbə qəbulu komissiyasına verdim. Bu ərəfədə atam ciddi xəstələnir və qara ciyər iltihabından xəstəxanaya düşür. (Xəstə atam mənə bildirmişdir ki, İnstitutda işləyən Yavuz müəllim ilk yazılı imtahandan mənə kömək edəcəkdir).

Bir qayda olaraq ilk imtahan "Azərbaycan dili və ədəbiyyatı" fənnindən yazılı inşa oldu. İmtahana özüm ilə birlikdə yoxlanılmış yazı surətləri də aparmışdım. İmtahan suallarının biri Rus yazıçısı M.Qorkinin "Ana" romanındakı ana surətinin təhlili idi. Cibimdəki həmin inşa yazısını "ağartma" vərəqinə köçürərək arxayın oldum ki, "əla" və ya "yaxşı" qiymət alacağam.

Atalar deyib ki; “Sən saydığını say gör Fələk necə sayır.” Ertəsi gün qiymət alanların siyahısında adım olmadığından qəbul komissiyasından yazıma baxmağı tələb etdim. Yazı işimdə heç bir səhv olmasa da qırmızı qələmlə “qeyri kafi” sözünü yazmışdılar. (Sonradan öyrəndim ki, yazı işini “yoxlayanlar” Məzrə kənd məktəbinin müəllimi Mədət Səfərov və Didivar kənd məktəbinin müəllimi İsrafil Şükürov olmuşdur).

Əhvalatı xəstə atama dedikdə narahat olub və təcili Yavuz müəllimin evinə getməyi bildirdi. Onun yaşadığı həyət evi şəhərin Sabir küçəsində (milis idarəsinin qarşısındakı dalanda) 15 №-li mülk idi. Həyətdə Yavuz müəllimi görüb və gəlişimi ona bildirəndə laqeydliklə mənə dedi;

> *“Ay oğul çoxda ki, atan Abdulla kişi ilə tanışam. Lakin sonradan ona dediyim haqqı gətirmədi...”*

Atamın xəstəxanada yatmağını ona dediyimə peşman olub və birbaşa evə qayıtdım. (Üstündən uzun illər keçsə belə indi də Yavuz müəllim və onun kimi “alim-ziyalıları” görəndə nifrətimi gizlədə bilmirəm). Həmin il Naxçıvan Kənd Təsərrüfatı Texnikumuna Moskvadan xüsusi yoxlama komissiyası gəlmişdir. Yoxlama nəticəsində bir neçə ali təhsilli mütəxəssisin təkmilləşmə pedaqoji kurslara gedilməsi bildirildi.

Texnikumdakı vakant yerdə işləmək üçün direktor Cəlal Bağırovun verdiyi lazımi sənəd ilə məni Naxçıvan Pedaqoji İnstitutuna oxumağa göndərirlər. Tezliklə imtahan verib və İnstitutun “Təbiət-coğrafiya” fakültəsinin qiyabi şöbəsinə qəbul oldum. Texnikumda laborant işləyəndə mənə əlavə olaraq çöl tədris-təcrübə işlərinin aparılmasına da icazə verilmişdir.

Ali məktəbin axırıncı kursunda oxuyanda ixtisas üzrə işləməyi bildirdilər. Texnikumda ixtisasım üzrə işləmək istəyəndə Noraşen rayonu Yaycı kəndindən Eminov Mirələkbər adında bir nəfəri mənim yerimə müəllim götürürlər.

Naxçıvan şəhərində ixtisas üzrə müəllim işləməyə yer olmadığı üçün, əlacsızlıqdan Babək RXMŞ-də növbəyə durmalı oldum. Bir neçə ildən sonra məni Babək rayon Qaraxanbəyli kənd məktəbində əvəzedici müəllim və Maarif şöbəsi nəzdindəki Filmotekada isə metodist işinə götürürlər. Tezliklə işimdə başqalarından fərqləndiyimə görə məni Babək rayon Partiya Komitəsi, (katib Kazım Süleymanov idi) ikiillik Ali Partiya Təhsili sistemində siyasi təhsil almağa göndərir.

1986-88-ci illərdə Azərbaycan SSR KP MK-nın Ali Partiya Məktəbinin "İdarəetmədə siyasi təbliğat kadrları" fakültəsində oxuyub və üçüncü Ali təhsil diplomu aldım. İdarəedici rəhbər vəzifədə işləmək üçün məndə lazımi keyfiyyətlər yox idi. Bunun üçün insanda anadangəlmə xüsusi qabiliyyət olmalıdır. Siyasətçi Şeytanın dostu olmalı bir neçə sifətə düşməyi bacarmalı lazım gəldikdə yalan vəd verməli və yarpaq tək hər tərəfə əyilməlidir. Bu keyfiyyətlərə qabil olmadığımdan adi məktəb müəllimi peşəsini seçərək və şəhərdəki A.S.Puşkin adına 3 №-li orta məktəbdə işləməli oldum.

Doxsanıncı ildə Sovet dövləti dağılanda artıq ölkədə milli münaqişələr yaranmağa başlamışdır. Naxçıvanla İran dövləti arasındakı bağlı körpülər açılmış millətçi ermənilər qərəzli ziddiyyətləri ortalığa atmış və Ermənistanda etnik təmizləmə siyasətinə başlamışlar. Naxçıvan diyarı ermənilər tərəfindən iqtisadi və komunukasiya blokadasına alınaraq Azərbaycandan ayrı düşmüşdü.

Məktəbdə işləyəndə köhnə rəssam tanışım Səməd Məmmədovun təklifi ilə yeni yaradılmış Estetik Tərbiyə Mərkəzinə işə girdim. Həmin vaxtlar artıq daxilimdən bir gizli duyğu keçirdi ki, necə edim Allahın Kitabı və İslam dininə hidayət olum? Çox istəyirdim ki, müsəlmanların müqəddəs kitabı olan Quran-kərimi oxuyam namaz qılıb və oruc tutam. Bir sözlə ömrümün bu vaxtında dünya həyatının gerçəkliklərini anlayam günahlarımı bağışladam və Hz. Məhəmməd (s) Peyğəmbərin söylədiyi hədisləri qavrayam.

1993/94-cü dərs ilindən Muxtar Respublika Təhsil Nazirliyi və İranın Naxçıvandakı konsulluq idarəsinin təşəbbüsü ilə "Fars-ərəb dilləri kursu" açılır. Məşğələlərin aparılmasına ali pedaqoji təhsilli iranlı müəllim Yusif Heydərpur öz həyat yoldaşı Nazilə xanım ilə bərabər dəvət edilirlər. Muxtar Respublika Təhsil Nazirliyinin müvafiq əmri olsa belə kursun məşğələləri müxtəlif yerlərdə keçirilirdi. (Bax; "Şərq qapısı" qəzeti, 15 yanvar 1994-cü il № 4).

Kursu bitirdikdən sonra Naxçıvan MR Nazirlər Kabineti yanında Dini İşlər müvəkkili Cəfər İmanov (1919-2001) tərəfindən mənə, "İslam mənəviyyatı təbliğatçısı" səlahiyyəti verilir. Azərbaycan Respublikası müstəqilliyə çıxdıqdan sonra, İran və Türkiyə dövlətləri Naxçıvandakı konsulluqların himayəsi nəticəsində ziyalılarının çoxu İslam mənəviyyatına yiyələnmişlər...

"Göylərdə və yerdə nə varsa, hamısı Allaha məxsusdur. Bütün işlər axırda Allaha qayıdacaqdır !" (Ali İmran surəsi, 109)

> *“İki şəxs doymaq bilməz, elm həvəsli və dünya hərisi.”*
>
> **(Hz. Məhəmməd (s) peyğəmbər).**

Tələbəlik illəri

“Biliksiz şəxs döyüş təbilinə bənzər ki, səsi çox, içi boşdur.” (Sədi Şirazi)

1976-cı ildə Kənd Təsərrüfatı Texnikumunda (direktor Bayt. elm. namiz. Cəlal Bağırov, dərs müdiri Abbas Həsənov idi) laborant işlərkən Ali Pedaqoji təhsil almaq üçün imtahanlara hazırlaşdım. Naxçıvan Dövlət Pedaqoji İnstitutu (rektor kimya elm. doktoru, professor İsrafil Məmmədov idi) “Təbiyyət-coğrafiya” fakültəsinin qiyabi şöbəsinə lazım olan sənədləri hazırlayıb verdim. Qəbul imtahanları Azərbaycan dili və ədəbiyyatı yazılı, coğrafiya, tarix və riyaziyyat fənlərindən şifahi idi.

1976-cı ilin iyunun 5-də başlanan qəbul imtahanlarında, “Azərbaycan dili və ədəbiyyatı” fənnindən (Şərqiyyə Mehbalıyeva və Məlahət Musayeva) yazılı imtahandan qiymət aldıqdan sonra şifahi imtahanlara buraxıldım. “Coğrafiya” (Səfəralı Babayev və Elmira İsmayılova), “SSRİ tarixi” (İbrahim Zeynalov və Məmməd Rzayev) və “Riyaziyyat” (Daməd Məmmədov və Miryasin Seyidov) fənlərindən tutulan şifahi imtahanlardan məqbul qiymət alaraq 17,5 balla (qrup 41) tələbəlik sırasına qəbul olundum.

Riyaziyyatdan axırıncı imtahana girəndə əksər uşaqların qeyri-kafi qiymət aldıqlarını gördüm. 600 nəfər ərizə verən abituriyentlərdən cəmisi 20 nəfər axıra qalmışdır. Sonuncu imtahanda axıra qalanlar mənimlə bərabər 3 nəfər də var idi. İmtahanda növbə mənə çatanda suallar yazılmış və üzü üstə qoyulan biletlərdən birini götürdüm. Sualın biri həndəsə fənnindən olduğundan ona cavab verərək lövhədə yazıb göstərdim. Diğər suallar isə cəbr və triqonometriya fənnindən olduğundan cavab verməyə çətinlik çəkdim.

1976-cı ilin iyunun 10-da İnstitutun müəllimləri Miryasin və Daməd birlikdə riyaziyyatdan qəbul imtahanı aparırdılar. Onlar qarşılarına qoyduqları “məxfi siyahı”ya baxıb və adımın olmadığını gördükdə mənə “qeyri kafi” qiymət yazmaq istədilər. Elə bu vaxt Rektor texnika elmləri doktoru, Professor İsrafil Məmmədov (1927-1995) otağa daxil oldu. O, siyahıdakı qiymət alanların sayının az olduğunu görəndə hirslənərək müəllimlərə dedi:

> *“Yaxşı bəs bundan sonra bu qrupda kim oxuyacaq, siz bir ucdan kəsib tökürsünüz axırı necə olacaq? Onda gərək özünüzə başqa bir yerdə iş axtarasınız!”*

Mənə tərəf çevrilən Rektor nəvazişlə dedi: "Bala suallara cavab vermişsənmi ?" Qorxa-qorxa dedim ki;

> *"Birinə cavab verdim digərlərinə çətinlik çəkirəm."*

Rektor üzünü müəllimlərə tutub ucadan və amiranə dedi:

> *"Yoldaş müəllimlər bu uşaqlar riyaziyyatçı yox, coğrafiyaçı olacaqlar !"*

Rektor dərhal mənim aldığım qiymətlərimə baxaraq müəllimlərə qəti dedi: "Bu oğlanla bərabər yerdəkilərə də, "kafi" qiymət yazın və imtahanı qurtarın!" Mənim sevincimin həddi yox idi. Yerdəki yoldaşlarım da mənimlə bərabər sevindilər. Ali məktəbə qəbul olan ilində iş yerindən məzuniyyətə çıxıb və Şimali Qafqazdakı Pyatiqorsk şəhərinə istirahətə getdim.

İldə iki dəfə (yay və qış) mövsümlərində (sessiyada) instituta yığışıb dərs məşğələləri keçər və kurs (semestr) imtahanları verərdik. Qrupda əsgərlikdən gələn tələbələrlə birlikdə 28 nəfər idik. Həmişə mən imtahan və zaçotlara həvəslə hazırlaşırdım. Fakültənin maraqlı işlərindən biri də yayda çöl təcrübəsi idi.

Çöl təcrübəsi zamanı Muxtar respublikanın müxtəlif rayonlarına gedib və ayrı-ayrı ərazilərin təbii sərvətlərini öyrənirdik. Mən rəssam-fotoqraf olduğum üçün, müəllim və tələbə yoldaşlarıma plan və xəritələrin, habelə foto şəkillərin çəkilməsində əlimdən gələn kömək edirdim. Ali məktəbdə bizim fakültə dekanı biologiya elmləri namizədi dossent Abbas Mehdiyev kurs nümayəndəsi isə (kafedra müdiri işləyən İbrahim Mollayevin qardaşı) Ədalət Mollayev idi.

Tələbəlik illərində iki dəfə çətinliyə düşərək haqsızlıqla qarşılaşdım. Üçüncü kursun axırında "Siyasi iqtisad" fənn müəllimi Akif Mədətov imtahanda mənə kafi qiymət vermək istəmədi. O, məni Xok kəndindən bir nəfərə oxşadaraq və "əlinə düşdüyü üçün" Ali məktəbdən çıxarmaq istəyirdi. (Xoşbəxtlikdən eyni ixtisas müəllimi iqtisad elmləri namizədi Asif Şirəliyev məni yaxından tanıdığı üçün məkrli müəllimimin əlindən qurtardı).

Dördüncü kursda qış imtahan sessiyasının son günləri idi. "SSRİ-nin fiziki coğrafiyası" fənn müəllimi coğrafiya elmləri namizədi Səfəralı Babayev (1923-2003) və "Xarici ölkələrin iqtisadi coğrafiyası" fənn müəllimi Əqil Yusifzadə (1918-1984), tələbələrə belə bir vəd verdilər;

> *"Hərkəs sabahkı imtahana bir xəritə çəkib gətirərsə, həmin tələbə məqbul qiymət ala bilər."*

Ertəsi günü müəllimlər tələbələri çətin vəziyyətə salmaq üçün vədlərinə xilaf çıxdılar. (İşində nümunə olmaq istəyən müəllim rəftarında nöqsanlara yol verərsə, şagirdlərə tərbiyə verə bilməz).

Kurs nümayəndəsi Ədalət növbəti (sabahkı) imtahan üçün müəllimlərə rüşvət yığanda, həmişəki kimi mən pul verməkdən imtina etdim. Seyid cəddinə arxayın olduğu kimi mən də, qabiliyyətimə arxayın idim. (Coğrafiya müəlliminin əl səliqəsi olmalıdır ki, plan və xəritələri çəkməyi bacarsın). Həmin axşam yatmayıb və sübh azanına kimi (1:800 000 miqyaslı) "Avrasiya materikinin fiziki xəritəsi"ni ağ kağız üzərinə çəkib rənglədim. Çəkdiyim xəritə işini imtahana aparanda tələbə yoldaşlarımın xoşuna gəldi.

Soyadım əlifba sırası ilə əvvəldə olduğu üçün həmişəki kimi imtahana birinci çağırıldım. Müəllimlərə salam verdim və çəkdiyim xəritəni açaraq onlara göstərdim. İmtahan biletindəki suallar asan olduğundan cavab vermək istəyəndə Əqil müəllim əl işimə sağ ol demək əvəzində məni çaşdırmaq istədi.

Vəziyyətdən çıxmaq üçün dedim ki;

> *"Dediyiniz vədə görə xəritə çəkib və gecəni sübhəcən yatmamışam."*

Əqil müəllim üz-gözün turşudaraq dedi;

> *"Yaxşı olardı ki, pul verib xəritə çəkdirincə, gecəni sübhəcən imtahana hazırlaşardın"*

. Ağsaqqal müəllimimin tənəsinə sakitcə belə dedim:

> *"Xəritəni özüm çəkib rəngləmişəm, çünki mənim buna qabiliyyətim çatır."*

(Tələbə yoldaşlarım sözümü təsdiqlədikdən sonra, məcburiyyət üzündən mənə "kafi" qiymət yazıldı).

> “Qara bir ləkədir rüşvət müəllimə,
> Böyük bir bəladır tədris elminə.
> Müəllim vicdanı ləkəsiz gərək,
> Ləkəli vicdandan gözləmə kömək.”
>
> (Adil Qasım)

Ali məktəbi bitirənədək Səfəralı müəllim coğrafiya fənnindən əyani tədris vəsaitlərini mənə çəkdirib və minnətlə yazdığı qiymətlərin “əvəzini” çıxdı. Beləliklə beş ildən sonra (1981-ci il iyulun 17-də) Akademik Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutunu bitirib və “Orta məktəbdə coğrafiya müəllimi” ixtisası üzrə Ali təhsil diplomu aldım.

Ali məktəbin tələbəlik illərində nəzəri və təcrübi məşğələlərdən aşağıdakı fənlər üzrə zaçot və imtahan vermişəm; Rus dili və ədəbiyyatı (Allahverdiyev, Klimanova, Ə.Süleymanov, Cəfərova), Yaş fiziologiyası və gigiyenası (Zeynalova), Pedaqogika (M.Babayev, E.İsmayılov, A.İmanov), Psixologiya (T.Quliyev, M.Babayev), Kartoqrafiya və Topoqrafiya (Mahmudov, A.Əliyev, Ə.Quliyev), Geodeziya və Geologiya (Ə.Quliyev), Yerşünaslıq (İ.Zeyniyev, E.İsmayılova, S.Babayev), Sənaye və kənd təsərrüfatı əsasları və Meliorasiya və hidrologiya (Ə. Əliyev), Siyasi iqtisad (A.Mədətov), Elmi ateizm (M.Rzayev), Elmi kommunizm (Y.Məmmədov), Dialektik və tarixi materializm (fəlsəfə) (Y.Qasımov, İ.Səfərov), Bitki coğrafiyası (R.İbrahimov, Məmmədov), Zoocoğrafiya (A.Mehdiyev), Torpaq coğrafiyası (S.Manafov), Materiklərin fiziki coğrafiyası və Ölkəşünaslıq (S.Babayev), Xarici ölkələrin iqtisadi coğrafiyası və Əhali coğrafiyası (Ə.Yusifzadə), Coğrafiyanın tədris metodikası (Ə.Yusifzadə, O.Həsənov), SSRİ-nin fiziki coğrafiyası və Azərbaycanın fiziki coğrafiyası (E.Qocayev), SSRİ-nin iqtisadi coğrafiyası və Azərbaycanın iqtisadi coğrafiyası (İ.Zeyniyev), Naxçıvanın fiziki və iqtisadi coğrafiyası (İ.Zeyniyev, S.Hacıyev) Təbiəti mühafizə (Y.Səfərov), Azərbaycan tarixi Z.Şahverdiyev), Sov. İKP tarixi (İ.Hüseynov).

Bundan başqa tələbəlik illərində aşağıdakı fənlərdən 45 səhifəlik çöl təcrübəsindən hesabat işi yazmışam; 1) Kartoqrafiya və geodeziya əsasları (A.Əliyev, Ə.Quliyev), 2) Yerşünaslıq və meteorologiya əsasları (İ.Zeyniyev, E.İsmayılova, S.Babayev), 3) Naxçıvanın təbii sərvətləri (A.Mehdiyev, S.Manafov), 4) Naxçıvanın fiziki və iqtisadi coğrafiyası (İ.Zeyniyev, S.Hacıyev).

İnstitutun ikinci kursunda oxuyanda ölkə rəhbəri L.İ.Brejnevin (1906-1982) yazdığı “Kiçik torpaq”, “Dirçəliş” və “Xam torpaq” adlı kitablarından siyasi vətənpərvərlik haqqında kurs işi yazmışam.

Ali məktəbin dörd və beşinci kurslarında oxuyanda bir ay müddətində şəhərdəki İ.Səfərli adına 1 №-li orta məktəbdə (direktor Qadir Məmmədov və dərs müdiri Bəbir Əhmədov idi) pedaqoji təcrübə zamanı məktəb kollektivinin etimadını qazandım. Məktəbdə coğrafiya fənnindən sınaq və açıq dərslər dedikdən sonra pedaqoji təcrübəni (təcrübə müəllimləri Lətifə Novruzova və Əqil Yusifzadə idi) "yaxşı" qiymətlərlə başa vurdum.

Ali məktəbi bitirəndə Rektor tarix elmləri doktoru professor İshaq Məmmədov (fakültə dekanı biologiya elmləri namizədi, dosent Abbas Mehdiyev idi) və Dövlət İmtahan Komissiyasının Sədri coğrafiya elmləri namizədi, Professor Xəlil Zamanovun (1927-2009) iştirakı ilə buraxılış imtahanları verdim. Buraxılış imtahanları zamanı aşağıdakı fənlərdən məqbul qiymətlər aldım; Pedaqogika və psixologiya- (yaxşı), Yerşünaslıq (coğrafiya)- (əla) və Elmi kommunizm- (kafi).

Akademik Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu, 1967-ci ilin iyulundan Bakıdakı APİ-nin filialı kimi yaranmışdır. 2 müəllim və 1 metodist ilə fəaliyyətə başlayan filialda, 1971-ci il 16 iyulda "Azərbaycan dili və ədəbiyyatı", "Tarix" və "Riyaziyyat" ixtisasları üzrə 103 nəfər tələbə ilə ilk buraxılışı olmuşdur. Filialın ilk direktoru tarix elmləri namizədi, dosent Əli Əliyev (1904-1997) (1967-1970) və sonra isə coğrafiya elmləri namizədi, dosent Səfəralı Babayev (1923-2003) (1970-1972) olmuşdur.

1972-ci il 12 iyul tarixdən Azərbaycan SSR Nazirlər Sovetinin 214 №-li qərarı ilə filial müstəqil olaraq Akademik Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu adlanmışdır. Ali məktəbin Rektoru texnika elmləri doktoru Professor İsrafil Məmmədov (1927-1995) (1972-1977), sonra tarix elmləri doktoru Professor İshaq Məmmədov (19..-1989)1) (1978-1984), sonra fizika-riyaziyyat elmləri doktoru Professor İsgəndər Cəfərov (19..-1991)2) (1985-1989), sonra isə kimya elmləri doktoru Professor Qasım Hüseynov (1940-...) (1989-1996), sonra isə filoloji elmlər doktoru Professor İsa Həbibbəyli (1949-...201.) (1996-2012) olmuşlar.

1989-cu il 13 oktyabr tarixli Azərbaycan SSR Nazirlər Sovetinin 584 №-li qərarı ilə Naxçıvan DPİ-nun bazası əsasında Dövlət Universiteti yaradılmışdır. 1990-cı ilin dekabr ayından isə Universitet kimi Dövlət Ali Tədris Məktəbi kimi fəaliyyətə başlamışdır. Bu münasibətlə 1991-ci il 27 mart tarixində Naxçıvan Dövlət Universitetində təntənəli tədbirlər keçirilmişdir. 2007-ci ildə Universitetin yaranmasının 40 ili yubiley tədbiri keçirilmişdir. 2012-cı ilin oktyabr tarixdən biologiya elmlər doktoru Professor Saleh Məhərrəmov (1951-201.)3) Ali məktəbin Rektoru olmuşdur. Haliyyədə Naxçıvan Dövlət Universitetində 5.000 bakalavr, 284 magistr və 49 kafedra fəaliyyət göstərir. 38 ixtisas üzrə mütəxəssis olan 10 fakültədə (2005) magistratura və hazırlıq şöbələri vardır. Universitetin əyani və qiyabi şöbələrində 3900-dən çox tələbə təhsil alır. 39 kafedrası olan Ali təhsil verən məktəbdə konservatoriya tibb fakültə-xəstəxana, internet mərkəzi, elektron kitabxana, və muzey, Atatürk Araşdırma Mərkəzi ilə Təhsil İnformasiya Mərkəzi də vardır.

Akademik Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Universiteti, bir çox xarici ölkə ali məktəbləri ilə əlaqə saxlayır. Universitetin nəzdində nəşriyyat mətbəəsi olduğundan, 1997-ci ildən "Elmi əsərlər" və 2005-ci ildən isə "Xəbərlər" adlı (baş redaktor Azərbaycan Milli EA-nın həqiqi üzvü İ.Həbibbəyli) elmi jurnal nəşr olunur. (bax; "Naxçıvan Ensiklopediyası" (2 cilddə), Naxçıvan- 2005).

Qeyd: 1)-2)-3) 2005-ci ildə nəşr olunmuş "Naxçıvan Ensiklopediyası" (2 cilddə), Naxçıvan- 2005) kitablarında məlumat yoxdur.

"Dağlara baxıb onları donmuş zənn edirsən, halbuki onlar bulud keçdiyi kimi keçib gedərlər. Bu hər şeyi bacarıqla edən Allahın gördüyü işdir. Həqiqətən O, etdiyiniz əməllərdən xəbərdardır." (Nəml surəsi, 88).

"Vətəni sevmək imandandır."

(Hz. Məhəmməd (s) peyğəmbər).

İcbari hərbi mükəlləfiyyət

“Vətən anamdır mən də övladı,

Sinəmdə kök salıb vətənin adı.”

(Adil Qasım)

1965-ci il dekabrın 5-dən Sovet ordusu sıralarında icbari hərbi xidmət üçün Naxçıvan MSSR Hərbi Komissarlığı tərəfindən (komissar polkovnik Əsgər Əhmədov idi) əsgər çağırılıb və 230 №-li komandaya qatıldım. Mən oxuduğum Texnikumda təhsilimi yarımçıq qoyaraq və gənclik illərinin ən gözəl çağında əsgərliyə getdim.

O zaman çağırışçıların hərbi komissarlıqda vətəndaşlıq sənədləri alınmaqla ictimai təşkilatların da qeydiyyatından çıxarılırdı. 5 dekabr-Konstitusiya günü məni dəmir yolu stansiyasında ailə və dostlarım Yerevan-Bakı qatarı ilə əsgərliyə yola saldılar.

Ertəsi gün “Biləcəri” dəmir yolu stansiyasında bizi qatardan yerə düşürdülər. Hərbi həkim məntəqəsində yoxlama komissiyası nəzarətindən keçdik. Biləcəridə əsgər aşxanasında yemək yedik və sonra isə vaqonlara mindik.

Qatar iki sutka yol gedəndən sonra gecə yarısı Moskvadakı “Kiyevsk” dəmir yolu stansiyasında dayandı. Vaqonlardan perrona (səkiyə) yenəndə bizi cərgəyə düzüb və yeraltı Metro qatarına mindirdilər. Metrodan çıxan kimi bizi Moskvanın “Kalujsk” dəmir yolu vağzalında yenidən vaqonlara mindirdilər.

Sürətlə gedən elektrik qatarı gecə yarısı “Obninsk” stansiyasına çatanda vaqonlardan yerə düşdük. Bizi cərgəyə düzüb və yaxınlıqdakı Obninsk şəhər hamamına gətirdilər. Orada çimməndən sonra təzə əsgər paltarını əynimizə geydik. Biz şəhərin şimal hissəsində hasarlı geniş həyəti olan beşmərtəbəli binaya gəldik. Bura Moskva hərbi dairəsinin Obninsk şəhərindəki 14114 №-li hərbi-inşaat alayının əsas binası idi.

Hərbi kazarmada komandirin öyrətdiyi kimi kibrit çöpünü xlor məhlulunda isladıb və adımızı təzə geyim formasının görünməyən yerinə yazdıq. Səhər həyətdə idman etdikdən sonra yatağımızı səliqəyə salıb və cərgəyə düzülərək aşxanaya getdik. Bir ay müddətində lazımi əsgər təlimi verildikdən sonra bizi həkim nəzarətindən keçirdilər. 1966-cı ilin 16 yanvar tarixdə Hərbi anda sadiq olmaq üçün Sovet İttifaqına xidmət etməyə imza etdik. (Bundan sonra hər kəsi peşə təhsil və ixtisasına uyğun seçib və müxtəlif bölüklərə ayırdılar).

RSFSR-ın Kaluqa vilayətindəki Obninsk şəhəri 1956-cı ildə təməli qoyulmuş nüvə energetiklərin Elmi-tədqiqat Mərkəzlərindən biri idi. 1954-cü ildə şəhərin yaxınlığından axan Oka çayının sol qolu olan Protvanın sahilində dünyada ilk Atom Elektrik Stansiyası (AES) tikilmişdir. Bu nəhəng enerji Mərkəzi SSRİ Elmlər Akademiyası Atom Fizikası İnstitutunun həqiqi üzvü Akademik İ.V.Kurçatov (1903-1960) tərəfindən yaradılmışdır.

83 min nəfər (1967-ci ilin statistik məlumatı) yaşayan Obninsk şəhərində elmi-tədqiqat institutları, seysmoloji mərkəz, stadion, "Mir" kinoteatrı, mədəniyyət və istirahət parkı, muzey, tibb məktəbi, ümumtəhsil məktəbləri, uşaq bağçaları, qiymətli kağızlar mətbəəsi və "Vperyod" adlı qəzet redaksiyası var idi.

Şəhərdəki bişmiş kərpiclə beş mərtəbəli ictimai yaşayış evləri tikilmiş və yeraltı istilik borular çəkilmiş yollara isə beton örtük döşənmişdir. Qış aylarında yollardakı qar və buzlar yeraltı istiliyin təsirindən əriyərdi. Şəhərdəki meteoroloji stansiyanın uca dəmir qülləsi bəzən yay aylarında buludla örtüldüyündən yuxarı hissəsi görünməz olurdu.

Bizim alaydakı "qoca" əsgərlər Baltikyanı ölkələrdən gələn Latış, Eston və Litov xalqları idi. Əsgərlər şəhərdəki sənaye və mülki tikinti binalarında işləməklə hərbi xidmətlərini başa vururdu. Biz betonçu briqadasında AES-ın geniş həyət sahəsindəki dərin çuxurlara beton tökərək vibratorla bərkidirdik. İkinci növbə zamanı işimiz daha da çətinləşirdi. Tikintiyə giriş-çıxış zamanı qırmızı poqonlu əlisilahlı xüsusi xidmət əsgərləri bizə nəzarət edirdilər. (Bizim (inşaat batalyonunun) hərbi geyim formamız məhkum olunmuş məhbusların geyiminə bənzəyirdi...)

Növbəti ilin yayında serjant məktəbində oxumaq üçün hissəmizin alay komandiri polkovnik İ.Sirotkinin adına ərizə yazdım. Kursda oxumaq üçün mənimlə bərabər bir nəfər də azərbaycanlı ərizə vermişdir. (Rus dilini bildiyim üçün ştab komandiri A.Xandjanyan mənə kursda oxumağıma etiraz etmədi).

Kiçik komandirlər məktəbi Moskva vilayətindəki Dubna şəhərində yerləşirdi. Şəhər Dubna çayının Volqaya töküldüyü yerin yaxınlığında idi. O zaman əhalisi 49 min (1966-cı ilin statistik məlumatı.) nəfər olan şəhərdə dəmir yolu stansiyası, Moskva radiotexnika, elektronika və avtomatika İnstitutunun filialı var idi. (Dubna şəhəri 1956-cı ildə Nüvə Tədqiqatları İnstitutunun yaranması ilə salınmışdır).

Obninsk şəhərində olarkən bizim rotada mənimlə bərabər Culfa rayonunun Əbrəqunus kəndindən Əli Bağırov adlı bir nəfər var idi. Alayda həkim yoxlaması zamanı azərbaycanlı feldşer (Xanlar rayonundan) Nazim Ağayev, səhvən Əlinin yerinə mənim tibb sənədimdə "hərbi xidmətə yararsız" sözlərini yazmışdır. Buna səbəb həmin oğlanın böyrəkləri xəstə olub və sidik vəzində iltihab xəstəliyi var idi. (Sonradan Əli Bağırov hərbidən tərxis olaraq evlərinə buraxılmışdır).

Dubna şəhərindəki hərbi məktəbdə oxuyanda, sənəddəki səhvə görə məni kursant məktəbindən azad edirlər. Hissəyə qayıtdıqdan sonra "xəstəliklə" əlaqədar məni betonçu briqadasından çıxarıb və şəhər Tikinti Quraşdırma İdarəsinə (SMU) tərtibatçı-rəssam işinə dəyişirlər. Təzə iş yerimdə tikinti meydançaları üçün şüar və plakatlar yazıb hazırlayandan sonra günlərlə bekar olurdum. (Hər işdə bir hikmət var). (bax; "Xəritə, plan və foto şəkillər" bölməsinə).

Həmin ilin payızında "qoca" əsgərlərin vaxtı qurtardığı üçün hissədən bir neçə nəfər seçilərək və meşəlikdə yerləşən altıncı bölmə deyilən ucqar bir yerə göndərilirlər. Tezliklə Balakən rayonundan Yusif Çinarov, Bərdə rayonundan Faiq Bəşirov Ağdam rayonu Hindarx kəndindən Mehdi, Tovuz rayonundan Novruz, Gəncədən Qəzənfər və Telman adlı əsgər yoldaşlarımla bərabər həmin yerə getdik.

Bölmədə mənimlə bərabər Naxçıvan (Babək) rayonu Nehrəm kəndindən Abbasqulu Həsənov, Naxçıvan şəhərindən Elman Kərimov və üç nəfər də Noraşen (Şərur) rayonundakı Xok kəndindən Sərdar Zeynalov, Qıvraq kəndindən Sabir Məmmədov və Çomaxtur kəndindən Mir Şühadə Seyidov idi. (Sonrakı illərdə Abbasqulu Nehrəm kəndində sürücü, Elman Naxçıvan dəmir yolu stansiyasında texnik-elektrik, Sərdar Naxçıvan Hərbi Qarnizonu təchizat hissəsində (QERÇ-də) növbətçi, Sabir Qıvraq kənd yeməkxanasında aşpaz və Mir Şühadə isə Sədərək rayon Rabitə şöbəsində qulluqçu işləmişdir).

Altıncı bölmə Kaluqa vilayətindəki Uqodskoy rayonunun Balabanova (Çornıy qryaz) kəndindəki Tarutino çayının sol sahilində meşəlikdə yerləşirdi. Bura rayon mərkəzindən uzaq olduğundan darıxdırıcı idi. Əsgərlər ərazidəki "Vostok" adlı Vərəmə qarşı Sanatoriya binasına əlavə korpuslar tikirdilər. Beşmərtəbəli və bir neçə korpusu olan tikinti obyekti başa çatmaq ərəfəsində idi. Ərazidə həkim və tibb işçiləri üçün mənzil-məişət binaları, məktəb, uşaq bağçası, mədəniyyət evi, kitabxana, ümumi yataqxana və idman-sağlamlıq meydançası da tikilmişdir.

Sıx küknar və şam meşəliyi olan ərazinin içərisindən Protva adlı çay axırdı. Çayın sağ sahildə bir neçə kiçik kəndlər var idi. Ərazidəki əhali Rus dilli slavyanlar olsa belə, yalnız "Çornıy qryaz" adlı kənddə qaraçılar yaşayırdı. Bölmədə rəssam, fotoqraf və kino mexaniki olduğundan məni "raznoraboçiy" (müxtəlif iş fəhləsi) briqadasına saldılar. (Biz əsgərlikdə hərbi təlim öyrənmək əvəzində "çornıy" ləqəbi ilə sanki islah əmək düşərgəsi məhbusları idik).

Həftənin altı gününü məhkum olunmuşlar kimi ağır işlərdə işləyib və yalnız bazar günlərində (ayda iki dəfə) yaxın kənddəki kiçik "hamamda" alt paltarımızı dəyişirdik. Nahardan şam yeməyinədək asfalt yolda beş-on kilometr məsafəni nizami yerişlə addımlayıb taqətdən düşürdük. Əsgərlərə yalnız bayram günlərində zaldakı qrammofon valları çaldırılaraq və orada yaşayan qızlarla rəqs etməyə icazə verilirdi. (Qaraçı qızları oğru olduğundan rotaya yaxın qoymurdular).

Bazar günləri kənd dükanından aldığım rəsm albomunda ətrafdakı mənzərələri rəngli qələmlə ağ vərəqlərə çəkirdim. Bölmə starşinası litvalı Salkauskas familiyalı qəddar adam idi. Qafqaz xalqından xoşu gəlməyən starşina, bizimlə bərabər qulluq edən Latviya və Estoniyalı əsgərlərə də mərhəmətsiz idi. Mənim sənətkarlığıma paxıllıq edən qəddar starşina, çəkdiyim rəsm albomunu cırıb yandırmışdır. Buna səbəb isə məndən xoşlanmayan bölmə serjantı litvalı Kilkauskas idi. (Baltikyanı ölkədən olan Litva vətəndaşları Alman faşistləri kimi millətçidirlər).

Əsgərlik illərində ailə və qohumlarla məktub vasitəsilə əlaqə saxlayırdım. Bütün bunları bizə (əsgərlərə) məsləhət bilən rota siyasi işlər üzrə komandir Lilikov familiyalı kiçik leytenant idi. Kiçik leytenanta bəzən "qoca" əsgərlər, zarafatla "mikromayor" da deyirdilər. Siyasi rəhbər bizə həftənin bir, üç və beşinci günlərində dünyadakı sosialist ölkələri haqqında siyasi məşğələ keçirdi. Bazar günlərində mən, Rotamızın komandiri Gürcü millətindən olan kapitan Anatoli Qriqoraşvilinin icazə kağızı ilə yaxındakı kənd mağazasına gedərdim...

Həmin ilin payızında hissəmizə Naxçıvandan anamın vəziyyətinin pisləşmə teleqramı gəldiyindən, Vətənə getməyə on beş günlük icazə verilir. Mən qatarla Moskvaya gedib təyyarə ilə İrəvana uçdum və avtobusla da gəlib Naxçıvana çatdım. Moskvada qar yağsa da Naxçıvanda ağacların yarpağı təzəcə saralırdı. Ailəmizlə qohum-qonşularla görüşərək bir həftə Naxçıvanda qalsam da, tezliklə sənədimi hərbi komissarlıqda qeyd etdirib və gəldiyim yolla da geri qayıtdım.

Əsgərlikdə özümə iki dalğası olan “Selqa” adlı tranzistor radioqəbuledici almışdım ki, Bakı radiosuna qulaq asam. Spirtli içki ilə siqaretə meyl etmədiyim üçün, starşina məndən o barədə şübhələnmirdi. Burada yalnız mənim üçün çətin olan tikinti batalyonuna düşməyim idi. Hər ay tikintidəki işimizə görə 10 manat xərclik verirdilər ki, ən vacib şeyləri ala bilək. Bizə zəhmət haqqından ərzaq, paltar, mədəni-məişət və digər xidmətlərə pul çıxıldıqdan sonra qalan vəsait bankdakı hesabımıza yatırılırdı.

1967-ci il aprel ayının son günlərində xaçpərəstlərin “Pasxa” bayramı idi. Əsgər kazarmasını təzə tikilmiş beşmərtəbəli binaya köçürmüşlər. Bazar günü idi starşina mənə beş günlük növbədən kənar “cəza” verərək pilləkənlərin yuyulması əmrini vermişdi. Taleyimə lənət edə-edə fikirli halda beton pillələri təmizləyirdim. Üçüncü mərtəbənin balkonundan (həmişə keçdiyim yerdən) keçəndə bir anlığa gözlərim qaraldı və ordan aşağa yıxıldım. (Sol çiynim üstə yerə düşdükdə gözlərimdən şimşək çaxdı və mən huşumu itirdim).

Gözlərimi açanda ətrafımda əsgər yoldaşlarımı görüb təəccübləndim. Əsgər yoldaşlarım məni yerdən götürüb və tələsik otağa gətirmişlər. Alnım və sol çiynim bərk ağrıyırdı. Ertəsi gün maşınla rota feldşeri Nazimlə bərabər Obninsk alayının sanitar hissəsinə getdik. Həkim müayinəsindən sonra Kaluqa şəhərindəki xəstəxanaya getməyi bildirdilər. Taleyin hökmü ilə həmin xəstəxanada qırx iki gün qaldım. (İlk gün qonşu palatada xəstə yatan “Ögey ana” kinosundakı İsmayıl rolunun ifaçısı Ceyhun Mirzəyev ilə tanışlığımız oldu).

1967-ci il iyunun 15-də feldşer Nazim Ağayevlə bərabər hərbi hissəyə qayıtdıq. Həmin gün ştab komandiri erməni A.Xandjanyan, möhürlənmiş zərfdə hərbi biletimi verib və tərxis olduğumu bildirdi. Naxçıvanda hərbi biletimi komissarlıqda qeydiyyata alıb və özümə qaytardılar.

Biletimdə yazılmış

> *“1967-ci il 01 iyun tarixli 55 №-li xəstəlik haqqında şəhadətnaməyə əsasən tərxis olub və ehtiyata göndərilir”*

sözlərinə görə hərbi komissara narazılığımı bildirdim. Dedim ki; “Əgər hərbi xidmətdə xəstələnib yararsız kimi tərxis edilmişəmsə həmin “şəhadətnamə” hardadır? Əgər belədirsə onda mənə hərbi sosial təqaüd verilməlidir. Yox əgər belə deyilsə onda xidmət müddətini başa çatdırmalıyam.”

Bir neçə müddətdən sonra ərizəmlə əlaqədar komissarın xüsusi şöbə rəisi mayor Nikolay Stulbaya, Obninsk hərbi hissəsindən (ştab komandiri mayor A.Xandjanyanın imzası ilə) məktub gəlir. Məktubun tərcüməsi belə idi:

> *"SSRİ Müdafiə Nazirliyinin Moskva hərbi dairəsinə məxsus Kaluqa vilayətinin Obninsk şəhərindəki 14114 №-li hərbi hissədə 1946-cı il təvəllüddə sıravi əsgər Bağırov Feyruz Abdulla oğlu xidmət etməmişdir."*

(Qəribədir ki, şikayətimlə ciddi maraqlanan mayor Stulba, sürdüyü qırmızı rəngli "Yava" markalı yedəkli motosikletində öldürülür)...

Bu əhvalat Molla Nəsrəddinin "Pişik və ət" adlı lətifəsinə bənzəyirdi. Naxçıvan MR Hərbi Komissarlığına bir neçə dəfə şikayət etdikdən sonra nəhayət ki, Dağıstanlı hərbi komissar polkovnik Qasımov Muradəli Buryatəli oğlunun 1985-ci il 12 iyul tarixli imzası ilə mənə "hərbi xidmətə yararlı ehtiyat əsgər" sözləri yazılmış yeni hərbi bilet verirlər.

Uğursuz tale yollarındakı mənə edilən haqsızlığa görə vaxtından əvvəl qara saçlarıma ağ ləkə düşür... Belə bir Atalar sözü vardır; "Dəmiri nəm çürüdər, insanı da qəm." Lakin nə etmək olar, bir tərəfdən həmin dövrün haqsızlıqları və digər tərəfdən də taleyin hökmü ilə olanlar Allahdandır. Bütün bunlara isə səbr və dözüm gərəkdir. İtalyan memarı Leonardo da Vinçi (1452-1519) demişkən;

> *"Sizin səhvlərinizi aşkara çıxaran düşmən onları ört-basdır edən dostdan daha xeyirxahdır."*

> *"Həqiqətən, inkar edənləri əzabla qorxutsan da onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir !" (Bəqərə surəsi, 6-7).*

> *"Mədəniyyəti olmayanın, mənəviyyatı da olmaz."*
>
> (Hz. Məhəmməd (s) peyğəmbər).

Mədəniyyət yollarında

1964-cü ildən mədəniyyət yollarında yorulmadan əmək fəaliyyətində addımlayıram. Şəhərdəki S.M.Kirov adına kinoteatrda (direktor Əyyub Namazov idi) tərtibatçı rəssam yanında köməkçi işləmişəm. Orada Ramiz, Djon, Vaqif və Həsən adlı kino mexaniklərə, lentlərin açılıb-sarınma işlərində kömək göstərirdim. Kinoteatrın rəssamı Yura Danelyan şəhər məişət emalatxanasında rəssam işlədiyindən, afişaları hərdən mən yazmalı olurdum.

Kinoteatrın rəssamı öz işində tez-tez səhlənkarlığa yol verdiyindən, Nax. MSSR Kinematoqrafiya Komitəsi (sədri Cəfər İmanov idi) tərəfindən rəssam və direktora töhmət verildi. Həmin gün mən mətni direktorun otağından götürüb və afişaları yazmağa başladım. Direktor erməni dostunun intizamsızlığına görə töhmətdən sonra mənə ağır sözlər dedi. (İşdən çıxarılan direktor bir müddət radio və televiziya komitəsinə işə düzəlsə də, tezliklə həmişəlik gözləri tutuldu)...

Naxçıvan Pedaqoji Məktəbində oxumaq üçün lazımi sənədlərlə birlikdə iki illik əmək stajı da tələb olunurdu. İki ay staj çatmadığı üçün, kinoteatrın yeni direktoru Leysan Seyidovdan iki illik əlavə staj haqqında arayış verilməsini xahiş etdim. Yüksək vəzifə kürsüsündən iki əlli tutan bürokrat direktor, mənə lazım olan arayış verməkdən imtina etdi. Buna görə də qəbul imtahanlarından qiymət alsam belə, iki aylıq iş stajına görə texnikuma qəbul edilmədim.

1967-ci ildə əsgəri xidmətdən sonra mədəniyyət sahəsində yenidən işə girdim. Şəhər mədəniyyət şöbəsinin müdiri İdris Səlimov məni (SMU-6 qəsəbəsində) 1 №-li Kluba "kütləvi işçi" vəzifəsinə işə götürdü. Qabiliyyətimi nəzərə alan Klub müdiri Yaşar Kəngərlinin köməyi ilə klubda məktəbli uşaqlara (ictimai əsaslarla) rəsm, foto və kino dərnəkləri yaratdım. Qəsəbə fəhlə Klubunda siyasi və ideoloji təbliğat işlərində fəallıq göstərdiyimə görə partiya, komsomol və yerli həmkarlar təşkilatının rəğbətini qazanmışdım.

Qəsəbədəki tikinti idarəsinin rəisi Abidin Bayramovun göstərişi ilə Kluba müxtəlif avadanlıqların alınmasına yardım edildi. Belə ki, Kluba bir dəst bilyard stolu, beş dəst nərd-taxtası və stolüstü şahmatla dama oyunları da alınıb gətirildi. Həmin ərəfədə axşamlar da Naxçıvan rayon Kino İdarəsində kino mexaniki işləyirdim. İdarə rəisi Zülfəli Əliyevin qayğıkeşliyi ilə Şıxmahmud və Sovetabad (indiki Xətai) kənd klublarında da əhaliyə kino xidməti göstərirdim.

Sovetabad kino qurğusunda işləyəndə mənim öhdəmə “KN” tipli kino aparatla bərabər “Ukrayna” tipli ensiz lentli kino aparat dəsti də verilmişdi. Muxtar respublika Kinoprokat İdarəsinin rəisi Əsgər Əsgərovun göstərişi ilə nəzarətçi Abbas Novruzov mənə dublyaj olunmuş Sovet və xarici ölkə filmlərini verirdi. Hər həftə Sovetabad kənd məktəbində şagirdlər üçün tədris və bədii filmlər göstərirdim. (Həmin illərdə kinodan gələn gəlir hesabına dövlət planlarını ödəyərək və özüm üçün də şəxsi “Zaporojeç” markalı minik avtomobili almışdım).

1980-ci ilin əvvəlindən Mədəniyyət Nazirliyi nəzdindəki Xalq Yaradıcılığı Evi ilə Metodiki Kabinə birləşərək və onların bazası əsasında Muxtar respublika Elmi-Metodik Mərkəz yaradılır. Naxçıvan Mədəniyyət Naziri Rəşid Qazıbəyovun (1926-1989) təşəbbüsü ilə Muxtar respublika Elmi-Metodik Mərkəzdə (direktor Məmməd Musayev) kino-foto və rəssam metodisti işinə götürüldüm.

Bütün bunlardan əlavə mənə ictimai əsaslarla şəhər 1 №-li Mədəniyyət Evində (direktor Əli Nəbiyev idi) “Gənclik” kino studiyasına da rəhbərlik tapşırılır. Səksəninci illərdə Studiyada həvəskar aktyorların iştirakı ilə bir neçə sənədli film çəkib hazırlamışdım.

Şəxsi arxivimdə saxladığım həvəskar filmlər aşağıdakıdır; “Mahnı bayramı”, (FB-film studiyası- 1981, rəngli), “Naxçıvan toyu”, (FB-film studiyası- 1982, ağ-qara), “Bizim mədəniyyət evində”, (FB-film studiyası- 1982, ağ-qara), “Yaz lövhələri”, (FB-film studiyası- 1982, rəngli), “Qış etüdləri” filmi, (FB-film studiyası- 1982, rəngli) (bax; “Arxivin “sim-sim” qapısı” bölməsinə, ”Mədəniyyət və turizm fəaliyyətinə aid qanunlar toplusu”, Bakı- 2007).

1982-ci ildə Bakıda keçirilən Respublika kino həvəskarları müsabiqəsinin qalibi kimi çəkdiyim “Naxçıvan toyu” adlı filmə görə Azərbaycan Mədəniyyət Nazirliyi və Kinematoqrafçılar İttifaqı (münsiflər heyəti) tərəfindən “Diplom” (1982) aldım. (Sonrakı illərdə həvəskar kino studiya rəhbəri kimi Moskvada SSRİ Mədəniyyət Nazirliyi Elmi-Metodik İdarəsinə də dəvət etdilər).

1982-ci ildə Azərbaycan KP MK-nin birinci Katibi Heydər Əliyev (1923-2003) Naxçıvana gələndə xronikal foto şəkillərin çəkiliş işləri mənə tapşırılırdı. (bax; “Şərq qapısı” qəzeti, 2011, № 232). Çəkdiyim şair-dramaturq H.Cavid və hərbiçi C.Naxçıvanskinin ev-muzeylərin açılışı foto şəkillərini hər iki muzeyə hədiyyə etmişəm. Otuz yeddinci ilin nahaq qurbanı olmuş H.Cavidin sümük qalıqlarının uzaq Sibirdən Naxçıvana gətirilən tədbirdə çəkdiyim 500 ədəd foto şəkil dəstini, şairin ruhuna xatir Naxçıvan Vilayət Komitəsinin ikinci katibi Həmid Cəfərov və mərhumun yeganə övladı Turan Cavidə (1923-2004) hədiyyə vermişəm. (bax; F.Bağırov, “Nuh yurduna ziyarət”, Bakı- 2008).

1983-cü ilin əvvəlindən Azərbaycan Mədəniyyət Nazirliyi Naxçıvan Tarixi Abidələri Mühafizə Cəmiyyətinin üzvü kimi Muxtar respublika ərazisində olan tarixi abidələri mətbuatda təbliğ edirdim. Bütün bu işlərə görə dəfələrlə cəmiyyətin sədri Qadir Həsənov tərəfindən təşəkkür almışam. Cəmiyyət tərəfindən "Nax. MSSR-in tarixi və arxeoloji abidələri" adlı məlumat kitabçasının hazırlanmasında (sənədli foto şəkillərə görə) mənim də xidmətim olmuşdur. (bax; Q.Həsənov, "Nax MSSR-in tarixi və arxeoloji abidələri", Naxçıvan- 1988).

Naxçıvanda foto-kino həvəskarlarının baxış müsabiqəsində fərqləndiyimə görə Naxçıvan MR Mədəniyyət Nazirliyi Elmi-Metodik Mərkəz (direktor Məmməd Musayev) tərəfindən "Fəxri fərman" (1988) ilə mükafatlandım. Müstəqil Azərbaycan Respublikasının daxili və xarici siyasətini bəyənib, qərar və sərəncamlarından irəli gələn tövsiyələri öyrənərək mədəniyyətimizi təbliğ edirəm.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin "Mədəni-Maarif" jurnalında Muxtar respublika mədəniyyətini elmi-publisistik məqalələrlə təbliğ etməkdəyəm. (bax; F.Bağırov, "Nuh yurduna ziyarət", Bakı- 2008; F.Bağırov, "Tarixin yaddaşı", Bakı- 2009).

Tale elə oldu ki, mən yenidən Muxtar Respublika Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzdə işləməli oldum. Naxçıvan MR Mədəniyyət Nazirliyinin (nazir Yəhya Əliyev idi) 2005-ci il 31 yanvar tarixli 35 №-li əmri ilə mən Muxtar Respublika Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzdə (direktor Gülxar Əhmədova) işə başladım.

Mədəniyyət nazirliyi və Elmi-Metodik Mərkəzdə (nazir S.İbrahimov və EMM-in direktoru N.Əzizəliyev) rəhbər vəzifədə dəyişiklik olduğundan, təqaüd alan iki nəfər (Yaqub Əliyev və Ziya Həsənov) tutduqları vəzifədən azad edilir. Yaşa görə təqaüdçülərin işdən çıxma siyasəti Muxtar Respublikanın bütün mədəniyyət sahələrində tətbiq olunurdu.

Yeni iş yerimiz şəhərdəki Heydər Əliyev adına Mədəniyyət Sarayında yerləşirdi. Təmirdən çıxmış gözəl binada yerləşən idarəmiz Muxtar Respublika Mədəniyyət və Turizm Nazirliyi ilə bir yerdə idi. Son illərdə Elmi-Mərkəzdə aşağıdakı dörd şöbə fəaliyyət göstərirdi; "Xalq yaradıcılığı" (Məmməd Məmmədov), "Mədəni-kütləvi tədbirlərin təşkilatı" (Fərzalı Səfərov), "Klub işinin metodikası" (Feyruz Bağırov), və "İnformasiya və ictimai rəyi öyrənmək" (Tural Nəcəfov (?) idi.

Mərkəzdə sevdiyim işlərdən biri də klub işində istifadə üçün topladığım video filmlər idi. Şöbədəki metodistlərlə bərabər Muxtar respublikadakı mövcud klub və mədəniyyət evlərinə metodiki köməklik göstərib və Azərbaycan mədəniyyətini inkişaf etdirirdik. Mərkəzdə digər şöbə müdirləri kimi lazım gələndə nazirliyin də ictimai işlərinə köməklik edirdik. (bax; "Arxivin "sim-sim" qapısı" bölməsinə; "Novruzda qar" və "Qonaqlıq" video filmləri, "FB-film kinostudiyası" 2010).

Şöbənin görəcəyi işlər aşağıdakı metodik məktublardan ibarət idi; 1) Mədəniyyət evləri və Klub müəssisələrində pedaqoji prosesin mahiyyəti və əsas xüsusiyyətləri. 3) Klub işinin məzmun və təşkilati-metodik prinsip üzrə bölünməsi. 4) Klub fəaliyyətinin funksional növləri. 5) Kütləvi auditoriya və onunla iş. 6) Şəxsiyyətin Mədəniyyət evi və Klub müəssisələrinin formalaşdırıcı təsir obyekti kimi. 7) Klub auditoriyasının öyrənilməsi. 8) Klub işçisi tərbiyəçi və tərbiyə işinin təşkilatçısıdır. 9) Klub işinin metodikasının quruluşu mənbələri və formalaşma yolları. 10) Klub işində istifadə edilən pedaqoji amillər. 11) Klub işinin forma və metodları, habelə Klub metodikasının qanunauyğunluqları. 12) İdeya-siyasi, vətənpərvərlik, əmək və mənəvi tərbiyənin birliyinin təmin edilməsi metodikası. 13) Şifahi təbliğatın metodikası. 14) Mühazirə, məruzə, söhbət, sual-cavab gecələrinin təşkili metodikası. 15) Özfəaliyyət işinin təşkili metodikası və s.

Mədəniyyət üzrə işlədiyim illərdə Elmi-Metodik Mərkəz (direktor N.Əzizəliyev) tərəfindən "Fəxri Vərəqə" (2006) və "Fəxri Fərman" (2014), Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyi (nazir S.Hüseynov) tərəfindən "Fəxri Fərman" (2006), Naxçıvan MR TAMC (sədr Q.Həsənov) tərəfindən "Fəxri Diplom" (2011) və MİHİ Naxçıvan MR Komitəsi (sədr R.Hüseynov) tərəfindən "Fəxri Fərman" (2012) ilə mükafatlanmışam. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi (nazir Ə.Qarayev) tərəfindən "Əmək veteranı" (2012) fəxri ad verilmişdir. Əmək fəaliyyətimin 50 il ötməsinə baxmayaraq, 2014-cü il iyunun 9 da medal və fəxri ad almadığım üçün "qocalığa görə" tutduğum vəzifədən azad edildim. (bax; "Mədəniyyət və turizm fəaliyyətinə aid qanunlar toplusu", Bakı- 2007).

"Məgər sən bilmirsənmi ki, göylərin və yerin səltənəti ancaq Allaha məxsusdur və sizin Allahdan başqa bir dostunuz və yardımçınız yoxdur?!" (Bəqərə surəsi, 107)

"Müəllimlərinizi eşidin, çünki onlar dünyanın çırağı və axirətin yol göstərənləridir."

(Hz. Məhəmməd (s) peyğəmbər)

Şərəfli pedaqoji iş

Şəxsi həyatımda mədəniyyətlə yanaşı pedaqoji işlə də məşğul olmuşam. Hələ altmışıncı ilin sentyabr ayından başlayıb məktəbdənkənar uşaq tərbiyə müəssisəsində işləyərək, məktəb uşaqlarına bədii yaradıcılıq vərdişləri öyrətmişəm.

Həmin illərdə Gənc Texniklər Stansiyasında uşaqlara "Kino həvəskarları" dərnəyində kino texnikasının sirlərini öyrədirdim. Stansiyanın direktoru Əsgər Nəzərovun köməyi ilə Bakıdan lazım olan texniki avadanlıqlar gətirib və məşğələdə əyani vəsaitdən istifadə edirdim. Naxçıvan rayon Xalq Maarifi Şöbəsindəki Filmoteka və Muxtar respublika Kinoprokat idarəsi ilə əlaqə saxlayaraq dərnəyimə tədris film surətləri gətirirdim.

Stansiyadakı texniki avadanlıqlarından istifadə edib və uşaqlarla birlikdə bir neçə həvəskar film çəkib hazırlamışdım. Çəkilmiş sənədli filmlər əsasən stansiyadakı dərnəklərin fəaliyyəti haqqında idi. Stansiyadakı kino dərnəyinin işi ilə maraqlanan Nazir müavini Hüseynov Əli Məhəmməd oğlu, çəkdiyim filmə baxandan sonra, dərnəyin inkişaf etdirilməsini məsləhət bilmişdi.

Yetmişinci illərdə Naxçıvan şəhər Pioner və Məktəblilər Evində (direktor Nizami Həmzəyev idi) "Rəssamlıq" dərnəyinə də rəhbərlik etmişəm. Məktəblilərin bədii yaradıcılıq sərgisinə dərnək üzvlərinin də rəsmlərini qoyurduq. Direktorun təklifi ilə dərnəkdə bədii yaradıcılıq emalatxanası da yaratmışdım.

Emalatxanada uşaqlara estetik zövqü oxşayan tətbiqi və təsviri sənət üzrə əl işləri olan kiçik heykəl və qrafik işləri öyrədirdim. Dərnək üzvləri səkkizinci sinif şagirdləri olduğundan fərəhlənərək və pedaqoji işimdə məsuliyyəti artırmışdım.

1973-cü ildə Bakıda klassik Azərbaycan şairi İmadəddin Nəsiminin (1369-1417) portreti müsabiqəsi elan olunur. Həmin müsabiqədə bacarıq və qabiliyyətindən asılı olmadan hər kəs iştirak edə bilərdi. Mən də həvəslənib müsabiqəyə qoşulduğum üçün, Nəsimi şəxsiyyətini yağlı boya ilə çəkib hazırladım. İlan dağın fonunda yağlı boya ilə çəkdiyim 40x60 sm. ölçüsündə olan Nəsiminin portretini Pioner və Məktəblilər Evinə (direktor Nizami Həmzəyev idi) hədiyyə etdim.

On ilə yaxın Naxçıvan Kənd Təsərrüfatı Texnikumunda (direktoru Cəlal Bağırov idi) əvvəl "Aqrokimya" və sonra isə "Texniki vasitələr" kabinetində pedaqoji işdə çalışmışam. Orada ictimai əsaslarla foto-kino həvəskarları dərnəyi yaradıb və tələbələri dərnəyə cəlb edə bilmişdim. Tələbələrin ümumi yataqxanası ilə əlaqə saxlayıb və tələbələrin asudə vaxtlarında bədii tədbirlər keçirirdim.

Bundan başqa tələbələrin köməyi ilə yataqxanada bədii təşviqat işlərinə də əlimdən gələni edirdim. Tələbələrin ictimai işlərdə fəallaşması üçün Texnikum həmkarlar təşkilatı (sədri Cəlil Abdullayev idi) da lazım olan maddi köməklik göstərirdi.

1979-cu ilin oktyabr ayında Texnikumun tədris hissəsi Babək rayonu Şıxmahmud kəndindəki orta məktəbin binasına köçürülür. Texnikumun adında dəyişiklik edilərək Şıxmahmud kənd M.Hüseynzadə adına sovxozun bazası əsasında Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyev (1912-1970) adına Naxçıvan Sovxoz-Texnikumu yaradılır.

Tələbə və müəllimlərin Şıxmahmud kəndinə gediş-gəlişi, dövlət tərəfindən ödənilərək və pulsuz avtobus marşrutları açılır. Bundan sonra Sovxoz-Texnikumun kollektivi öhdəçilik götürüb və təsərrüfat məhsullarına görə işlərini gücləndirirlər. İş otağım məktəbin birinci mərtəbəsində olduğundan tədris və təsərrüfatdakı bədii təşviqat işlərinin görülməsi mənə həvalə edilir.

Həmin illərdə özümə "Moskviç-412" markalı avtomaşın aldığım üçün işə gedib-gəlməkdə çətinlik çəkmirdim. Texnikumun direktoru baytarlıq elmləri namizədi Cəlal Bağırov (1928-1997), partiya təşkilatı katibi Mirəhməd Seyidov (1940-2001) və komsomol təşkilatı katibi Vaqif Abdullayev təşviqat işlərində mənə yardımçı olurdular. Şüar və plakatların taxta çərçivəsinin hazırlama işində təsərrüfat müdiri Əsəd Yusifov (1914-1988) mənə yaxından kömək edirdi.

Naxçıvan Sovxoz-texnikumun kollektivi dəfələrlə Dövlət öhdəliklərini yerinə yetirdiyi üçün, SSRİ Kənd Təsərrüfatı Nazirliyi və Həmkarlar İttifaqları Mərkəzi Şurası tərəfindən "Keçici Qırmızı bayraq" almışdır. Təsərrüfatda yeni tipli heyvandarlıq kompleksi tikilərək istifadəyə verilmiş və baş çoban Əhməd Mustafayev Ali Sovetə deputat seçilmişdir. Bundan başqa çobanlardan Balabəy Abdullayev "Balbas" cinsli qoyundan 4 əkiz bala aldığı üçün, "SSRİ-nin Əməkdar heyvandarı" fəxri adını alaraq və "Volqa" (QAZ-31) markalı minik maşını ilə mükafatlanır.

Həmin illərdə texnikumun pedaqoji kollektivinə Naxçıvan şəhərində tikiləcək 50 mənzilli 5 mərtəbəli ictimai yaşayış və tədris üçün binaların layihə-smeta sənədlərinə baxılaraq təsdiq olunmuşdur. Tədris binasının tikintisi "Cananbəy kəhrizi"nin cənub-qərb hissəsindəki 5 hektarlıq çınqıllı sahədə başlansa da sonrakı illərdə həmin bina Muxtar respublika Su Təsərrüfatı və Meliorasiya Nazirliyinə verilmişdir.

Sovxoz-texnikumda işlədiyim illərdə foto və bədii yaradıcılıqla məşğul olurdum. Yağlı boya ilə çəkdiyim işlərimdən bir neçəsini texnikum tədris və tələbə yataqxanasına hədiyyə etmişdim. Təsərrüfatdakı qabaqcılların iş təcrübəsini yaymaq məqsəd ilə foto şəkillərini çəkib yerli qəzet və televiziyada təbliğ edirdim. Bütün bunlara görə Texnikumun ictimai işlərində fəallıq etdiyim üçün, məni kommunist sıralarına keçirmək istəmişlər...

1984-cü ilin əvvəlindən Babək rayon Xalq Maarifi Şöbəsində müəllim işləmək üçün növbəyə durmuşdum. Həmin ilin sentyabr ayından Qaraxanbəyli kənd orta məktəbinə müvəqqəti müəllim verdilər. Bakıdan aldığım "Moskviç- 412" markalı şəxsi avtomobillə məktəbə işə gedirdim. Məktəb tədbirlərində fəal olduğumdan direktor Məmməd Məmmədov və dərs müdiri Abbasəli Mərdanov (1932-1996) məzunlarla ədəbi bədii əlaqə işlərini mənə həvalə edirlər.

İşlədiyim məktəbdə ictimai əsaslarla foto dərnəyi yaradıb və dərsdən kənar vaxtlarda şagirdlərlə əlavə məşğul olurdum. Məktəbin ədəbi bədii tədbirlərində fəallıq edərək təbliğat vasitəsi kimi foto stendlər düzəltmişdik. Təəssüf ki, analıq məzuniyyətinə çıxan müəllimə vaxtından əvvəl işinə qayıtdığı səbəbindən məktəbdən çıxaraq və Rayon Xalq Maarifi Şöbəsi nəzdində Filmotekada qaldım.

1988/89-cu dərs ilində Naxçıvan şəhər Xalq Maarif Şöbəsi (şöbə müdiri İslam Həsənov idi) tərəfindən 3 və 11 № -li orta məktəblərdə müəllim işləmək üçün müsabiqə elan edilir. 3 №-li orta məktəbə lazım olan sənədləri verib və müsabiqə ilə coğrafiya müəllimi işinə götürüldüm. İşlədiyim məktəb rus dilli olduğundan ilk günlər çətinliklə qarşılaşmalı oldum. Çətinlikləri dəf etmək məqsədi ilə boş vaxtlarımda dərslərdə oturub və müəllimlərin iş metodlarını öyrənirdim. Məktəb müdiri (direktor Hacıyeva Tahirə Əjdər qızı (1941-1998) idi) ilk günlərdən mənə etinasız olsa da, qabiliyyətimə görə mənə sərbəstlik verdi.

Məktəbdə təbiət-coğrafiya ixtisası üzrə dərs saatı çox olduğundan Cəmilə adlı gənc müəlliməni də işə götürdülər. Mənə aylıq dərs yükü həftədə 24 saat olub əlavə 5-ci sinfə rəhbərlik, kabinet müdiri və 12 saat miqdarında da dərnək məşğələsi verilmişdir. Məktəb iki növbəli olduğundan hər gün səhər saat 9-dan axşam 18-ə kimi dərsdə olurdum. (Məktəb kollektivinin əksəriyyəti rus, yəhudi və erməni millətindən idi).

İşlədiyim ilk günlərdən məktəbdə özüm üçün "Coğrafiya kabineti" yaratdım. Məktəbdəki təsərrüfat anbarından (zavxoz Səfərov Qurban Adil oğlu) məktəb kino aparat dəsti ilə xəritə, qlobus və başqa avadanlıqlar da əldə etdim. Dərslərdə filmotekadan gətirdiyim tədris filmlərindən istifadə edərək əyanilik metodlarına üstünlük verirdim.

Məktəbdəki müəllim və şagirdlər bir qayda olaraq məni də soy adımla çağırırdı. İşimdəki yeganə çətinlik yalnız vurğu ilə (aksentlə) danışıb və sözləri düzgün tələffüz edə bilməməyim idi. Maraqlıdır ki istər müəllim yoldaşlarım və istərsə də şagirdlər mənim belə yarıtmaz danışığıma irad tutmurdular. Bəlkə də bütün bunlar mənim məktəb qaydalarına riayətim və dərsləri əyaniliklə aparmağımdan irəli gəlirdi. (Məktəbin müəllim kollektivi yüksək səviyyəli mədəni insanlar idi).

Müəllimlik peşəsi başqalarına çətin olsa da mənim üçün asan və şərəfli bir peşə idi. Çünki mən bu peşəyə yiyələnmək üçün ürək yanğısı ilə can atırdım. Bilirdim ki dünyada müəllim adı həmişə hörmətli və ləyaqətlidir. Öz peşəsini sevən müəllim şagirdinə bilik öyrətməklə bərabər dünya həyatında savab qazanmış və günahlardan uzaqlaşan insan kimidir.

Məktəb kollektivi arasında mənim xətrimi istəyən müəllimlər var idi. Onlar təşkilat işi rəhbəri Rza Hacıyev, dərs işi rəhbəri Lyudmila Petrovna, ibtidai sinif müəlliməsi Katya Dimitriyevna, coğrafiya müəlliməsi Cəmilə Nəzərova, istehsalat təlimi müəllimi Feliks Çernousov (1936-2001) idi.

Bundan başqa, xarici dil müəllimi Mehdi Abdullayev (1939-2001), tarix müəllimi Fikrət Qasımov, ibtidai hərbi hazırlıq müəllimi Gennadi Stepanov (1946-2002), rəsm müəllimi Fuad Əsgərov, Azərbaycan dili müəllimi Mir Mehdi Seyidov, tarix müəllimi İsmayıl Əsgərov, bədən tərbiyəsi müəllimlərindən Oktay Rzayev, Nazim və Məmmədtağı Əliyev qardaşları da mənə hörmət göstərirdilər.

Məktəbdəki ictimai işlərdə fəallıq edərək tədbirlərdə foto şəkillər çəkib kollektivin sevincinə şərik olurdum. Məktəbimiz 1949-cu ildən Rus yazıçısı A.S.Puşkinin (1799-1834) adını daşıyırdı. Doxsanıncı ilin əvvəlindən Rus Sovet İmperiyası tərkibindəki müttəfiq respublikalar müstəqillik qazandı. Həmin vaxt Moskvada Müttəfiq Dövlətlər Birliyi (MDB) deyilən bir qurum yaradılır. (Bu fürsətdən istifadə edən mənfur erməni qonşularımız torpaq ərazilərimizə göz dikib və sərhədyanı kəndlərə silahlı basqınlar edirlər).

Şərur rayonundakı Sədərək kəndi ermənilər tərəfindən raket atəşinə tutularaq və Kərki kəndi torpaq əraziləri ilə bərabər işğal olunur. Həmin hadisələrlə əlaqədar Muxtar respublika ərazilərində yaşayan xaçpərəst əhali qorxuya düşdüyündən köçüb gedirlər. Nəticədə Rus dilli məktəbəqədər və tədris müəssisələrində uşaqların sayı aşağa düşür. Hadisələrlə əlaqədar Azərbaycanlı valideynlər uşaqlarını rus dilli tədris və tərbiyə müəssisələrindən çıxarıb və milli məktəblərə qoyurlar. (Həmin ilin yanvar ayından bizim məktəbdə dərs yükü xeyli azaldı).

Naxçıvan şəhər ZDS İcraiyyə Komitəsi (sədri Həsən Abdullayev idi) və Xalq Maarifi Nazirliyi (nazir Hidayət Hüseynov idi) rəhbərlərinin rəsmi qərarı ilə məktəbimizin adı dəyişilərək şəhid Vəli Zeynalov (1956-1990) adına olur. Məktəbdə ad dəyişmə mərasiminə toplaşan müəllimlər keçmiş Sovet hökuməti rəhbərləri ilə Rus şairi Aleksandr Puşkinin ünvanına pis-pis sözlərlə çıxış edirlər.

Mənə söz veriləndə yarı zarafat yarı gerçək dedim ki;

> *"Adını bəyənmədiyiniz Aleksandr Puşkin nəinki Rus xalqının eləcə də dünya poeziyasının sevimlisi kimi azadlıq və demokratiyanın carçısı olmuşdur. Qaldı ki, şairin ata şəcərəsinə baxanda İbrahim Hannibaldan (1697-1781) başlayır. Bilin ki, indiki tərifli sözlər dediyiniz şəhid Vəli Məmməd oğlu Zeynalovun anası və xanımı mənəviyyatla xaçpərəstdir..."*

Məktəbdə dərs dediyim uşaqların əksəriyyəti tənbəl və narahat şagirdlər idi. Bir dəfə Sovet pedaqoqu A.Makarenkonun (1888-1939) tərbiyə üsulundan istifadə edib və uşaqlardan birini tənbeh etmək istədim. Bu məqsədlə tənbəl uşağın boynundakı qırmızı pioner qalstukunu alıb kabinetdə saxladım ki, bəlkə bu işdən utana. Şagirdin valideyninə xəbər göndərdim ki, məktəbə gəlib və mənimlə görüşsün. (Mənim bu cür düzgün olmayan pedaqoji tərbiyə üsulum tezliklə məktəb rəhbərliyi tərəfindən tənqid olundu).

Məktəbdəki şagirdlərin valideynləri vəzifə sahibləri olduğundan direktor mənim "üsulumdan" bərk qorxuya düşdü. Qəribədir ki, məktəbdə taksi sürücülərinin, bazar alverçilərinin, iaşə xidmətçilərinin və bu kimi adamların da uşaqları Rus dilli məktəbin siyahısında idi. Bir gün yaxşı tanıdığım DAM-i idarəsində çayçı işləyən Eldar Əliyev adlı valideyndən soruşdum ki;

> *"Nə üçün uşağınızı milli məktəblərdə oxumağa qoymursunuz? Axı bu məktəbdə uşağınız Vətən tarixi ilə milli mənəviyyatı qavraya bilmir."*

Həmin valideyn hirslənərək belə cavab verdi:

> *"Uşağımı məktəbə rüşvətlə qəbul etdirmişəm ki, gələcəkdə ya dövlət idarəçiliyində işləsin və ya Moskvada alver edəndə çətinlik çəkməsin. O ki qaldı Vətən tarixi, mənəviyyat və sən deyənləri bilməsə də olar. Bütün bunların isə heç kəsə dəxli yoxdur."*

1991/92-ci dərs ilinin üçüncü rübü təzəcə başlamışdır ki, məni yeni yaradılmış Estetik Tərbiyə Mərkəzinə işə dəvət edirlər. Direktor rəssam Səməd Məmmədov mənim bacarıq və qabiliyyətimə bələd olduğundan "Dekorativ tətbiqi sənət kabinəsi"nə rəhbər işçi götürür. Mən məktəbdə də müəllim kimi qalmaq şərti ilə yeni işə razılıq verdim. Məktəbdə yuxarı sinif şagirdlərinə imtahanım olduğu üçün dərs ilinin sonunadək hər iki müəssisədə işləməli oldum. (Təhsil şöbəsi müdiri Yelmar Tarverdiyev mənim iki yerdə işləməyə razılıq vermədiyi üçün məktəb işindən çıxdım).

Naxçıvan Estetik Tərbiyə Mərkəzində "Dekorativ tətbiqi sənət", "Təsviri incəsənət", "Musiqi sənəti" və "Mədəni-kütləvi işlər" kabinələri fəaliyyət göstərirdi. İşlədiyim məktəbdən kənar uşaq müəssisəsində yüzdən artıq işçi çalışırdı. Kabinə müdiri olduğumdan həftədə əlavə 12 saat da "Kino həvəskarları" studiyasına rəhbərlik edirdim. Əmək haqqı orta məktəbdən artıq olduğundan ailəmin maddi vəziyyətini təmin edirdim.

Rəhbərlik etdiyim kabinənin kollektivi işgüzar və bacarıqlı olduğu üçün həmişə nazirlik tərəfindən tərifl ənirdi. Mərkəzdə tez-tez uşaqların əl işlərindən ibarət yaradıcılıq sərgiləri açıb və müxtəlif tərbiyəvi tədbirlər keçirirdik. Kabinənin fəaliyyəti bir neçə dəfə yerli qəzet və televiziya ilə təbliğ olunmuşdur. Bütün bunlara görə 1996-cı il 05 oktyabr tarixli 268 №-li qərarı ilə Naxçıvan MR Təhsil Nazirliyi (nazir Ələkbər Quliyev) tərəfindən "Fəxri Fərman" ilə mükafatlandım. (bax;

> *"Məktəbdənkənar müəssisələrin nümunəvi əsasnaməsi"*

, Bakı- 1994).

Mərkəzdə kabinə müdiri kimi tez-tez siyasi-tərbiyəvi tədbirlər də keçirirdik. Onlardan biri də "Faşizm üzərində Qələbənin 55-ci ildönümü"nə həsr olunmuşdu. Belə tədbirlər yüksək səviyyədə olunduğundan, 2000-ci il 16 may tarixində (direktor Elxan Məmmədov idi) "Fəxri Vərəqə" ilə təltif olundum. (bax;

> *"Məktəbdənkənar müəssisələrin nümunəvi əsasnaməsi"*

, Bakı-1994).

Qabiliyyətimi nəzərə alan Təhsil Naziri Ələkbər Quliyev (1948-2009), 2001-ci il 24 may tarixli 52 №-li əmri ilə ikinci "Fəxri Fərman" ilə mükafatlandım. Həmin ilin 05 iyun tarixdə isə gənc nəslin təlim-tərbiyə sahəsindəki xidmətlərə görə Təhsil İşçiləri Azad Həmkarlar İttifaqları Naxçıvan MR Komitəsi (sədri Şərif Şərifov idi) tərəfindən xüsusi "Fəxri Fərman" ilə mükafatlandım. (bax;

> *"Məktəbdənkənar müəssisələrin nümunəvi əsasnaməsi"*

, Bakı- 1994).

Təhsil Nazirliyində əsaslı kadr dəyişmə siyasəti aparıldığından Mərkəzdə "frontal" yoxlama aparılıb və təzə direktorla (Elxan Məmmədov) müavinə (Nərminə Heydərova) şiddətli töhmət verilir. Bundan sonra qeyri ixtisas təhsilli direktor, iş yerində təşvişə düşərək və mənim fəallığıma qarşı çıxmağa yol axtarır. Bu kimi məqamdan istifadə edən kabinə müdirləri isə məni nüfuzdan salmaq istəyirlər.

2003-cü ilin aprel ayında Naxçıvan MR Təhsil Naziri Ələkbər Quliyevi, "Şərq qapısı" qəzeti redaktoru Məmməd Məmmədovun qərəzli məqaləsi ilə ifşa edib işindən çıxarırlar. (Bir neçə ildən sonra isə keçmiş redaktor M.Məmmədov avtomobil qəzasından ölür). Təhsil naziri vəzifəsinə Naxçıvan Dövlət Universitetinin müəllimi tarixçi Həmzə Cəfərov təyin olunur. Tezliklə Təhsil Nazirliyində kadr dəyişmə siyasəti aparılaraq təcrübəli işçiləri təcrübəsiz kadrlar əvəz edir. (Nazirin kadr dəyişmə "oyunları" bütün tərbiyə müəssisələrində də davam etdirilir).

Naxçıvan Təhsil Nazirliyinin 2002-ci il 22 mart tarixli 43 №-li əmri əsasında, Naxçıvan Estetik Tərbiyə Mərkəzinin direktoru Elxan Məmmədovun imzaladığı 2002-ci il 01 aprel tarixli 22 №-li əmri ilə;

> *"Dərs ilinin axırınadək qeyri ixtisas təhsilli və işin öhdəsindən gələ bilməyən ştat və dərnək işçilərinin əmək müqavilələri qüvvədən düşdüyündən, işlərindən azad olunurlar."*

10 nəfər işdən çıxarılanların siyahısı (onlardan 6 nəfəri bizim kabinənin işçiləri idi).

Bazar ertəsi adət üzrə işə erkən gəlirdim. Direktor pəncərədən məni otağına çağıraraq və qarşıma bir əmrin surətini qoyub dedi:

> *"Feyruz müəllim, təzə nazirin sözü ilə səni cümə günün axşamı işdən azad etmişəm"*

. O, laqeydliklə əlavə edib dedi ki;

> *"Əgər şikayətin olsa buyur nazirə de, mən də əmri cırım atım..."*

Talehin hökmü ilə 28 illik pedaqoji fəaliyyətimi nəzərə almadan qərəzli surətdə tutduğum vəzifədən azad edildim.

Bekarçılıq pis şey olduğundan artıq ailə, qohum, qonşu və tanışlar arasında hörmətdən düşmüşdüm. Hərdən acı taleyimə acıyaraq intihara əl atmaq istəyirdim. Lakin bilirdim ki, insan özünə qəsd edərsə qiyamətdə cəhənnəmi qazanar. Fiziki iş görə bilməyib alış-verişlə də səriştəm olmadığından səbir edib təskinlik tapırdım. Hərdən də düşünürdüm ki, Adəmdən Xatəmə kimi bəşər tarixində eyni köklü yaramaz və nankor insanlar olmuş və qiyamətədək olacaqlar.

Şəxsi arxivimdəki Sovet dövründə çəkdiyim H.Ə.Əliyevin (1923-2003) Naxçıvanda olarkən tarixi foto şəkillər dəstindən 100 ədəd ayırıb və şəhərdəki H.Əliyev muzeyi nə bağışladım. (bax; "Şərq qapısı" qəzeti, 2011, № 232). Muzeyin direktoru Lütfiyə Əsgərova və Ali Məclisin sədr müavini Zahid Əzimovdan xahiş etdim ki, işləməyimə kömək etsinlər. Lakin bütün bunların heç də faydası olmadı. Bir oğlum icbari hərbi xidmətdə, o biri oğlum isə xaricdə təhsil alırdı. Təkcə ümidim ailəmizə çörək pulu gətirən uşaq bağçasında müəllimə işləyən həyat yoldaşıma qalmışdı. (Və tezliklə şəhərdəki uşaq bağçası da ləğv olundu).

2008-ci ilin avqust ayı idi, havalar çox isti keçirdi. Pedaqoji işdə işləmək üçün üz tutdum Naxçıvan şəhər Uşaq İncəsənət Məktəbinə. Məktəbin direktoru Azər Abbasov və tədris işləri üzrə direktor müavini Tahir Kərimov məktəbdə məni səmimi qarşıladılar. Məktəbdə işləməyimi onlara bildirdikdə icazəni yalnız şəhər Mədəniyyət və Turizm şöbəsindən almağı dedilər. (Şöbənin müdiri İmamqulu Əhmədov və baş mühasib Yusif Xəlilovun razılığı ilə həftədə 12 saat həcmində "Rəssamlıq" şöbəsinə işə götürüldüm).

Uşaq İncəsənət Məktəbində məndən başqa şəhər 7 №-li məktəbin rəsm müəlliməsi Gülnarə Hüseynova da uşaqlara dərs deyirdi. Məktəbə lazım olan sənədləri verdikdən sonra dərs demək üçün mənə ayrıca otaq ayrıldı. 2003-cü ildə təsdiq olunmuş Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Musiqi Təhsili üzrə Tədris-Metodika Kabinetinin tərtib etdikləri 5-illik

> *"Uşaq İncəsənət məktəbi rəssamlıq şöbəsi üçün Proqram"*

verildi.

Tərtib olunan Proqram Rəssamlıq şöbəsində tədris olunan fənlərin elmi, nəzəri və praktiki yolla öyrətmək idi. Belə ki, müəllim 5 il ərzində şagirdlərdə bacarıq, qabiliyyət və istedadlar aşkar edib və onlara rəngkarlıq, qrafika və heykəltəraşlıq sənətini öyrətməlidir. Proqram "Rəsm", "Boyakarlıq", "Heykəltəraşlıq", "Kompozisiya", "Dekorativ-tətbiqi sənət", "Plastik anatomiya" və "Təsviri incəsənət tarixi" bölmələrdən ibarətdir. (bax;

> *"Uşaq incəsənət məktəbi rəssamlıq şöbəsi üçün Proqram"*

, Bakı- 2003).

Məktəbdə 1-ci və 2-ci siniflər üzrə 1-ci sinifdə bir qrupda 4 şagirdə həftədə iki gün və 2-ci sinifdə üç qrupda 11 şagirdə həftədə iki gün (nəzəri və praktik) dərs keçirdim. Qrupdakı bacarıqlı uşaqlardan 2 №-li məktəbin yeddinci sinif şagirdi Məmmədqulu Quliyev, 12 №-li məktəbin yeddinci sinif şagirdi Araz Həsənzadə və 7 №-li məktəbin altıncı sinif şagirdi Nurəddin Zeynalovu nümunə göstərmək olar. (Nurəddin uşaq rəsm müsabiqələrinin qalibi kimi, "Naxçıvan" jurnalında tərifləmiş, Məmmədqulunun foto şəkli isə məktəbin "Şərəf lövhəsi" ndə idi).

Məktəbin dəhlizindəki divarda şagirdlərin sərgilərə çıxardıqları əl işlərindən ibarət daimi sərgi guşəsi yaratmışdım. Bu isə məktəbdəki pedaqoji kollektivin estetik zövqünü oxşayırdı. İşlədiyim məktəbdə bacarıqlı və işgüzar işimə görə kollektivin hörmətini qazanmışdım. Belə ki, hər dəfə məktəb rəhbərliyi tərəfindən adım rəğbətlə çəkilirdi. (bax; F.Bağırov, "Tarixin yaddaşı" Bakı- 2009).

Dərs dediyim Uşaq İncəsənət Məktəbində elə ay olmazı ki, aylıq məvacibdən sonra direktorun göstərişi ilə, "şairlərin" yazıb nəşr elətdirdikləri bayağı kitabçalara, müsamirə və teatr tamaşalarına pul yığılmasın.

2009/10-cu dərs ilinin axır günləri idi. Direktor məni otağına çağırıb bildirdi ki, şöbə müdirinin göstərişi ilə Mədəniyyət Sarayındakı konsertə alınmış güllərə lazımi miqdarda pul verməlidir. Ona etirazımı bildirdikdə; "Mənə baş girələyən "müəllim" lazımdır..." dedi. (Beləliklə ömür səhifəsinin 65-ci ilində şərəfli pedaqoji işə son qoymalı oldum).

"Sən pak və müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. Hər şeyi bilən, hökm və hikmət sahibi Sənsən". (Bəqərə surəsi, 32)

> *“Evlənməyə qadir olan, ailə qurmasa axmaqdır.”*
>
> **(Hz. Məhəmməd (s) peyğəmbər)**

Ailə xoşbəxtliyi

“Ən böyük sevgi Allah sevgisidir ki, bütün sevənlərə məlhəm olur.”

> *“Ot öz kökü üstə bitər” Atalar sözündə hikmət vardır. Əxlaqdan təmiz olanla həyat qurun ki, sonradan peşman olmayasınız. Qədim Şərqin hikmət kitablarından “Min bir gecə”, “Kəlilə və Dimnə” və “Qabusnamə”ni oxuyub öyrənməklə, həyatda xoşbəxt ailə qurmaq mümkündür.*

1970-ci ilin yayında valideynlərim mənim istədiyim Mehriban adlı qız ilə görüşməyimdən xəbər tutduqdan sonra el adəti ilə elçiliyə gedirlər. Mehribanın ögey əmisi Mamed Əli oğlu Teymurov (1936-2011) ailəsi ilə birlikdə şəhərdəki Su tikinti idarəsinin (SMU-6) “fəhlə qəsəbəsi”ndə yaşayırdı.

Qız ögey əmisinin evində qaldığından əvvəlcə valideynlərim onlara gedib və vəziyyəti ətraflı bildirirlər. Ertəsi günü isə elçilərimiz maşınla qızın evinə- Noraşen (Şərur) rayonundakı Ulya Noraşen kəndinə gedirlər. (bax; “Bahar” filmi, FB-film studiyası-1970 (rəngli).

Kənddə el adəti ilə qız evinin razılığı əsasında “söz alma”dan sonra “nişan taxma” günü təyin olunur. Nişan taxma mərasiminə valideynlərim qohum-qonşularla bərabər qızın ata evinə gedirlər. Kənddə təyin olunmuş günə qız evinin də qohum-qonşuları yığışır.

Orada atamla qız tərəfin “ağsaqqalı” Dizəli Əlixan kişi arasındakı danışıqdan sonra ümumi razılığa gəlirlər. Kənddə nişan taxma mərasimi keçiriləndə nişan üzüyünü qızın barmağına taxıb və başına da gəlin örtüyü salırlar. (Bir neçə gündən sonra isə qız evi “nişanlı oğlana” baxmaq bəhanəsi ilə məni kəndə qonaq çağırırlar). (bax; “Kənddə” filmi, FB-film studiyası-1971 (ağ-qara).

Mehribanın atası Yusif Əli oğlu (1921-1993) Noraşen rayonundakı Dizə, anası Leyla Abbasəli qızı (1930-2008) isə Yuxarı Yaycı kəndindən gəlmişlər. Naxçıvan diyarında Sovet hökuməti qurulanda atadan yetim qalan Yusifin anası Şeyda, Dizə kəndində yaşayan və toylarda aşıqlıq edən Aşıq (Kürd) Əliyə ərə gedir.

Yusif kişinin əmisi Əli və Vəli bəy qardaşları, 1893 cü ildən 1921-ci ilədək Azərbaycanda fəaliyyət göstərən "Siemens qardaşları" səhmdar cəmiyyətinin Şərur qəzasındakı "Gümüşlü Filizçıxarma Şirkəti"nə nəzarətçi (smotritel) olmuşdur. Gümüşlü mədənindən çıxarılan qurğuşun və sink qarışıqlı qalenit filizi, Bakıdakı "Nobel qardaşları" şirkətinə satılırdı. (Ərazidəki Dizə, Axura, Yaycı, Gümüşlü, Danzik və Havuş kəndlərinin ağalığı, Əli və Vəli bəyin atasına məxsus olmuşdur).

Qızın Yusif və Leyla adında ata-anası ilə bərabər ailədə kiçik bacı-qardaşları da vardır. Mehribanın bacıları Fatma və Şeyda qardaşları isə Əli, Həsən, Qurban və Hüseyn adlarında idi. Onların yaşadıqları ev ilə həyətyanı əkin sahəsi Yusif kişinin ögey qardaşı Mamedin adına idi.

Noraşen (Dizə kənd) Su Tikinti İdarəsində yük maşını sürücüsü işləyən Mamed, işini Naxçıvana dəyişəndən sonra mülkünü də Yusifə tapşırıb gedir. (Mamed əvvəllər məhəllədəki dul qadın Rübabənin mənzilində kirayə yaşadıqdan sonra SMU-6 fəhlə qəsəbəsindəki ümumi yataqxanaya köçür). (bax; "Kənddə" filmi, FB-film studiyası-1971 (ağ-qara).

1970-ci il oktyabrın 10-da atam bizim toy mərasimini bir yerdə elədi. Toya qohum-qonşular dost-tanışlar və qız evindən də dəvət olunur. Atam toydan əvvəl şəhər məscidinin Axundu İrəvanlı Hüseynə izdivac kəbini yazdırmışdır. Allah-təala taleyimə xoşbəxt ailə həyatı qismət etdiyindən, heç nədən korluq çəkmədən möhkəm ailə bünövrəsi qoyduq. Beləliklə bərabər işləyərək zəruri ehtiyaclarımızı özümüz ödəməli olduq...

1974-cü ildən Mehriban əvvəl məktəb və sonra isə uşaq bağçasında əvəzedici müəllim işləyir. Həmin illərdə mən gündüzlər Kənd Təsərrüfatı Texnikumunda axşamlar isə Rayon Kino İdarəsində işləyərək qəzet və televiziyadan da müəllif haqqı (qonorar) alırdım.

Mən, məktəbli məzunlar və tələbələrinin xatirə foto şəkillərini çəkməklə ailə ehtiyacını ödəyirdim. Qısa bir vaxt ərzində yığdığım pul vəsaiti ilə evimizə zəruri məişət əşyaları aldım. Həmin illərdə həyətimizdə ayrıca foto laboratoriya üçün "bina" da tikmişdim.

1971-ci ilin avqustun 21-də ailəmizdə ilk oğlan uşağı doğulur. Atam sevincək halda "Əzan" və "İqamət" duasını oxuyub və nəvəsi Musa Feyruz oğluna ad qoymuşdu. Musa böyüyüb Ali təhsil aldıqdan sonra Ülviyyə Əyyub qızı ilə evlənərək Nicat və Nigar adında uşaqları olur. Nəvələrimin hər ikisi şəhər 5 №-li məktəbin şagirdləridir.

1973-cü ilin iyunun 4-də ailəmizdə qız uşağı doğuldu. Atam xəstə olduğundan anasının razılığı ilə uşağa Təranə adını qoyurlar. Musiqi texnikumunu bitirən Təranə qızım, Əli Sadıq oğluna ərə gedərək İlkin və Güllü adlarında uşaqları olur. İlkin Bakıda İqtisadiyyat Universiteti və bacısı Güllü isə Naxçıvan Dövlət Universiteti tələbələridir.

1977-ci ilin mayın 24-də ikinci oğlum anadan olur. Körpənin adını anam Allahın adlarından biri olan Hafiz Feyruz oğlu deyib və Yaradana dua edir. Hafiz böyüyüb Türkiyədə Ali təhsil alandan sonra Aynurə Arif qızı ilə evlənərək və Arif adında oğlu olur. Bu nəvəm də şəhər 5 №-li məktəbin şagirdidir.

Beş nəvə babası kimi özümü xoşbəxt sayıram. Allaha dua edib uşaqlarımla bərabər nəvələrimə və nəticələrimə də ailə xoşbəxtliyi arzulayıram! Fiqh alimi Şeyx Ədəbali oğluna nəsihətində deyir ki;

> *"Oğlum ananı atanı say, bərəkət böyüklərlə bərabər olmalıdır. Böyüyünü bilməyən Allahını bilməz."*

(bax; "20 ildən sonra" filmi, FB-film studiyası 1993 (rəngli).

> *"Biz insana ata-anasına yaxşılıq etməyi tövsiyə etdik. Anası onu bətnində çox zəif bir halda daşımışdı. (Uşağın süddən) kəsilməsi isə iki il ərzində olur. (Biz insana buyurduq:) "Mənə və ata-anana şükür et. Axır dönüş Mənədir !" (Loğman surəsi, 14)*

> *"Qəlbində zərrə qədər təkəbbürü olan şəxs, cənnətə girə bilməz."*
>
> **(Hz. Məhəmməd (s) peyğəmbər)**

Zirvəyə çatan ömür

“Çox əzablar çəkmişəm ömür yolunda,

Qılıncı kəsənlər sağım-solunda.

Düz yolla gedəndə yolda qalmışam,

Yol kəsən görmüşəm tez qocalmışam.”

(Adil Qasım)

Ahıl adamlarda xeyirli söz deyib və nəsihət etmək cavanlardan daha çox olar. Qocalıq və ya ahıllıq insan həyatında labüd olub yaxşı və pis cəhətlərə malikdir. Belə ki, qocaları başı qarlı dağlara bənzətsələr də, fiziki gücsüzlük nəticəsində körpə uşaq kimi olurlar. İnsan taleyin hökmü ilə dünyada yaxşı-yaman ömür sürüb istək və arzularla əvvəl-axır həyatı tərk etməli olur. Həzrəti Əli ibn Əbu Talib (ə) buyurmuşdur ki;

> *“Sabahı öz ömründən bilən şəxs, ölümü olduğu kimi dərk etməmişdir.”*

Şair demişkən;

> *“Gəncliyin qönçəsi açılar, solar, tale çiçəyindən tək ləçək qalar.”*

Ahıl insan bilməlidir ki;

> *“Dünya həyatındakı ömür fanidir və əcəl bir anlıqdır.”*

(Artıq ömürdən keçən günlərin yaxşı-yamanını “qəlb süzgəci”ndən keçirmək vaxtıdır). İnsan həyatındakı iki şeyi unutmamalı və beynində “yazılan” savabla günah işləri kino lenti kimi baxıb yadına salmalıdır. İnsan hər an özü-özünü imtahana çəkərək günah işlərindən qurtulmaq üçün, savab işlərin sayını artırmalı və hər yaxşı işdən ötəri də təmənna güdməməlidir.

Yaxşı işlər (əməllər) nədir?

Bütün bunları saymaqla qurtarmaq olmaz. İnsan özünü dərk edəndən sonra Yaradanı tanımalı, valideynə ehtiram etməli, cəmiyyətdə və ailədə xoş xasiyyətli olmalı və səbirlə dünya elmlərinə maraq göstərməlidir. İnsan dünya elmlərini öyrənə-öyrənə kamilləşməli və başqalarına da öyrətməlidir. İnsan sözündə, əməlində, işində və həyatında xoş məramlı olaraq və özündən sonrakı həyatda iz qoymalıdır.

Gənclik illərində hər kəs elə bir peşə və ixtisasa yiyələnməlidir ki, gələcəkdə öz bacarığından özgələri də faydalansın. Qədim Çin ahıllarından birinin dediyinə görə; "Bir nəfər gəncliyində elə bir peşə öyrənmək istəyir ki, bütün peşələrdən "üstün" olsun. Beləliklə cavan oğlan əjdaha öldürən peşəsini seçir. Həmin peşəni öyrəndikdən sonra gözləyir ki, əjdaha öldürməklə kiməsə fayda versin. Qalan ömrünü gözləməkdə olan adam isə həyatda peşəsinə görə insanlara fayda verə bilmədiyi üçün dünyadan köçür." (bax; "Ağıl mücrüsü", Bakı- 1969).

Sənət və peşənin yaxşı-pisi olmadığından insanlara xeyir verməklə şöhrət qazanmaq olar. Dünya şöhrətini üstün tutan insanlar isə axirətlərini əldən verərlər. Yaxşı olar ki, hər kəs öyrəndiyi ixtisas və peşəsinə uyğun işlə məşğul olsun. (Əgər belə olarsa onda məmurların işi asan və dövlətçiliyin bünövrəsi də möhkəm olar). Bütün bunların əksi olanda hər kəs həyatında ciddi çətinliklərlə qarşılaşar və əməlində büdrəyər.

Yaşlı adamlar həyatında daha çox təmkinli, tədbirli və nəsihətli olsalar, o zaman cəmiyyətdə hörmət qazanarlar. Hər gördüyün ahıla el arasında "ağsaqqal" demək olmaz. Belə ki, ağsaqqal olan şəxs ilk əvvəl özünə, ailəsinə, cəmiyyətə, Vətənə və Allaha sadiq olmalıdır. Belə şəxslər Allahı tanımalı, sülhsevər olmalı, hər iş üçün tələsik qərar çıxarmamalı və sözü ilə əməli də uyğun gəlməlidir. Belə ağsaqqallar bu dünyada cəmiyyətin hörmətini, dünyadan köçəndə isə Allahın Rəhmətini qazanarlar.

Naxçıvan diyarında tarix boyu xeyirxah insanlar yaşamışlar. Onlardan Kərbəlayı Musa (1851-1924) adlı şəxs öz vəsaiti hesabına şəhər əhalisinə 3 km uzunluğunda kəhriz qazdırmışdır. Xeyirxah və mömin insan bu məqsədlə 8 il müddətinə (1901-1909) Şıxmahmud kəndi yaxınlığından Naxçıvan şəhərinə su çəkdirmiş və əhalinin suya olan tələbatını qismən də olsa ödəmişdir. Kərbəlayı Musa Naxçıvanda heyvandarlara tövlələr tikdirmiş kasıbların heyvanlarına yem yardımı etmiş və əkinçilərə nisyə toxumla pulsuz su vermişdir.

"Səkkiz il gecə-gündüz tər axıdıb kankanlar,
Kəhrizdən bol su gəlir qoy sevinsin insanlar.
Sonra bir dəyirman da tikdirdi Musa kişi,
Bu dəyirman qurtardı əzabdan çox insanı."

(Asim Yadigar)

Sovet dövründə Naxçıvandakı kəhrizlərə fikir verilmədiyindən suları azalmış və quyuları dolduğundan axımı da azaraq başqa səmtə yönəlmişdir. 1970-ci ildə Naxçıvan Nazirlər Sovetinin sədri olmuş Yusif Mustafa oğlu Nəbiyevin (1926-1980) şəxsi təşəbbüsü ilə Kərbəlayı Musa kəhrizi quyuları təmizlənərək və suyu 50-60 litir/saniyəyə çatdırılmışdır. (bax; F.Bağırov, "Tarixin yaddaşı" Bakı- 2009).

Məmmədtağı Sidqi (1854-1903) Ordubad və Naxçıvanda müəllimlik etməklə xalqın maariflənməsinə çalışmışdır. Yazıçı və jurnalist C.Məmmədquluzadə (1869-1932) Başnoraşen və Nehrəm kənd məktəblərində müəllim işləmiş və "Molla Nəsrəddin" satirik jurnalı ilə xalqı qəflət yuxusundan oyatmağa çalışmışdır. Hüseyn Cavid (1882-1941) müasir Azərbaycan ədəbiyyatında fəlsəfi dramaturgiyanın yaradıcısı kimi tarixi dram əsərlər yazmışdır.

Naxçıvanda Rus şura hökuməti yarananadək, Cümə məscidinin həyətində Miriş ağa (...?-1906) ilə Qazı Hacı Məhəmməd Cəfər ağa (...?-1912), xeyriyyəçilik göstərib və kasıb uşaqları üçün pulsuz "Nicat"(Rüşdiyyə) məktəbi açırlar. (bax; F.Bağırov, "Tarixin yaddaşı" Bakı-2009).

Tanınmış maarifçi Mir Cəfər ağa (1899-1979), görkəmli torpaqşünas akademik Həsən Əliyev (1907-1993), xalq rəssamı Hüseyn Əliyev (1911-1991), əməkdar müəllim Rauf Bəktaşi (1910-1988), xalq maarifi xadimi, filoloq Lətif Hüseynzadə (1903-2007), ədəbiyyatşünas Məmmədcəfər Cəfərov (1909-1922), Əli Sultanlı (1906-1960) və Heydər Əliyev (1923-2003) həmin məktəbdə təhsil almışlar. Belə insanların adlarını saymaqla qurtaran deyil. Allah onların Ruhuna rəhmət eləsin! Amin!

Bu dünyada iki şey yaddan çıxmaz ki, onlardan biri yaxşı (savab) və digəri də pis (günah) əməllərdir. Şübhəsiz ki, hər savab işdən sonra Allah tərəfindən dünya və axirətdə mükafat olacaqdır. Savab işlərdən ən önəmlisi valideynə qayğı və dünyadan köçəndə isə tabutundan yapışıb son mənzilə yola salmaqdır.

Savab iş görmək nə qədər "çətin" olsa da günah işi qazanmaq o qədər də asandır. Dünyada günahkar olmamaq üçün hər işdə diqqətli və tədbirli olmaq gərəkdir. Günahların ən pisi valideynə ağ olmaq, Allah və Onun müqəddəs kitablarını, peyğəmbərləri tanımadan xalqa və Vətənə xain çıxmaqdır.

Bəzən ahıl adamlar gəncliyində elədikləri günahları bağışlatmaq niyyəti ilə tövbə edib və ibadətə qatılırlar. Lakin bilmək lazımdır ki, tövbə gənclikdə edilməlidir ki, son anda qəbul olmaya da bilər. Necə ki, Misir Fironu (III Ramses) suda boğulan anda Allaha tövbə etsə də günahları bağışlanmır.

Qurani-kərimin Yunus (10/90-92) surəsində belə deyilir; “İsrail oğullarını dənizdən keçirdik. Firon və əsgərləri zalımcasına və düşməncəsinə onların arxasına düşdülər. (Firon) batacağı anda:

> *“İsrail oğullarının inandıqlarından başqa tanrı olmadığına iman gətirdim. Mən də artıq müsəlmanlardanam !”*

dedi”.

> *“İndimi? Halbuki əvvəlcə qarşı çıxmış və fitnə-fəsad törədənlərdən olmuşdun! Səndən sonrakılara bir ibrət olsun deyə bu gün səni xilas edəcəyik (hamıya cəsədini göstərəcəyik). Həqiqətən insanların çoxusu ayələrimizdən qafildir !”*

Xalq arasında məşhur olan bəzi “mövzu” (uydurma) sözlərdə deyilən

> *“Allah-təala günahkarların tövbəsini son nəfəslərində qəbul edər”*

fikri yuxarıdakı Quran ayəsində təkzib olunur. Qurani-kərimə müxalif olan sözlərə (hədislərə) etiqad etmək (inam gətirmək) Allahdan üz döndərib kafir olmaqdır. (bax; M.Bakuvi, “Kəşfül-həqayiq” (3 cilddə Quran təfsiri) Tiflis-1901).

İnsanın dünya həyatında günahları çoxdur. Onların ən pisi nadanlıq, yalançılıq, haqsızlıq, ikiüzlü riyakarlıq, iftiraçılıq, qəlbi sındırmaq və tələsik hökm çıxarmaqdır. Bəzən deyilir ki, hər kəs günahının cəzasını axirətdəki sorğu-sualdan sonra biləcəkdir. Bilmək lazımdır ki, hələ qiyamətədək qazanılmış günahların cəzasını müxtəlif formada elə bu dünyada da çəkərik. (Bədbəxt hadisə, ağır xəstəlik və bu kimi xoşagəlməz işlər elə günahımızın cəzasının bir hissəsidir).

> *“Allah kimi düz yola yönəltmək istəsə, onun köksünü İslam üçün açıb genişləndirər, kimi azdırmaq istəsə, onun ürəyini sanki göyə çıxan kimi daraldıb sıxıntıya salar...”*
> *(Ənam surəsi, 125).*

Şeytan insanları düz yolundan azdırmaqla pis işlərə (günahlara) sövq edir. Şeytana qalib gəlmək üçün Allahın adını çəkərək (Bismillah deyərək) səbirli və təmkinli olmaq gərəkdir. İnsan çox vaxt səbirsizlikdən xoşagəlməz hadisələrin qurbanına çevrilir ki, nəticəsi peşmançılıqla tamamlanır. (Sonrakı peşmançılıq isə heç də fayda vermir).

Abdullah ibn Amr Həzrəti Peyğəmbərdən(s) belə eşitdiyini deyir:

> *"Qiyamət günü Hz.Zəkəriyyənin(ə) oğlu Hz.Yəhyadan(ə) başqa, hər bir adəm övladının günahı olacaqdır."*

(İbn Kəsir, "Peyğəmbərlərin həyatı", I cild, Bakı- 2011).

> *"Səbir səadəti əbədi qalar, səbir kimdə isə o nəsib olar." (Yunus Əmrə)*

İnsan səbirsiz olaraq əsəbiləşir və vəhşiliyin əlamətlərini özündə canlandırır. Həmin anlardan yaxa qurtarmaq üçün üç dəfə Tövbə deyərək, sərin su içməli və oturub sakitcə gözləmək gərəkdir. Əsəbiləşəndə orqanizmdəki qan təzyiqi qalxır və göz dumanlanır.

Bunun qarşısını almaq üçün orqanizmə sərin suyun təsiri ilə sinirləri sakitləşdirmək lazımdır ki, beyindəki yüksəlmiş müqavimət qıcıqları gücdən düşsün. Qurani-kərimin Taha (20/124) surəsində belə deyilir;

> *"Hər kəs Mənim öyüd-nəsihətlərimdən üz döndərərsə, güzəranı daralar..."*

İnsanı ucaldan səbirdir alçaldan isə nadanlıqdır. Allah yalnız səbirli insanları sevər və onların da duasını qəbul edər. Fiqh alimi Cəlaləddin Rumi deyir ki; "Allah üçün yanan qəlb nə mübarək qəlbdir." Qurani-kərimin Saffat (37/75) surəsində belə deyilir;

> *"Həqiqətən, Nuh Bizə dua etmiş, onun duasını necə də gözəl qəbul etmişdik!"*

Allah-təala dünyada ən çox (yetim) uşaqların dualarını qəbul edər və onları da istəklərinə qovuşdurar. Ahıllar bu dünyanın nemətlərindən doymayaraq "gənclik həvəsi ilə" yaşayıb və qəfil ölümlə "mübarizəyə" çıxarlar. Bilmək lazımdır ki, Allah insana bu dünyada bir dəfə ömür verərək imtahana çəkər.

Quruyan ağacın dibinə su tökməklə köklərinin çürüməsinə gətirib çıxarar. Güclü külək əsdikcə qurumuş ağacı birdən-birə yerə çırpar. İnsan da belədir ana bətninə düşən andan torpaqdan yaranmış qidalarla (ana qanı ilə) bəhrələnər, doğular, böyüyər, ölər və yenidən torpağa qayıdar. Ölüm isə hər bir canlı üçün labüddür ki, əcəli çatanda tamamlanar. Ömür nərdivanının altmış beşinci pilləsini qalxanda qəlb gözü ilə bu dünyada çox şey görmüşəm. Allaha şükür olsun ki, bu yaşda mənim elmim, istedadım, yaddaşım və səliqə-sahmanım da qaydasındadır. Həyatımda kədərli günlərlə bərabər şən vaxtlarım da olmuşdur.

Allahın halal nemətlərindən daddıqca heç bir şeyə tamarzı qalmamışam. Sağlam ailə qayğısı ilə verilmiş ömürdə rahat yaşamışam. Təbiət həvəskarı olduğundan həyətyanı bağçada güllər əkib və hər növ meyvə ağacları becərmişəm. Ailədə övladlarımı təhsilli etmiş lazımi şərait yaratmış və qayğısına qalmışam. Lakin bütün bunlarla bərabər hər bir insanın taleyi Yaradanın ixtiyarındadır. Tale alın yazısı elə bir şeydir ki, hər kəs bu dünyada acılı-şirinli günlərini başa vurmalıdır.

İnsan bu dünyada çalışmalı mümkün qədər irəli baxmalı və özünü başqalarından fərqli bilməməlidir. Hər kəs ailəsini halallıqla dolandırmalı və heç kəsə də borclu qalmamalıdır. İnsan öz zəhməti ilə qismətinə şükür etməli və cəmiyyətdə yaxşı ad qazanmalıdır. (bax; "F.Bağırov, "Dünya həyatı" Bakı- 2013).

> *"Ey qafil aç gözünü bir bax halına, hərkəs gəldi burda düşdü əcəl əlinə."*

Həyatda ahıl kişilər taleyin hökmü ilə həyat yoldaşlarını itirdikdə bir çox çətinliklərlə qarşılaşmalı olur. Qadınlar qarıyıb tək qalanda isə, bir çox işlərə görə təklikdən darıxmalı olurlar. Övladlarının himayəsini üzərinə götürən ata, tək qaldıqda uşaqların tərbiyəsində hörmətdən düşməmək üçün sözü ilə əməli eyni olmalıdır. Dul adamın yenidən evlənməsi ailə-uşaqlarının dağılmasına gətirib çıxara bilər. Övladı olan dul kişi yalnız uşaqsız dul qadınla (uşaqlarının razılığı ilə) evlənərsə, onun ailə-uşaqları ağ gün görər.

Ahıl dul kişi cavan qızla və ya uşaqlı qadınla evlənərsə tezliklə günü qara olar. Qoca ər cavan xanımının ehtiyaclarını ödəmədiyi üçün saqqalını ələ verib yoldurmalıdır. Ahıl kişi cavan xanımının nazı ilə oynaya bilmədiyi üçün şübhəsiz ki, həmin arvad da özünə məşuqə axtarmalı olar. Bunun da nəticəsində həmin ailədə şərəfsizlik yaranacaqdır.

Ahıl kişinin cavan xanımından doğulan "cılız" uşaqları körpəlikdə atasının tabutunda "zınqırov kimi səslənər" və böyüyəndə isə vərəsə olub atasını lənətləyər. Cavanlıq "sultanlıqdırsa" qocalıq da, "quldarlıqdır" deyərlər. Quldar ahılların hökmləri yerinə yetməyəndə əlacsızlıqdan nökərçiliklə əvəz olunar.

Ağsaqqal sözü keçməyib ataya itaət edilməyən ailədə qoca ata hökm və istəklərini özü icra etməlidir. Qoca adamın ailədəki hökm və istək davranışları "bezikdirici" olar. Ailədə "hörmətdən düşmüş" qocalar səs-küyə mübtəla olmaqdansa Ahıllar Evində məskunlaşması daha yaxşıdır. Bəzən dövlət himayəsindəki ahıllar tündməcaz xasiyyətlərinə görə peşmançılıq hissləri keçirərlər. Valideynlərinin itaətində durmayan "uşaqlar" bilməlidir ki, gələcəkdə özləri də qocalanda uşaqları tərəfindən hörmətsiz qarşılanar.

Belə rəvayət edirlər ki; "Bir ailədə ana vaxtsız dünyadan köçdüyündən atanın da "beli bükülür". Tezliklə qoca atanın qayğıları günbəgün artır. Bədxasiyyət gəlinin təkidi ilə oğlu atasını səbətə qoyub çölə aparır ki, vəhşi heyvanlara yem olsun. Taqətdən düşmüş ata bütün bu işləri görüb və özünə təskinlik verir. Fərsiz oğul atasını içərisində gətirdiyi səbəti uca bir yerdə qoyub getmək istəyəndə, ətrafa baxan qoca uca səslə gülür. Atasının gülməyindən təəccüblənən oğlu ondan soruşur:

> *"Ata, sən bu halına görə niyə şad olub gülürsən?"*

Atası deyir:

> *"Oğul sən məni səbətə qoyub bura gətirdin ki, qurd-quşa yem olam və xanımınla rahat yaşayasan. Bil ki, cavanlığımda mən də sənin kimi arvad sözünə baxıb qoca atamı səbətdə bura gətirmişəm. Yəqin ki, qocalanda sənin də başına bu işləri öz oğlun gətirəcəkdir."*

Oğlan tutduğu əməlindən peşman olaraq atasını qucağında evlərinə gətirir və yuyundurараq təzə libas geydirir. Xanımını hədələyən oğlan, atasına ləyaqətli gəlin olmasını tələb edir."

Həzrəti Məhəmməd(s) Peyğəmbər buyurmuşdur ki;

> *"Sirkə balı pozduğu kimi, pis xasiyyət də yaxşı əməli pozar."*

Mən fiziki cəhətdən gücdən düşsəm də şükürlər olsun ki, əqli tərəfdən hələ gücüm çatır. Ailədə hər kəsin öz yeri olmalı oğulun, qızın, gəlinin nəvə və nəticənin. Uzun illər uşaq bağçasında işləmiş həyat yoldaşım təqaüdə çıxsa belə, hər gün zəmanənin gərginliyindən şikayət edər. Aqillər demişlər; "Zaman bir iti qılıncdır ki, pisləyəni kəsər." Allah da deyir ki;

> *"Zamanı (dövranı) günahkar bilib ona söyməyin çünki zamanı yaradan Allahdır."*

(bax; "F.Bağırov, "Dünya həyatı" Bakı- 2013).

Dövlət idarələrində işləyənləri iki yerə ayırmışlar. Nazirlik, komitə və baş idarə işçilərinə "dövlət qulluqçusu" statusu verildiyindən onların vəzifə maaşları ilə bərabər təqaüdləri də yuxarıdır. Dövlət məmurları sayılan təhsil, mədəniyyət, səhiyyə və başqa işçilərin əmək haqqı ilə təqaüdləri də aşağıdır. İşlədiyim Mədəniyyət üzrə Muxtar Respublika Elmi-Metodik Mərkəzdə vəzifə maaşları aşağı olduğundan sosial vəziyyət qənaətbəxş deyil. Qəzet və jurnallara yazdığım məqalələrə müəllif haqqı (qonarar) verilmədiyindən yazının heç kağızı ilə mürəkkəb pulu da ödənilmir.

Əvvəlki illərdə istədim dövlət qulluğunda işləyəm ki, təqaüdə çıxanda ehtiyacım ödənilsin. Lakin hara əl atdımsa arzularım boşa çıxdı. İndiki zamanda yaşlı mütəxəssisləri dövlət qulluğuna qoymurlar. Yalnız gənc mütəxəssis dövlət işində çalışmaq üçün xüsusi test imtahanı verməlidir.

Artıq dünyadakı ömrümün çoxu getmiş və azı qalmışdır. Hər keçən günümlə halallaşıb və qalmış günlərimə şükür edirəm. Yaxşı bilirəm ki, təzədən "buynuzlu qoç olub sürüyə qarışan" deyiləm. Həyatda yaxşı-pis yaşayıb və taleyin uğursuzluğuna heyflənməyə dəyməz. Çünki hər kəsə tale verən Allahdır Artıq ömür zirvəsində ikən keçmiş günlərimə kino lenti kimi fırlayıb həsrətlə baxıram.

Müqəddəs kitablara görə Allah günahları bağışlayandır. Lakin rəhmli Allah insanın günahlarını bağışlasa da kövrək qəlbimizi qıranların günahlarını bağışlayacaqmı? Əgər Allah zalımların günahlarını bağışlayarsa şübhəsiz ki, məzlum insanlar qiyamətdə onları bağışlamaz. Aqillər demişkən;

> *"Dünyada günah qazanmamaq üçün məzlumların kövrək qəlbini sındırmayın!"*

> *"Məgər insan elə güman edir ki, o, başlı-başına buraxılacaq ?!" (Qiyamət surəsi, 36)*

> *"Qocaya hörmət edən, özünə hörmət qazandırar."*
>
> (Atalar sözü)

Qocalıq çətin həyatdır

“Qadir Allah səni yaradan zaman,

Özünə “afərin” söyləmiş inan.”

İnsan ana bətnində yaranandan sonra müəyyən mərhələlər keçirərək, Allahın hikməti ilə əvvəl bir parça qan, sonra ət parçası və sonra isə anasının qanı ilə bəhrələnmiş çağaya çevrilir. Bütün bunlarda böyük Yaradanın möcüzəvi hikmətləri vardır ki, bu barədə Allah Qurani-Kərimin Ələq (96/1-2) surəsində belə deyir;

> *“(Ya Peyğəmbər) Yoxdan yaradan Rəbbinin adı ilə oxu! O, insanı laxtalanmış qandan yaratdı.”*

Allah insanı yaradaraq ona Öz ruhundan bəxş edir və bütün dünya həyatı haqqındakı gələcək (olacaq) qeyb xəbərlər, Allah dərgahındakı “Lövhi-məhfuz” da yazılaraq saxlanılır. Demək olar ki, insanın həyatı doğulandan ölən günədək bütün tale əməlləri həmin möcüzəvi lövhədə (kitabda) yazılmışdır. Quranın Hədid (57/22) surəsində yazılır;

> *“Yer üzündə baş verən və sizin öz başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, bir kitabda (lövhi-məhfuzda) yazılmamış olsun. Bu, Allah üçün çox asandır!”*

İnsan uşaq yaşlarında qayğıya möhtac olduğu kimi, böyüyəndən sonra ahıl yaşlarında da qayğıya ehtiyaclı qalır. Adam qocalanda sanki uşaq xasiyyətli olsa belə artıq ona verilmiş qədd-qamət əyilir gözəl cazibədar surəti çirkinləşir gücü azalır və hətta iki ayaq üzərində gəzə bilməyərək və əlinə əsa (söykənmə ağacı) da götürməli olur. Qocalığın iztirabını qocalardan başqa heç kəs bilməz.

“Saçların ağdır, oğlan, zirvəli dağdır oğlan,
Ağ köynəyini yuyaq, ürəyin sağdır, oğlan?”

Qocalıq çətin həyatdır belə ki, insan həyatda tamamilə acizləşir gücsüzləşir və sözü keçmədiyindən unudulur. Bəzən qoca adamlar istər kişi və istərsə də qadın (qarı) olsun, yaşadığı doğma ailə üzvləri arasında nəməhrəmə çevrilir. Hətta öz doğma ocağından sanki yad adam kimi qovulmuş və lazımsız insana çevrilir. Bəzi ailələrdə nankor oğullar zövcələrinin sözü ilə doğma ata-anasını evdən qovaraq və sakit həyat tərzi arzulayırlar.

Bütün bu kimi eybəcər hərəkətləri nəzərə alan keçmiş Sovetlər birliyi ölkələrində ayrı-ayrı şəhər və qəsəbələrdə "Ahıllar Evi" deyilən internatlar (müxtəlif millətdən olan toplu) yaradılmış və oradakı ahıllara dövlət qayğısı yaradılmışdır. Muxtar respublika ərazisində belə "ev" Şahbuz şəhərində illərdən bəri fəaliyyət göstərir. (bax; "Naxçıvan M R-in Konstitusiyası", Bakı- 1998).

Azərbaycan ölkəsi müstəqilliyə çıxandan sonra ahıllara qayğı işlərini artırmaq məqsədi ilə ildə bir dəfə "Ahıllar günü"ndə mədəni kütləvi tədbirlər keçirməklə qocaları sevindirirlər. Hz.Məhəmməd (s) Peyğəmbərin deyimlərinin birində bildirir ki;

> *"Böyük günahlardan biri də, valideynə ağ olmaqdır. Hər kəs valideynini incidərsə, Allah onun üzünə Cənnət qapılarını bağlayar."*

Azərbaycan Respublikasının qanunvericiliyinə görə xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalınır. Yardıma möhtac olanlara kömək etmək ilk növbədə onların ailə üzvlərinin borcudur. (bax; "Azərb. Resp. Konstitusiyası", maddə 16, 38 Bakı- 2004).

Azərbaycan Respublikasının qanunvericiliyinə görə vətəndaşlar qocalığa görə (kişilər 63 və qadınlar 60) yaş həddi tamam olduqdan sonra (pensiya) təqaüdə çıxırlar. Təqaüdləri yerlərdəki Dövlət Sosial Müdafiə Fondları tərəfindən ayda bir dəfə olmaqla hər bir şəxsin iş stajına görə və axırıncı üç illik aldığı məvacibinə görə hesablanılır.

BMT-nin Baş Assambleyasının 1992-ci ildə qəbul etdiyi qətnaməyə uyğun olaraq, hər il 1- oktyabr Beynəlxalq Ahıllar günü kimi qeyd olunur. 2001-ci il iyun ayının 22-də qəbul edilmiş "Ahıllara sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, 70 yaşına çatmış hər bir vətəndaş ahıl sayılır. Naxçıvan MR Ali Məclisi sədrinin 2006-cı il 30 may tarixli sərəncamı ilə təsdiq edilmiş

> *"Naxçıvan Muxtar Respublikasında ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı"*

həyata keçirilir. (bax; "Şərq qapısı" qəzeti, 2011-ci il № 184).

2008-ci ildə qocalığa görə pensiyaya çıxmaq üçün Naxçıvan şəhər SMF şöbəsinə müraciət etdim. Orada aşağıdakı sənədləri hazırlamağı bildirdilər; Əmək kitabçasının surəti, yaşayış yerindən, hərbi komissarlıqdan, iş yerindən və üç illik axırıncı əmək haqqı haqqında arayış, iki ədəd foto şəkil, kimlik kartının, təhsil haqqında sənədin və Dövlət Sosial Sığorta Şəhadətnaməsinin surəti.

Bütün bu sənədləri səliqə ilə hazırlayıb və Dövlət Natoriatında təsdiqlədərək və Sosial Müdafiə Şöbəsinə təhvil verdim. Bir neçə gündən sonra telefonla məni şöbəyə çağırdılar. Orada Əliyev Amin adlı hesablayıcı məmurla oturub və mənə düşən pensiya məbləğini hesabladı. O, mənə bildirdi ki, mənə düşən aylıq pensiya məbləği 80 manat miqdarındadır ki, bunun da 5 manatı pedaqoji işə görədir.

Beləliklə həmin məbləği ayda bir dəfə mənə verilmiş bank kartı ilə şəhərdəki avtomat bank qurğularından alıb və gündəlik həyatımı təmin etməyə başladım. Lakin məsəl var deyərlər,

> *"sən saydığını say, gör dövran (zaman) nə edir."*

Bazardakı gündəlik ehtiyac qida mallarının qiymətləri günbəgün qalxdığından ümumi yaşayış tərzi pisləşdi. Daha sonra elektrik enerjisi ilə qazın qiymət normaları da qalxdı. Bu isə aşağı təminatlı pensiyaçıların narazılığına səbəb oldu.

17 may 2011-ci il tarixdə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Qanun qəbul olundu. Həmin qanuna görə əmək pensiyaları iş stajına görə hər il üçün 1,94 manat məbləğində sığorta hissəsi müəyyən edilərək və yenidən hesablandı. Hər bir şəxsin pensiya məbləğinin minimum məbləğdən artması, onun iş stajına görədir. Bu isə ölkədə pensiyaların məbləğinin artımı və minimum məbləğlə pensiya təyinatının aradan qalxmasına gətirib çıxardı.

"Əgər siz həqiqətən Allaha iman gətirsəniz, əgər Ona təslim olmuş kimsəsiniz, artıq sadəcə Ona təvəkkül edin." (Yunus surəsi, 84)

“Sizi gecələr yuxuya verən, gündüz isə nə etdiyinizi bilən Odur. Sonra O sizi gündüz oyandırır ki, müəyyən olunmuş vaxt (əcəl) gəlib çatsın. Sonra Onun hüzuruna qayıdacaqsınız və sonra da O sizin etdiyiniz əməllər barəsində xəbər verəcəkdir.”
(Ənam surəsi, 60)

> *“İnsanın qiyməti onun etdiyi əməlləri ilə ölçülər.”*
>
> **(Hz. Əli (ə))**

Əsrin tarixini xatırladıqda...

“Əgər yer üzərində fəlakətdən yaşlı insanlar ölüb yalnız kiçik uşaqlar qalarsa, onda insanlıq tarixi pozular və yeni nəsil tarixi mədəniyyətini itirə bilər...” (A. Peron)

Doğulub yaşadığım və vətəndaşı olduğum Azərbaycan dövlətinin qurulması siyasi tarixinə nəzər saldıqda görərik ki, istər dövlət və istərsə də xalqımız son 20-ci əsrdə çətinliklərlə qarşılaşmışdır. Belə ki, 1905-ci ildə çar Rusiyasında azadlıq uğrunda qiyamlar baş vermiş. Dövlət qurumunda Azərbaycanı təmsil edən 35 üzv Dövlət Dumasına üzv seçilmişdir. Azərbaycanda yaradılmış “Hümmət” azadlıq partiyası ləğv edilərək və 1911-ci ildən onun yerində “Müsavat” partiyası yaradılır.

1913-cü ildən “Müsavat” partiyasına Məmmədəmin Rəsulzadə (1884-1955) rəhbərlik etməyə başlayır. 1917-ci il oktyabrın 7-də Rusiyada Çar hökumətinə qarşı “bolşevik” partiyası gücləndiyindən Vladimir Leninin (1870-1924) rəhbərliyi ilə çar hökuməti yıxıldı. Bolşeviklər fəhlə və kəndliləri ələ almaq üçün, onlara azadlıq və torpaq mülkiyyəti verilməsi haqqında yalan vədlər deyirlər. Beləliklə bolşevik hakimiyyəti nəinki Rusiyada hətta Qafqazda da güclənməyə başlayır.

1918-ci ildə M.Rəsulzadənin təklifi ilə Tiflisdə yaradılmış (28 may 1918) Azərbaycan Xalq Cümhuriyyəti, tezliklə (16 iyun 1918) qədim Gəncə şəhərinə köçürülür. 1918-ci il 30 may tarixində Azərbaycan Milli Şurası Fətəlixan Xoyskinin (1875-1920) başçılığı ilə milli dövlət yaradılır. Elə həmin ilin dekabr ayının 7-də yenicə qurulmuş Azərbaycan hökuməti Parlamentində üçrəngli Dövlət bayrağı qaldırılır. Parlamentdə M.Rəsulzadənin söylədiyi; “Bir dəfə yüksələn bayraq bir daha enməz” şüarına çevrildi.

Azərbaycanın yeraltı təbii sərvətlərindən olan neft sənayesinə xarici dövlətlər göz dikirlər. Bolşevik Rusiyası da Bakı neftini tutmaq üçün Bakı fəhlələri arasında siyasi təbliğat işlərini gücləndirirlər. Həmin ərəfədə (17 noyabr 1918) bir tərəfdən İrandan gələn general Tomsonun İngilis hərbi donanması, bir tərəfdən Tiflis menşeviklərinin “Sentrokaspi” (1 avqust 1918) diktaturası, digər tərəfdən də Bakı bolşevikləri neft sənayesini ələ keçirmək istəyirlər.

1918-ci ilin 17 sentyabr tarixində AXC hökuməti Gəncədən Bakıya köçəndən sonra Türkiyədən kömək istəyir. Türk dövlətinin rəhbəri Atatürk Mustafa Kamalın (1881-1938) göstərişi ilə general Qarabəkir Paşa Naxçıvana və general Nuri Paşanın qoşun dəstəsi isə Bakıya gəlirlər. Lakin 1918-ci ilin oktyabrın 30-da İngiltərə ilə imzalanmış Mudros müqaviləsinə görə, Türk qoşunları Azərbaycanı tərk etməli olur.

Həmin mənfur müqavilənin 11-ci şərtinə görə Azərbaycan İngiltərənin nüfuzunu qazanır. Bununla da Azərbaycan ərazilərində olan əsas yollar, liman və yeraltı sərvətlər, İngilislərin ixtiyarına keçir. Bakı şəhərində bolşeviklər Rusiyanın hərbi köməyi ilə (11-ci zirehli qatarla gəlmiş qırmızı ordu) gücləndiyindən, 1920-ci ilin 27 aprel tarixində AXC hökuməti ləğv olundu.

Bakıda Sovet hökumətinin qələbəsi nəticəsində İngilislərin Türkiyə ilə bağladığı müqavilə qüvvədən düşür. Tezliklə AXC Parlamentinin rəhbər işçiləri bolşeviklər tərəfindən həbs olunduğundan, İngilislər də Bakını tərk edirlər. (Tezliklə M.Rəsulzadə xaricə Finlandiya qaçırılır).

1918-20-ci illərdə Naxçıvanda Araz (türk) Respublikası yaradılır. Məqsəd bu olur ki, erməni quldur dəstələri Naxçıvan ərazilərini dövlət səviyyəsində tanıyaraq basqınçılıq etməsinlər. Digər tərəfdən də Bakıda yaradılmış yeni AXC Parlamenti Naxçıvanın ərazi bütövlüyə siyasi qiymət verərək Muxtariyyət versin. Lakin Naxçıvan diyarı paytaxtdan nisbətən uzaq olduğundan və Bakıdakı bolşevik narahatçılığı və s. səbəblərə görə Naxçıvan xalqı, Türkiyə ilə əlaqə yaratmaq istəmiş.

Naxçıvanda olan yeraltı və yerüstü təbii sərvətlərə görə və xüsusən də ərazinin yerləşdiyi strateji mövqeyi əlverişli olduğu üçün xarici kapitalist ölkələr tərəfindən tutmaq istəyirlər. Elə buna görə də 1919-cu ilin oktyabrın 24-də Naxçıvana ABŞ-ın komandanı polkovnik V.Hasgelin hərbiçiləri gələrək və şəhərin "Təbriz məhəlləsi"ndə ABŞ General-qubernatorluğunu yaradırlar... (Tezliklə çağırılmamış qonaqlar ərzaq qıtlığı üzündən Naxçıvanı tərk etməli olur).

1920-ci ilin 28 aprel tarixindən Bakıda yeni hökumət- Azərbaycan Sovet hakimiyyəti elan edilərək və hökumət səlahiyyətləri İnqilab Komitəsi Sədri Nəriman Nəcəf oğlu Nərimanova (1870-1925) verilir. (N.Nərimanov həmçinin Bakı Xalq Komissarları Sovetinin üzvü kimi qəza kəndli deputatlarının 1-ci Qurultayının təşkilatçısı da olmuşdur).

1921-ci ilin yayında Rus bolşevik əsgərləri Naxçıvana gələndə şəhərin kasıbları yerli bolşeviklərlə bərabər, onları gül-çiçəklə qarşılayır. Əvvəldən ailəsini Urmiyaya göndərən Naxçıvan xanı Cəfərqulu Naxçıvanski (1881-1939), özü də faytonuna minərək və Şahtaxtı körpüsündən İrana keçir. Həmin il Naxçıvanda Rus bolşevikləri tərəfindən Xalq hakimiyyəti yaradıldı. (1924-cü ilin fevralın 9-dan Naxçıvan vilayəti, Azərbaycan SSR-in tərkibində Naxçıvan MSSR olsa belə, öz sözünü deyə bilmədiyindən Zəngəzuru itirərək bütöv Azərbaycan ərazisindən ayrı düşdü)...

Azərbaycan SSR Parlamenti 1920-ci ildə İnqilab Komitəsi (AİK), 1920-38-ci illərdə Mərkəzi İcraiyyə Komitəsi (MİK), və 1938-91-ci illərdə Ali Sovet adı ilə fəaliyyət göstərmiş. Azərbaycan SSR İnqilab Komitəsi, 1920-1946-cı ilə kimi Xalq Komissarları Soveti, (1946-cı ildən Nazirlər Soveti) Sədrləri aşağıdakı tarixdə vəzifədə olmuşlar; Nəriman Nəcəf oğlu Nərimanov(1870-1925) 1920-ci ildə. Qəzənfər Mahmud oğlu Musabəyov(1888-1938) 1922-1928-ci illər. Dadaş Xoca oğlu Bünyatzadə(1888-1938) 1928-1930-cu illər. Mircəfər Abbas oğlu Bağırov(1895-1956) 1930-1933-cü illər. Hüseyn Sərdar oğlu Rəhimov (1845-1938) 1933-1937-ci illər.

Azərbaycan SSR Nazirlər Soveti (1946-cı ildən) Sədrləri aşağıdakı tarixdə vəzifədə olmuşlar; Teymur İmamqulu oğlu Quliyev(1896-1954) 1937-1953-cü illər. Sadıx Qaziyar oğlu Rəhimov(1914-1975) 1954-1958-ci illər. Vəli Yusif oğlu Axundov(1916-1974) 1958-1959-cu illər. Məmməd Adil oğlu İsgəndərov(1915-1985) 1959-1961-ci illər. Ənvər Nəzər oğlu Əlixanov(1917-1992) 1961-1970-ci illər. Əli İsmayıl oğlu İbrahimov(1913-1981) 1970-1981-ci illər. Həsən Nemət oğlu Seyidov (1932-2004) 1981-1988-ci illər. Ayaz Niyazi oğlu Mütəllibov(1938-201.) 1988-1990-cı illər. Həsən Əziz oğlu Həsənov(1940-201.) 1990-1991-ci illər.

Azərbaycan SSR MİK-in Sədrləri aşağıdakı tarixdə vəzifədə olmuşlar; Səmədağa Ağamalı oğlu Əliyev(1867-1930) 1920-1929-cu illər. Qəzənfər Mahmud oğlu Musabəyov(1888-1938) 1929-1931-ci illər. Sultanməcid Məcid oğlu Əfəndiyev(1887-1938) 1932-1937-ci illər. Mirbəşir Fəttah oğlu Qasımov(1879-1949) 1937-1938-ci illər.

Azərbaycan SSR Ali Soveti Sədrləri aşağıdakı tarixdə vəzifədə olmuşlar; Mirteymur Mirələkbər oğlu Yaqubov(1904-1948) 1932-1948-ci illər. Nəzər Heydər oğlu Heydərov(1896-1968) 1949-1954-cu illər. Mirzə Əjdər oğlu İbrahimov(1911-1993) 1954-1958-ci illər. İlyas Kərim oğlu Abdullayev(1913-1959) 1958-1959-cu illər. Səftər Məmməd oğlu Cəfərov(1900-1961) 1959-1961-ci illər. Məmməd Əbdül oğlu İsgəndərov(1915-1985) 1961-1969-cu illər. Qurban Əli oğlu Xəlilov(1906-1985) 1969-1985-ci illər. Süleyman Bayram oğlu Tatlıyev(1925-1989) 1985-1989-cu illər. Elmira Mikayıl qızı Qafarova (1934-1994) 1989-1991-ci illər.

Azərbaycan KP MK-ın birinci Katibləri aşağıdakı tarixdə vəzifədə olmuşlar; Mirzə Davud Bağır oğlu Hüseynov (1894-1938) 1920-ci il fevral. Anastas İvanoviç Mikoyan (1895-1978) 1920-ci il iyun-oktyabr. Sergey Mironoviç Kirov (1886-1934) 1921-1924-cü illər. Ruhulla Əli oğlu Axundov (1897-1938) 1925-1926-cı illər. Levon İsayeviç Mirzoyan (1894-1939) 1926-1929-cu illər Nikolay Gikalo (1869-1936) 1929-1930-cu illər. Vladimier Poloniskiy (1866-1933) 1930-1933-cü illər. Ruben Yanoviç Rubenov (1866-1933) 1933-cü il. Mircəfər Abbas oğlu Bağırov (1895-1956) 1933-1953-cü illər. Mir Teymur Yaqubov (1884-1956) 1953-1954-cü illər. İman Daşdəmir oğlu Mustafayev (1910-1959) 1954-1959-cu illər. Vəli Yusif oğlu Axundov (1916-1974) 1959-1969-cu illər. Heydər Əlirza oğlu Əliyev (1923-2003) 1969-1982-ci illər. Kamran Məmməd oğlu Bağırov (1933-1997) 1982-1988-ci illər. Əbdürrəhman Xəlil oğlu Vəzirov (1930-201.) 1988-1990-cı illər. Ayaz Niyazi oğlu Mütəllibov (1938-201.) 1990-1991-ci illər.

1917-ci ildən Sovet dövlətinin qurucusu olan V.İ.Lenin (1870-1924) 1924-cü il yanvarın 21-də qəsd nəticəsində öldürüldükdən sonra, rəhbər vəzifəyə gürcü bolşevik İ.V.Stalin (1879-1953) gəlir. Sovet dövlətinin yeni rəhbəri 30-cu illərdə ayrı-ayrı torpaq sahələrini kollektivləşmə siyasəti ilə sahibkarların əlindən zor ilə alırlar. Daha sonra imkanlı insanları və xüsusən də ziyalıları tutdurub Sibirə sürgünə göndərməklə, "kulak" adı ilə onları məhv etmə siyasətini həyata keçirir.

Tezliklə İkinci Dünya müharibəsinə başlayan Alman imperialistləri, başda Adolf Hitler(1889-1945) olmaqla Sovet İttifaqı ərazilərinə hücuma keçir. 1945-ci ilin 9 may günü müharibə Sovet İttifaqının qələbəsi ilə başa çatsa da, şərq cəbhəsində hələ ki, imperialist Yaponiya Çinin bir hissəsini və Sovet dövlətinin Sibir ərazilərini ələ keçirmək niyyətində olur. Lakin ABŞ-ın hava hücumu nəticəsində Yaponiyanın iki şəhərinə atom bombası salınmaqla, yaponlar geri çəkilməyə məcbur olurlar.

Mənim həyatım o qədər də firavan olmamışdır. Belə ki, uşaqlıq illərində ikinci Dünya müharibəsindən sonra ilk çətinliklərlə qarşılaşmalı oldum. Ailəmizdə istər lazımi qədər ərzaq və istərsə də ev əşyaları, habelə geyim paltarları olmadığından orta səviyyədən də aşağı formada yaşamışam. Onu deyim ki, belə həyat tərzi məhəllə uşaqlarının əksəriyyətində eyni idi. Məhəlləmizdəki keçmiş Vəzirov soyadlı bəylərdən birinin mülk yerində yaradılmış 5 №-li məktəb, 1947-ci dərs ilindən icbari yeddiillik təhsilə keçirilir.

1952-ci ildən sonra "bolşevik" sözü götürülərək və "kommunist" sözü ilə əvəz olunur. 1953-cü ildə İ.Stalin öldükdən sonra istər İttifaq və istərsə də ölkə səviyyəsində rəhbər dəyişikliyi oldu. Mərkəzi Komitəyə rəhbər vəzifəyə İ.M.Malenkov(1898-1956) keçsə də, tezliklə onun yerinə 1955-ci ildən N.S.Xruşşov (1894-1971) keçir.

1959-cu illərdə İttifaq səviyyəsində əvvəl rəhbər kadrları dəyişildi, sonra pasport və kommunist partiya biletləri, habelə komsomol və pioner təşkilatlarının nizamnaməsi və sonra isə dövlət pul vahidləri dəyişildi. Məktəblərin dərslik və proqramları dəyişilərək icbari yeddiillik məktəblər səkkizillik və on illik məktəblər isə on bir illik təhsilə keçirildi. Orta məktəblərdə əmək təlimi dərsləri artırılaraq və proqrama ictimai əmək dərsləri əlavə edildi. Yuxarı sinif şagirdləri yay tətili günlərinin bir ayını məcburi surətdə kolxoz tarlasında ictimai əməklə məşğul olmaq üçün istehsalat təlimi deyilən tədris proqramı yaradıldı. (Oxuduğum 4 №-li məktəbin 10-cu sinif şagirdləri üstüaçıq yük maşında Qaraçuq kənd kolxoz tarlasına gedib işləməli olurdu).

Sovet dövlət rəhbəri N.Xruşşov, siyasi işlərdə kiçik dövlətlərə yardım edərək, həmin dövlət qurumlarını da sosialist sisteminə qatmaq siyasətinə əl atdı. Həmin illərdə Amerika qitəsində olan Əvvəlcə Kuba dövlətinə, sonra cənubi Amerikadakı Çili və digər dövlətlərə maddi və hərbi yardımlar edilməklə, ölkəmizdə birdən-birə ərzaq (xüsusilə çörək məmulatları) qıtlığı yarandı.

Tezliklə İttifaq rəhbərlərinin bu işdə siyasi səhvlərə yol verməsi nəticəsində, rəhbər işçi kadrlar yeniləri ilə dəyişildi. Yeni seçilmiş Sovet rəhbəri L.İ.Brejnev(1906-1982), rəhbərlikdə əvvəlki siyasəti işlətməklə kiçik dövlətlərə hərbi və ərzaq yardımı ilə onlarda sosialist sistemi yaradılmasını istəyirdi. Tez bir vaxt ərzində Avropadakı Çex və Slovakiyada, Bolqariya və Polşada, yaranmış anti dövlət rejiminə qarşı Sovet rəhbərliyinin köməyi oldu.

Bundan sonra Asiya qitəsindəki Vyetnamda, Laos və Birmada, habelə Hindistanla Pakistan arasındakı ərazi çəkişmələrinə maddi və hərbi köməkliklər göstərildi. Tez bir zamanda Əfqanıstanda sosialist sistemi yaratmaq məqsədi ilə xeyli miqdarda ərzaq və hərbi sursatla əsgərlərdən ibarət "könüllü" ordu göndərildi.

Səksəninci illərdə bir-birinin ardınca İttifaq səviyyəsində rəhbər işçilər dəyişilməyə başladı. L.Brejnev vəfat etdikdən sonra onun yerinə Y.Andropv(1914-1984) gəlsə də o da vəfat etdi. İki ildən sonra isə Mərkəzi Komitənin Baş katibi vəzifəsinə fiziki cəhətdən xəstə olan N.Çernenko (1916-1985) keçdi. Yeni İttifaq rəhbərinin əsas ixtisası pedaqoq olduğundan, dövlət səviyyəsində məktəblərdə çalışan müəllimlərə dövlət səviyyəsində diqqət göstərilərək və əmək haqqı artırıldı. Bununla belə məktəblərə diqqət və qayğı artırılaraq və onların bazaları genişləndirildi.

Sonuncu Sovet İttifaqının rəhbəri N.Qorbaçovun(1931-201.) səriştəsizliyindən İttifaq səviyyəsində vətəndaşların maddi yaşayış səviyyəsi pisləşməyə başladı. İstər əvvəlki rəhbərliklərin dövründə və istərsə də son rəhbərliyin peşəkar siyasəti olmadığından, maddi rifah səviyyəsi aşağa düşdü. Tezliklə İkinci Dünya müharibəsindən sonra Qərbi Almaniyada yerləşən Sovet hərbi qoşun hissələri geri çağırılmağa başlandı. Hərbi işçilər arasında işsizlik və narazıçılıq artmağına səbəb yarandı. N.Qorbaçov insanları yenidənqurma şüarı ilə aldadaraq və bir-birinə kömək olan 15 müttəfiq Respublikanı ziddiyyət çərçivəsinə saldı.

"Yeri bir yalan dünya, sənə qonan köçər bir gün,
İnsan bir əkinə bənzər, səni əkən biçər bir gün."

Tezliklə İttifaq daxilindəki müttəfiq respublikalar ərazisində milli ədavət alovları şölələndi. Nəticədə Pribaltika Respublikalarında, Orta Asiya Respublikalarında, Moskvada, Rusiya Federasiyasının Şimali Qafqaz bölgələrində və nəhayət Qafqazdakı Gürcüstan, Ermənistan və Azərbaycanda milli qırğınlar törədildi. Bunların ən güclü zərbəsi isə Azərbaycan xalqına dəydi. Belə ki, Zəngəzur və Naxçıvan MR ərazilərinə erməni quldur dəstələri basqın edərək və günahsız insanları yurd yerlərindən qovdular.

> *"Bağışlanılmış düşmən heç vaxt dost ola bilməz." (Əlişir Nəvai).*

1990-cı ilin yanvarında Rusiyanın xüsusi yığma "Alfa" dəstəsi qəflətən Bakı şəhərində qırğınlar törətdi. Dağlıq Qarabağ və bir neçə rayon əraziləri, Rus hərbi hissələri yardımı ilə erməni quldurlarının basqını nəticəsində günahsız vətəndaşlarımız öldürüldü. Bütün bu və digər haqsızlıqları görən Rus Sovet rəhbərləri biganəlik etdilər. Nəticədə Azərbaycanda insanların yaşayış səviyyəsi pisləşdi və Sovet sosialist rejiminə qarşı ümumxalq nifrəti yarandı...

"And olsun Əsr vaxtına! Həqiqətən, insan ziyan içərisindədir..." (Əsr surəsi, 1-3)

> *"Ata-ananıza ehtiram göstərin ki, övladlarınız da, sizə hörmət etsinlər."*
>
> **(Hz. Məhəmməd (s) peyğəmbər)**

Ömrün “payız” fəsli

“Əfsus ki, bəxtim gecə gəldi, gecə getdi,

Heç bilmədim, ömrüm necə gəldi, necə getdi.”

Dünyada hər bir şeyin əvvəli olduğu kimi sonu da olmalıdır. Mənim də ömür səhifələrimin acılı şirini əvvəli olmuş və ağrılı-sayalı sonu çatmaqdadır. Bütün bunları hər gün hər an qəlbimin bəsirət gözü ilə görüb və ruhumun ehtirasları ilə anıram. Ömrün payız fəsli odur ki, isti ocaq başında olanda elə bil titrəyib üşüyürsən. Bu barədə şair belə demişdir;

> “Yaz ayları çağlayanmı selmisən,
> Bu dünyanı oyuncaqmı bilmisən?
> Həyat səni güldürəndə gülübsən,
> Hünərin var ağlayanda gül görüm.”
>
> (Bəxtiyar Vahabzadə)

2005-ci ilin payız fəslində birdən-birə havalar soyuduğundan xəstələnib yatağa düşdüm. Mənim xəstəliyim günbəgün getdikcə güclənməkdə idi. Bir anlığa 1973-cü ilin soyuq payız günlərini xatırladım. Yadımdadır ki, həmin il soyuqlar düşəndə rəhmətlik atam da isti ocaq başında üşüyə-üşüyə ömrünü bizə bağışladı.

> “Bu dünyanın qapısı yox açasan,
> Düz yolu yox baş götürüb qaçasan.”
>
> (Adil Qasım)

Hz.Məhəmməd (s) Peyğəmbər hədislərinin birində belə buyurmuşdur:

> *“Ölüm gəlmədən öncə bu dünyada nə etdiyinizi bilin.”*

Son vaxtlar yuxularımda ölmüş qohumlarımla görüşərək onlarla aşkarlıqla danışıb söhbət edir və keçmişimlə halallaşırdım. Lazım olan dava-dərmanlarla müalicə olunsam da, həyatın haqsızlıqlarına dözməyərək xəstəliyim durmadan ağırlaşırdı. Sanki şair demişkən qaranlıq bir bucaq axtarırdın;

> “İstəyə gənclikdə mümkündür çatmaq,
> Qocalıq gəldimi, axtar bir bucaq.”
>
> (Nizami Gəncəvi)

2006-cı “İt ili”nin ilk günlərini arxada qoyub və ömür səhifələrimin altmışıncı pilləsinə qalxmaq ümidi ilə yaşayırdım. Nəvələrimə öyrətməyə başladığım Quran əlifbasını yarımçıq qoymaq məcburiyyətində idim. Həyat yoldaşımın əsəbləri gərginləşdiyi üçün, mənə qarşı acı sözlər deməklə sanki keçmiş günlərimizi ittiham edirdi. Uzun illər onun bağçada körpələrin tərbiyəsi ilə məşğul olması nəticəsində əsəbləri gərilmişdir. (Elə buna görə də, müəllim kadrları pedaqoji işin çətin olmasından başqa sahələrə üz tutmalı olurlar)...

Səbir edərək həyat yoldaşımın ittihamları qarşısında “günahkar kimi” susmağı üstün tuturdum. Hərdən bir Bənövşə bacım da bizə gələndə, öz taleyinin uğursuzluqlarını xatırladıb və sosial çətinlikdən gileylənirdi. Gəlinlər evlərində məişət işləri ilə başların qatar və uşaqlarının tərbiyəsi ilə məşğul olardı.

Həyətimizin təsərrüfat işləri mənə qaldığından, xəstəliyimlə əlaqədar yarıtmaz vəziyyətə düşmüşdü. Nəvələrim hər gün yanıma gələr və uşaq şıltaqlığı ilə xəstə ruhumu göylərə pərvazlandırardı. Əvvəllər mütaliə ilə məşğul olsam da, birdən-birə həvəsdən düşüb və dünya həyatının mənasız xəyallarına qapanmışdım.

> “Ömür karvanının sonudur daha,
> Atımı dördnala çapa bilmirəm,
> Ömrüm əriyibdi quzey qarı tək,
> Ötən cavanlığı tapa bilmirəm.”
>
> (Həsənəli Eyvazlı)

Artıq bir neçə gün idi ki, oğlum Hafiz tikdirdiyi təzə evlərinə köçmüşdür. Oğlumun maddi çətinliyini hiss etsəm də, ona kömək göstərməkdə aciz idim. Bütün bunlar zamanın gərdişi ilə kasıb taleyimə bağlanmışdır. Kiçik oğlumun zəka və qabiliyyəti qardaşı Musadan fərqləndiyindən qayğıkeşliyi ilə ailəmizdə seçilirdi.

Mən həmişə həyatımda ailə qurandan sonra, dinc və firavan yaşamağı arzulamışam. Evlənəndən sonra qohum-əqrəbalar tərəfindən heç vaxt qayğı və nəvaziş görməmişəm. Hz.Məhəmməd(s) Peyğəmbərin söylədiyi kəlamlardan biri belədir;

> *"Qohumluğun nə verdiyini böyüklərinizdən öyrənin, qohumluq yaxın adamlar arasında sevgi, varidat və uzun ömür deməkdir."*

Bir başqa hədisdə isə belə buyurmuşdur;

> *"Ən savab iş qohumlara mərhəmət göstərmək, ən şər əməl isə qohumluq tellərini qırmaqdır."*

(bax; "101 hədis" (Hz.Məhəmməd (s) peyğəmbərin söylədikləri), Bakı- 1990).

Şair bu barədə belə demişdir;

"Xudpəsənd olmasan, xalq səni sevər,
Təvazökar olan daim yüksələr."

(Əfzələddin Xaqani)

Həyatımda həmişə qohumlara qarşı xeyirxah və istiqanlı olub onlara məhəbbət və ləyaqətimi göstərməyə çalışmışam. Əqrəbalarımın mənim xoşbəxt ailə həyatıma həsəd aparmalarını yalnız uşaqların kiçik (sünnət) toyundan sonra bilmişəm. Şükür edirəm ki, heç kəsə möhtac olmadan xoşbəxt ailə qurub və Allah yanında üzüağ olmuşam. Həyatımda Allahın verdiyi ömrə möhtac olub, yaxşı-yaman dövran sürərək və kasıb ailəmlə fəxr etmişəm. Dünya həyatında bütün bunlardan qiymətli xəzinə nə ola bilər?

Həftənin əziz günlərində Quran oxuyub valideynlərimin ruhlarına Allahdan rəhmət diləyərək ibadət və itaətimlə günahlarının bağışlanmasını istəmişəm. Allaha dua edib, uşaqlarımın (nəvələrimin) sağlam böyüməsi, həyatda istəklərinə çatması və məni yada salmalarını arzulamışam. Şübhəsiz ki, axirətdə hər kəs öz əməlinə görə sorğuya çəkiləcəkdir.

> *"Dünyada üç vaxt insan üçün çox çətindir ki, onlar ana bətnindən doğulanda, öləndə və yenidən diriləndə."*

(İbn Kəsir, "Peyğəmbərlərin həyatı", I cild, Bakı- 2011).

Allaha dua edirəm ki, əməl dəftəri sağ əlimizə verilənlərdən olaq. Allahdan övlad və nəvələrimin həyatda sağlam böyüməsi, firavanlığı və uğurlu taleyini istəyirəm. Siz də həmişə Allaha güvənin və istək və arzularınızı yalnız Ondan istəyin. Quranın Loğman (31/22) surəsində deyilir;

> *"Kim yaxşı əməl sahibi olub özünü Allaha təslim edərsə, o artıq ən möhkəm ipdən yapışmış olur. Bütün işlərin axırı Allaha gəlib çıxacaqdır !"*

Hz.Məhəmməd (s) Peyğəmbər buyurmuşdur ki;

> *"Dünya həyatı iki gündür; bir günü sevinc, bir günü də kədər."*

Hər kəs dünyanı bu cür tanımalıdır. Dünyanı bu cür tanımayanlar və buna görə özlərini tanımayanlar tez yıxılar və tez də aradan gedər. Dünya həyatında düz yol seçin, təriqətlərə uymayın, müxtəlif partiya üzvü kimi siyasətlə məşğul olmayın, yalançı və riyakarlıqdan uzaq olun və həmişə Haqqın tərəfdarı olmağa çalışın. Allahı, valideyni və Vətəni sevin. Allahdan başqa heç kəsin qarşısında əyilməyin. İslam təlimlərini öyrənin, tək Allahın varlığına və sonuncu Peyğəmbərə (s) şəhadət gətirin.

Bir-birinizlə məhəbbətli olun, nadanlıq etməyin, nahaq işlərdən yapışmayın. Qonşularla, dostlarınızla səmimi olun ahılları ziyarət edin və həyatınızda İslam mənəviyyatından uzaqlaşmayın. Qərbi Avropa mədəniyyətinə uymayın, həyalı və ismətli olun elmlərdən möhkəm yapışın. Çünki elm bu dünyada varidatdan daha qiymətli və daha etibarlıdır. İnsan dünya həyatında elm, sənət, mərifət və ədəbi ilə ucala bilər.

İbrət almaq üçün, həyata qəlbinizin bəsirət gözü ilə baxın. Hz.Məhəmməd (s) Peyğəmbər hədislərinin birində belə buyurmuşdur:

> *"Gözəl əxlaqı olan və adamlarla xoş rəftar edən elmli şəxs insanların ən kamilidir."*

Allahın Rəsulu (s) yenə belə demişdir ki;

> *"Allahın nəzərində ən yaxşı dost öz dostuna sadiq qalan, ən yaxşı qonşu isə öz qonşusu ilə yaxşı rəftar edəndir."*

(bax, "101 hədis" (Həzrəti Məhəmməd (s) Peyğəmbərin söylədikləri), Bakı- 1990).

Həyatınızda heç vaxt təkəbbürlü olub və heç kəsə də həsəd aparmayın. Hz.Məhəmməd (s) Peyğəmbər;

> *"Qəlbində zərrə qədər təkəbbürü olan şəxs cənnətə girə bilməz"*

demişdir. Ağacı içərisindən qurd yediyi kimi həsəd də insanın qəlbini sıxar. Allahın Rəsulu (s) yenə belə buyurmuşdur;

> *"Ey Allahın bəndələri bir-birinizə nifrət bəsləməyin paxıllıq etməyin bir-birinizə arxa çevirməyin qardaş olun..."*

(bax, "101 hədis" (Hz.Məhəmməd (s) Peyğəmbərin söylədikləri), Bakı- 1990).

Böyük Fiqh alimi İbn Mace "Dua" (11) kitabında yazmışdır;

> *"Üç dua vardır ki, bunlar Allah tərəfindən qəbul edilər:-Məzlumun, yolçunun və atanın övladına duası."*

Allaha dua edin ki, dünyadakı günahlarınız bağışlansın. Heç vaxt ömrünüzə soyuq payız ruzigarı əsməsin. Aləmlərin Rəbbinə şükürlər olsun! Əl həmdi Lillahi Rəbbil aləmin! Amin! (اَلحَمديلِلّاحيرَبّيلاَلَميناَمين).

Dünya həyatında ata və ananın haqqını yerinə yetirmək ən vacib borclarımızdan biridir. Belə ki, insan dünyaya gələndən qəbir evinə gedənədək onun qarşısında borclar durur. Bunlar, Yardan qarşısında bəndəlik, valideynə layiqli övladlıq, vətənə olan vətəndaşlıq sevgisi və özünün övladlarına valideynlik borcudur.

Azərbaycanın böyük ensiklopedik alimi Nəsrəddin Tusi (1021-1274) belə demişdir:

> *"Ata və anamı ürəkdən sevmək, sözdə və işdə onların arzularına əməl etmək, hörmətlərini saxlamaq, mülayim davranmaq, nə söz, nə də işdə ağ olmamaq, onlar istəmədən azuqə və geyimdə, maddi köməklik göstərmək, boyunlarına minnət qoymadan və lazım gəldikdə yardım etmək, onların vəsiyyətlərinə istər sağlığında və istərsə də vəfat etdikdən sonra əməl etmək- hər bir övladın borcudur."*

"Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə aram tapır !" (Rəd surəsi, 28)

> *“Xeyir-bərəkət qocalardadır.”*
>
> **(Hz. Məhəmməd (s) peyğəmbər)**

Məhəllə ahılları

“Qocalarda keçmişi görürük, yaxşı baxsaq, gələcəyimizi də görərik.” (Şəhabəddin)

Hz. Məhəmməd(s) Peyğəmbərin qonşuluq haqqındakı sözləri belədir:

> *“Qiyamət günü Allah-təala iki şəxsə rəhm etməz; qohumluğu pozana və pis qonşuya.”*

> *“Allaha və axirət gününə iman gətirən kəs öz qonşusuna yaxşılıq etsin.”*

Həzrətdən (s) soruşurlar:

> *“Ya Rəsulullah, iki qonşum var, onların hansına pay verməliyəm?”*

O, buyurur; “Qapısı sənə yaxın olana.”

Yaşadığım “Əlixan məhəlləsi” də evimizin 100 metrlik ətrafında əvvəldən və sonradan gəlib yaşayan qonşularımız, yaşlı nəsildən olan insanlar idi. Qonşularımız biri-birinə mehriban və səmimi həyat tərzi keçirərək, ailə və övladlarını böyüdüb tərbiyə verirdilər.

Bizim ailə məhəlləyə keçən əsrin qırxıncı illərində gəlmiş və sonrakı illərdə də köçüb gələn insanlar olmuşdu. Qonşuların həmyaşıd uşaqları ilə mən kiçik yaşımdan dostluq edirdim. Qonşu uşaqları kasıb ailə üzvləri olduğundan, geydikləri yamaqlı paltarla cırıq qaloşa irad tutmazdılar.

Məhəllə şəhərdəki Lermontov, Əzizbəyov və Tbilisi (indiki 20 yanvar) küçələrinin son kəsişdiyi ərazidə yerləşirdi. Məhəllənin seçki yolu ilə seçilmiş Komitə Sədri “domkomu” (muxtarı) Qulamov İsmayıl (1901-1974) kişi idi. Qonşularımız müxtəlif iş və peşələrdə çalışanlar idi. Məhəllə dəyirmanları arası məsafə 295 metr olub, çayın üzərindən iki körpü salınmışdır. (bax; “Xəritə, plan və foto şəkillər” bölməsinə).

1950-ci illərdə məhəllədəki “Bazar çayı”nın yuxarı sağ sahili, (yuxarı dəyirman) şimal-qərbdən cənubadək (Lermontov küçəsində) olan qonşularımız aşağıdakı ailələr olmuşdur;

1) (Gözətçi) İsmayıl Şirəli oğlu, xanımı Xanım Həsən qızı. Ailəsi üç oğlan və bir qız uşaqlarından ibarət idi.

2) (Dülgər) Əsəd Hüseyn oğlu, xanımı Şərəbanı Həsən qızı. Ailəsi bir oğlan bir qız uşaqlarından ibarət idi.

3) (Kolxoz sədri) Qulam Kərbəlayı Həsən oğlu, xanımı Tamara Cəfər qızı. Ailəsi dörd oğlan uşaqlarından ibarət idi.

4) (Dülgər) Xəlil Kərim oğlu, xanımı Rəisə ... qızı. Ailəsi iki qız uşaqlarından ibarət idi.

5) (Fəhlə) Pəpiş Şirəli oğlu, xanımı Bənövşə Abbasəli qızı. Ailəsi üç oğlan və iki qız uşaqlarından ibarət idi.

6) (Mühasib) Yusif Abdulla oğlu, xanımı Güləndam Salam qızı. Ailəsi iki oğlan və iki qız uşaqlarından ibarət idi.

7) (Dülgər) Abbas Hüseyn oğlu, xanımı Həmidə Bahar qızı. Ailəsi iki oğlan və iki qız uşaqlarından ibarət idi.

8) (Diş həkimi) Həşim Məhbub oğlu, xanımı Güllər Həsən qızı. Ailəsi beş oğlan və bir qız uşaqlarından ibarət idi.

9) (Alverçi) Leylan Mayıs qızı. (Əri Məmməd müharibədə həlak olmuşdur). Ailəsi bir oğlan və iki qız uşaqlarından ibarət idi.

10) (Fəhlə) Qara Abbas oğlu, (ikinci əri Süleyman Qəhrəman oğlu), xanımı Şərəbanı ... qızı. Ailəsi birinci ərindən Abbas adında oğlan və ikinci ərindən yeddi qız uşaqlarından ibarət idi. 1)

11) (Yanğın söndürən) Sadıq İsgəndər oğlu, xanımı Nuhizər Yusif qızı. Ailəsi iki oğlan və bir qız uşaqlarından ibarət idi.

12) (Fəhlə) Kazım İsgəndər oğlu, xanımı Almas Səlim qızı. Ailəsi bir oğlan və bir qız uşaqlarından ibarət idi.

13) (Fəhlə) Mədət Haqverdi oğlu, xanımı Dilarə Məmmədkərim qızı. Ailəsi iki oğlan və iki qız uşaqlarından ibarət idi.

14) (Fəhlə) Süleyman Mübariz oğlu ,birinci xanımı Həcər Məşədi Əbdül qızı. Ailəsi (ikinci xanımı Türkan ... qızından) bir oğlan və iki qız uşaqlarından ibarət idi.

15) (Kolxoz fəhləsi) Əziz Adil oğlu, xanımı Tərlan İsmayıl qızı. Ailəsi bir oğlan və bir qız uşaqlarından ibarət idi.

16) (Evdar qadın) Fatma Məhəmməd qızı. (Əri Bağır kişi tutularaq Sibirə sürgün edilmişdir). Ailəsi iki oğlan uşaqlarından ibarət idi.

17) (Kolxoz fəhləsi) Rza Yədulla oğlu, xanımı Fatma Mir Salman qızı. Ailəsi bir oğlan və bir qız uşaqlarından ibarət idi.

18) (Kolxoz fəhləsi) (Kürd) Abdulla ... oğlu, xanımı Səltənət ... qızı (ikinci əri Cabbar ... oğlu). Ailəsi bir qız uşaqlarından ibarət idi.

19) (Dövlət qulluqçusu) Abdulla Hacı Məhəmməd oğlu, xanımı (15 uşaq anası və 2 dəfə "Qəhrəman ana" ordenli) Nərgiz Kərbəlayı Əli qızı. Ailəsi (on beş uşaqdan qalanları) dörd oğlan və bir qız uşaqlarından ibarət idi.

20) (Tikinti fəhləsi) Nurulla İmran oğlu, xanımı Rübabə Muxtar qızı. Ailəsi üç oğlan və bir qız uşaqlarından ibarət idi.

21) (Kolxoz fəhləsi) (Kürd) Məhəmməd Yaşar oğlu, xanımı Leylan ... qızı. Ailəsi bir oğlan və iki qız uşaqlarından ibarət idi.

22) (Kolxoz fəhləsi) Əli Atakişi oğlu, xanımı Xavər Yusif qızı. Ailəsi bir oğlan və bir qız uşaqlarından ibarət idi.

23) (Maliyyə işçisi) Mustafa Rafiq oğlu, xanımı Seyran ... qızı. Ailəsi dörd oğlan və bir qız uşaqlarından ibarət idi.

24) (Dövlət qulluqçusu) Yusif Mustafa oğlu, xanımı Turac Müzəffər qızı. Ailəsi bir oğlan və iki qız uşaqlarından ibarət idi.

25) (Maliyyə işçisi) Hümbət Həsən oğlu, xanımı (Maman) Solmaz Rza qızı. Ailəsi bir oğlan və bir qız uşaqlarından ibarət idi.

26) (Çayçı) Novruzəli Cəlil oğlu, xanımı Surə K. Cabbar qızı. Ailəsi dörd oğlan və bir qız uşaqlarından ibarət idi.

27) (Alverçi) Ələkbər Cümşüd oğlu, xanımı Zəhra Fərzalı qızı. Ailəsi yeddi oğlan və bir qız uşaqlarından ibarət idi.

28) (Maliyyə işçisi) Nifti Məhəmməd oğlu, xanımı Zinət Mir Vəli qızı. Ailəsi beş oğlan və bir qız uşaqlarından ibarət idi.

29) (Məişət qulluqçusu) Bəhlul Hacı oğlu, xanımı ("Qəhrəman ana" ordenli dükançı erməni qadını) Roza .... qızı. Ailəsi altı oğlan və dörd qız uşaqlarından ibarət idi.

30) (Mühasib) Abutalıb Allahverdi oğlu, xanımı Suğra Şükür qızı. Ailəsi iki oğlan və bir qız uşaqlarından ibarət idi.

31) (Kababçı) Mehdi Məmməd oğlu, xanımı Səkinə ... qızı. Ailəsi bir oğlan və üç qız uşaqlarından ibarət idi.

1)- 1952-ci ildə məhəllədəki “yuxarı dəyirman” arxından iki tərəfə su açacağı var idi. Bir gün axşam üstü suyun istiqamətini bizə tərəf dəyişməli oldum. Qozbel bir adamın məni tutacağını görəndə, qorxaraq yaxın evə tərəf qaçdım. Ev sahibi məni himayəsinə alaraq və qozbeli evə qoymadı. Həmin himayədar qadın Şərəbanı xala və qozbel isə teleqram paylayan Xəlil kişi idi.

1950-ci illərdə məhəllədəki “Bazar çayı”nın yuxarı sol sahili, (aşağı dəyirman) şimal-şərqdən cənubadək (Tbilisi küçələrində) olan yaxın qonşularımız aşağıdakı ailələr olmuşdur;

1) (Pinəçi) Həsənalı İmamqulu oğlu, xanımı Şəfiqə Həsən qızı. Ailəsi üç oğlan və üç qız uşaqlarından ibarət idi.

2) (Şüşəçi) Abbas Məhəmməd oğlu, xanımı Tərlan Mir Sadıq qızı. Ailəsi dörd oğlan və bir qız uşaqlarından ibarət idi.

3) (Məscid Axundu) Mir Bağır Mir Heydər oğlu, xanımı Bəyim K. Mehdi qızı. Ailəsi iki oğlan və iki qız uşaqlarından ibarət idi.

4) (Su tikinti mühəndisi) Bayraməli Abazər oğlu, (üçüncü) xanımı Səkinə ... qızı. Ailəsi üç oğlan və beş qız uşaqlarından ibarət idi.

5) (Dəllək) Səfər Məhəmməd oğlu, xanımı Ləzifə Heydər qızı. Ailəsi iki oğlan və iki qız uşaqlarından ibarət idi.

6) (Çörəkxana fəhləsi) Məmməd Məhəmməd oğlu, xanımı Lətifə Heydər qızı. Ailəsi iki oğlan və üç qız uşaqlarından ibarət idi.

7) (Dükançı) Xanım Güllü qızı. (Ailəsi yox idi).

8) (Milis işçisi) İsmayıl ... oğlu, xanımı, Gövhər ... qızı. Ailəsi bir qız uşaqlarından ibarət idi.

9) (Dükançı) Mir Həşim Mir Həsən oğlu, xanımı Bilqeyis Əliqulu qızı. Ailəsi iki oğlan və üç qız uşaqlarından ibarət idi.

10) (Mühasib) Qərib Şeyx Həsən oğlu, xanımı Havazər Məhəmmədəli qızı. Ailəsi iki oğlan və üç qız uşaqlarından ibarət idi.

11) (Dülgər) Əsgər Novruz oğlu, xanımı Zeynəb Məhəmməd qızı. Ailəsi iki oğlan uşaqlarından ibarət idi.

12) (Məhəllə müvəkkili) Məhəmməd Abdulla oğlu, xanımı Fatma Cəfər qızı. Ailəsi üç oğlan uşaqlarından ibarət idi.

13) (Xidmətçi) Əli Sadıq oğlu, xanımı Fatma Sadıq qızı. Ailəsi bir oğlan və bir qız uşaqlarından ibarət idi.

14) (Xidmətçi) Məmmədqulu Əliqulu oğlu, xanımı Təbərrük Məhəmməd qızı. Ailəsi iki oğlan və bir qız uşaqlarından ibarət idi.

15) (Yük maşını sürücüsü) Qurban Həsən oğlu, xanımı Pərizad Abbas qızı. Ailəsi bir oğlan və dörd qız uşaqlarından ibarət idi.

16) (Xidmətçi) Məşhədi Yusif Əliqulu oğlu, xanımı Fizzə ... qızı. Ailəsi üç oğlan uşağından ibarət idi.

17) (Xırdavatçı) Məşhədi Əbdül Əli oğlu, xanımı Səriyyə İmran qızı. Ailəsi iki qız uşaqlarından ibarət idi.

18) (Dondurmaçı) Allahverdi Qurbanhüseyn oğlu, xanımı Məsmə K. Cabbar qızı. Ailəsi dörd oğlan və bir qız uşaqlarından ibarət idi.

19) (Mühasib) Xəncan Abbas oğlu, xanımı Ağabəyim Heydər qızı. Ailəsi üç oğlan və bir qız uşaqlarından ibarət idi.

20) (Dondurmaçı) Qüdrət Həsənalı oğlu, xanımı Qəndab Nəzəralı qızı. Ailəsi üç oğlan və bir qız uşaqlarından ibarət idi.

21) (Məktəb müəllimi) Əhməd Hüseyn oğlu, xanımı Bilqeyis ... qızı. Ailəsi bir qız uşaqlarından ibarət idi.

22) (Mühasib) Həsənalı Hüseynqulu oğlu, xanımı Kübra Mir Həsən qızı. Ailəsi bir oğlan və bir qız uşaqlarından ibarət idi.

23) (Milis işçisi) Kamal ... oğlu, (ikinci) xanımı Zəhra ... qızı. Ailəsi bir oğlan və bir qız uşaqlarından ibarət idi.

24) (Məhəllə müvəkkili) Məmmədəli Hüseynalı oğlu, xanımı Ayna Şəkər qızı. Ailəsi üç oğlan və bir qız uşaqlarından ibarət idi.

25) (Sürücü) Riza Allahverdi oğlu, xanımı Məsmə (Sürhiyyə) Muxtar qızı. Ailəsi iki oğlan və bir qız uşaqlarından ibarət idi.

26) (Fəhlə) Sadıq ... oğlu, xanımı Ənvər Həbib qızı. Ailəsi sonsuz idi.

27) (Həkim) Cabbar Qulu oğlu, xanımı Arifə Xədicə qızı. Ailəsi iki oğlan və bir qız uşaqlarından ibarət idi.

1950-ci illərdə məhəllədəki “Bazar çayı”nın yuxarı sol sahili, (aşağı dəyirman) şimal-şərqdən cənubadək (Əzizbəyov küçələrində) olan yaxın qonşularımız aşağıdakı ailələr olmuşdur;

1) (Taksi sürücüsü) Bəşirəli Məhəmməd oğlu, xanımı Fatma Məhərrəm qızı. Ailəsi dörd oğlan və iki qız uşaqlarından ibarət idi.

2) (Yük maşını sürücüsü) Mehrac İntiqam oğlu, xanımı Kübra Məşdi qızı. Ailəsi bir oğlan və bir qız uşaqlarından ibarət idi.

3) (Dəvəçi) Əkbər Həmid oğlu, xanımı Süsənbər … qızı. Ailəsi bir oğlan və bir qız uşaqlarından ibarət idi.

4) (Avtovağzal kassiri) Müzəffər Qədimalı oğlu, (ikinci) xanımı Papıl Əkbər qızı. Ailəsi tez-tez Bakıdan babası Qədimalı kişi ilə Naxçıvana gələn əvvəlki xanımından olan Şəmil və Kamil adında oğlan uşaqlarından ibarət idi.

5) (Xidmətçi) Kərim Əli oğlu, xanımı Şərəbanı Müslim qızı. Ailəsi beş oğlan və bir qız uşaqlarından ibarət idi.

6) (Məktəb müəllimi) Cabbar Səttar oğlu, xanımı Səkinə Allahverdi qızı. Ailəsi iki qız uşaqlarından ibarət idi.

7) (Elektrik montyoru) Zülfüqar Muxtar oğlu, xanımı Leyli Kazım qızı. Ailəsi iki oğlan və bir qız uşaqlarından ibarət idi.

8) (Yük maşını sürücüsü) Məmməd Allahverdi oğlu, xanımı Məhbubə (Mətdi) Mahmud qızı. Ailəsi iki oğlan uşaqlarından ibarət idi.

9) (Xidmət sürücüsü) Rəşid Musa oğlu, xanımı Həlimə … qızı. Ailəsi sonsuz idi.

10) (Xeyriyyəçi) Mir Həşim … oğlu, xanımı Mir Rübabə Mir Əli qızı. Ailəsi bir qız uşaqlarından ibarət idi.

11) (Maliyyə işçisi) Qurban Abbasqulu oğlu, xanımı Səkinə Mir Bağır qızı. Ailəsi iki oğlan və üç qız uşaqlarından ibarət idi.

12) (Buzxanaçı) Həsən Fərhad oğlu, xanımı Rübabə Süleyman qızı. Ailəsi iki qız uşaqlarından ibarət idi.

13) (Məktəb müəllimi) Qəzənfər Məmmədtağı oğlu, xanımı Məhbubə Məşədi Heydər qızı. Ailəsi üç oğlan uşaqlarından ibarət idi.

14) (Məscid mollası) Mir Abdulla Mir Bədəl oğlu, (ikinci) xanımı Leyla Məmməd qızı. Ailəsi dörd oğlan və bir qız uşaqlarından ibarət idi.

15) (Məscid mollası) Hacı İbrahim K. Məhərrəm oğlu, xanımı Dilbər Oruc qızı. Ailəsi üç oğlan və bir qız uşaqlarından ibarət idi.

16) (Aqronom) Mir Əhməd Mir Bədəl oğlu, xanımı Məsmə Mir Həşim qızı. Ailəsi dörd oğlan və iki qız uşaqlarından ibarət idi.

17) (Tənəkəçi) Hüseyn Məhəmməd oğlu, xanımı Surə Məhəmməd qızı. Ailəsi bir oğlan və bir qız uşaqlarından ibarət idi.

18) (Rəngsaz) Yəhya Səfər oğlu, xanımı Xatın Muxtar qızı. Ailəsi üç oğlan və üç qız uşaqlarından ibarət idi.

19) (Bazar alverçisi) Ələsgər Heydər oğlu, xanımı Zəhra Şirməmməd qızı. Ailəsi iki oğlan və bir qız uşaqlarından ibarət idi.

20) (Bənna) Əziz Cavad oğlu, xanımı Mirvari K. Həsən qızı. Ailəsi bir oğlan və üç qız uşaqlarından ibarət idi.

21) (Dəllək) Orucəli Cümşüd oğlu, xanımı Səriyyə Feyzulla qızı. Ailəsi dörd oğlan və bir qız uşaqlarından ibarət idi.

> *"Əbədi aləmdə kimsəsiz qalmamaq üçün bu dünyada kimsəsizlərin kimsəsi olmaq ən gözəl işdir." Məqsədim məhəllədəki yaxın qonşuların ailə üzvlərinin, xoş xatirələr ilə yada salmaq idi. Məhəllədəki yuxarıda adları çəkilən ahıl qonşuların hamısı bu dünyadan köçmüşdür. Məhəllədəki qonşular həmişə bir-birləri ilə mehriban olmuşlar. Elə buna görə də yüksək əxlaqlı insanlar Əlixan məhəlləsindən çıxmışlar. Allah dünyadan köçən qonşuların Ruhlarına rəhmət eləsin! Amin!*

Böyük söz ustadı Şəhriyar (1906-1985) demişkən;

> *"Ey düşünən bəxtiyar gənc! Təcrübəli ahıllardan xoşbəxt gələcək yolunu öyrən. Ey təcrübəli ahıl insan! Nə qədər ki dövran sənə möhlət vermişdir, yeniyetmə gənclərə düzgün yol göstər. Bu isə Allah qarşısında olan savabın ən mükəmməlidir."*

Hz.Məhəmməd(s) Peyğəmbər buyurmuşdur ki;

> *"Ümmətimin ömrü altmışla yetmiş yaş arasındadır."*

(Ə.Musayev, "Qurani-kərim" Bakı- 2010).

"... Məgər orada (dünyada) sizə düşünəcək kimsənin düşünə biləcəyi qədər uzun ömür vermədikmi? ..." (Fatir surəsi, 37)

> *“Keçmişini unudan insan,gələcəksiz yaşamalı olar.”*
>
> **(Atalar sözü)**

Arxivin “sim-sim” qapısı

“İnci dəniz dibindədir, çör-çöp çıxmış sahilə.” (Məhəmməd İqbal)

Hər bir millətin (ziyalının) arxivi onun tarixi və həyatının ayrılmaz hissəsidir. Əgər bir xalqın (ziyalının) arxivi olmayıbsa və ya yoxdursa demək o xalqın (ziyalının) gələcəyindən də danışmaq əbəsdir. Yəni qədim Atalar sözündəki kimi

> *“keçmişini unudan insan, gələcəksiz yaşamalı olar.”*

Bütün bunlar isə dünya həyatında olan aksiomadır.

> “Nə şöhrət qalacaq, nə şan qalacaq, yaxşı kişilərdən ad-san qalacaq.
> Çör-çöpü sahilə atsa da dəniz, dənizin dibində gövhər qalacaq.”
>
> **(Famil Mehdi)**

Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin(1923-2003) sözü ilə;

> *“Arxiv işinə gərək çox ciddi fikir verilsin. Bir tərəfdən, xalqımızın tarixini əks etdirən yeganə mənbədir. İkincisi də ona görə ki, tariximizi təhrif edənlərin qarşısını almaq üçün çox mühüm amildir.”*

Gənclik illərindən yığıb saxladığım və sonrakı insanlara xeyir vermək məqsədilə şəxsi arxiv toplamışam.

Həmin arxivdən səmərəli istifadə etmək üçün qədim nağıllardakı kimi “sim-sim” deməklə bağlı qapıları açmaq mümkündür. Yalnız bunun üçün səbirli olub və lazım olan məlumatlara nail olmaq olar. Kino sənəti həyatımın varlığı kimi möcüzəli bir aləmdir. Bir vaxtlar toplayıb saxladığım bədii, sənədli, tədris və cizgi videofilm və diqital video disklərin (DVD) kataloqu aşağıdakı kimidir:

Azərbaycan bədii və tele filmləri;

– Qız qalası 1924 (səssiz).

– Bismillah 1925 (səssiz).

– Gilan qızı 1928 (səssiz).

– Vulkan üzərində ev 1928 (səssiz).

– Sevil 1929 (səssiz), 1970 (səsli).

– Lətif 1930 (səssiz).

– 26 Komissar 1932 (səssiz).

– İsmət (Adətin məhvi) 1934 (səssiz).

– Məhəbbət oyunu 1935 (səssiz).

– Mavi dəniz sahilində (ilk səsli film) 1935.

– Almaz 1936 (səssiz).

– Dəcəl dəstə 1937 (səssiz).

– Bakılılar 1938.

– Kəndlilər 1939.

– Yeni horizont 1940.

– Səbuhi (M.F.Axundov) 1941.

– Bəxtiyar 1942.

– Bir ailə 1943.

– Sualtı qayıq T-9 1943.

– Arşın mal alan 1945 və 1965.

– Fətəli xan 1947 (1958).

– Bakının işıqları 1950 (1958).

– Sevimli mahnı (Bəxtiyar) 1955.

– Görüş 1955.

– Qara daşlar 1956.

– O olmasın, bu olsun 1956.

– Bir məhəllədən iki nəfər 1957.

– Qızmar günəş altında 1957.

– Mahnı belə yaranır (telefilm) 1957.

– "Kazbek" qutusu (telefilm) 1958.

– Kölgələr sürünür 1958.

– Onun böyük ürəyi 1958.

– Ögey ana 1958.

– Uzaq sahillərdə 1958.

– Yeni il gecəsində 1958.

– Bir qalanın sirri 1959.

– Əsl dost 1959.

– Onu bağışlamaq olarmı? 1959.

– Koroğlu 1960.

– Qəribə əhvalat 1960 (Telefilm).

– Mollanın sərgüzəşti 1960 (Telefilm).

– Mateo Falkone 1960 (Telefilm).

– Səhər 1960.

– Aygün 1960 (Telefilm).

– Qisas 1961.

– Bizim küçə 1961.

– Leyli və Məcnun 1961.

– Böyük dayaq 1962.

– Əmək və qızıl gül (Oynamaq istəyirəm) 1962.

– Telefonçu qız 1962.

– Əhməd haradadır? 1963.

– Möcüzələr adası 1963 (Telefilm).

– Romeo mənim qonşumdur 1963.

– Kimi daha çox sevirik? 1964 (Telefilm) (3 novella).

– Sehrli xalat 1964.

– Ulduz 1963.

– Yenilməz batalyon 1965.

– İstintaq davam edir 1966.

– İyirmialtılar 1966.

– Qaraca qız 1966 (Telefilm) (2 novella).

– Sən niyə susursan? 1966.

– Yaşamaq gözəldir, qardaşım 1966.

– Biri var idi, biri yox idi... 1967.

– Dağlarda döyüş 1967.

– İnsan məskən salır (Telefilm) 1967.

– Torpaq, dəniz, od, səma 1967 (Telefilm).

– Poçt qutusu 1967 (Telefilm).

– Qanun naminə (Mehman) 1968.

– Mən ki, gözəl deyildim 1968.

– Uşaqlığın son gecəsi 1968.

– Zəncirli adam 1968 (Telefilm).

– Bir cənub şəhərində 1969.

– Bizim Cəbiş müəllim 1969.

– Dəli kür 1969.

– Şərikli çörək 1969.

– O qızı tapın 1970.

– Yeddi oğul istərəm 1970.

– Axırıncı aşırım 1971.

– Ən vacib müsahibə 1971.

– Gün keçdi 1971.

– Ulduzlar sönmür 1971.

– Gilas ağacı 1972 (Telefilm).

– Həyat bizi sınayır 1972.

– Xatirələr sahili 1972 (Telefilm).

– Qızıl qaz 1972.

– Skripkanın sərgüzəşti 1972.

– Var olun, qızlar 1972.

– Bizim küçənin oğlanları 1973.

– Nəsimi 1973.

– Ömrün ilk saatı 1973.

– Səmt küləyi 1973.

– Dənizə çıxmaq qorxuludur 1973.

– Çarvadarların izi ilə 1974.

– Bakıda küləklər əsir 1974.

– Qatır Məmməd 1974.

– 1001-ci qastrol 1974 (Telefilm).

– Ömrün səhifələri 1974 (3 novella) (Telefilm).

– Alma almaya bənzər 1975.

– Dədə Qorqud 1975 (2 seriya).

– Əgər bir yerdəyiksə 1975.

– Çətirimiz buludlardır 1976.

– Dərviş Parisi partladır 1976.

– Günlərin bir günü 1976 (2 novella) (Telefilm).

– Xoşbəxtlik qayğıları 1976.

– Mezozoy əhvalatı 1976.

– Tütək səsi 1976.

– Ürək... ürək... 1976.

– Vulkana doğru 1977 (3 seriya).

– Ad günü 1977.

– Üzü küləyə 1977 (Telefilm).

– Arxadan vurulan zərbə 1977.

– De ki, məni sevirsən 1977.

– Qərib cinlər diyarında 1977.

– Sevinc buxtası 1977 (2 seriya).

– Şir evdən getdi 1977 (2 seriya).

– Evin kişisi 1978.

– Dantenin yubileyi 1978.

– Xanımım mənim, uşaqlarım mənim 1978 (3 novella) (Telefilm).

– Bayquş gələndə 1978.

– Bir ailəlik bağ evi 1978.

– Qayınana 1978.

– Od içində 1978.

– Yarımçıq qalmış mahnı 1979.

– Babək 1979 (2 seriya).

– Bizi bağışlayın 1979.

– İstintaq 1979.

– Qəribə adam 1979 (2 seriya).

– Mən nəğmə qoşuram 1979 (Telefilm).

– Dvorjakın melodiyası 1979 (Telefilm).

– Yarımçıq qalmış serenada 1979 (Telefilm).

– Anın quruluşu 1980 (2 seriya).

– Bilmək istəyirəm 1980 (2 seriya).

– Gözlə məni 1980.

– Qızıl uçurum 1980.

– Onun bəlalı sevgisi 1980.

– Təkcə adanı özünlə apara bilməzsən 1980.

– Vah! 1980 (Telefilm).

– Yol əhvalatı 1980.

– Babamızın babasının babası 1981.

– Bağlı qapı 1981.

– Birisigün gecəyarı (Respublika naminə) 1981.

– Əlavə iz 1981.

– Qorxma, mən səninləyəm! 1981 (2 seriya) (Telefilm).

– Üzeyir ömrü 1981 (2 seriya).

– Əzablı yollar (Məlikməmməd) 1982.

– İşgüzar səfər 1982.

– Qaladan tapılan mücrü 1982.

– Qocalar, qocalar... 1982.

– Nizami 1982 (2 seriya).

– Yeddi gözəl 1982 (film-balet).

– Gümüşü furqon 1982.

– İlıq dənizdə buz parçası 1983 (Telefilm).

– Asif, Vasif, Ağasif 1983 (Telefilm).

– Evlənmək istəyirəm (Papaq) 1983.

– Gəmi saatının sirri 1983.

– Musiqi müəllimi 1983 (Telefilm).

– Ötən ilin son gecəsi 1983.

– Park 1983.

– Avqust gələndə... 1984.

– Gümüşgöl əfsanəsi 1984.

– Köhnə bərə 1984.

– Qara gölün cəngavərləri 1984.

– Qoca palıdın nağılı 1984 (Telefilm).

– Tənha narın nağılı 1984 (Telefilm).

– Atları yəhərləyin (Qaçaq Nəbi) 1985.

– Bağ mövsümü 1985.

– Bayramda yağış 1985 (Telefilm).

– Bəyin oğurlanması 1985.

– Cin mikrorayonda 1985.

– Sizi dünyalar qədər sevirdim (Həzi Aslanov) 1985.

– Aşkarlıq şəraitində 1986.

– Bircəciyim 1986.

– Burulğan 1986.

– Xüsusi vəziyyət 1986 (2 seriya).

– İşarəni dənizdən gözləyin (Çingiz İldırım) 1986.

– Qəm pəncərəsi (Mirzə Cəlil) 1986 (2 seriya).

– On yeddi yaşlı oğlan 1986.

– Şəhərli biçinçilər 1986 (Telefilm).

– Sürəyya 1987.

– Kölgədə 40 dərəcə isti 1987.

– Araqarışdıran 1987.

– İmtahan 1987.

– Kişi sözü 1987 (Telefilm).

– Özgə ömür 1987.

– Pirverdinin xoruzu 1987 (Telefilm).

– Süd dişinin ağrısı 1987 (Telefilm).

– Göz qabağında şeytan 1987.

– Yay gününün xəzan yarpaqları 1987.

– Kənar adam 1987.

– Cansıxıcı əhvalat 1988.

– Gənc qadının kişisi 1988.

– Yaramaz 1988.

– Alman klinikasına şəxsi səfər 1988 (2 seriya).

– Doğma sahillər 1989.

– Əlaqə 1989.

– Lətifə 1989 (2 seriya).

– Ölsəm... bağışla 1989.

– Sahilsiz gecə 1989.

– Təxribat 1989.

– Həmyerli 1989.

– Şirəli və Aybərçin 1989 (2 seriya).

– Gecə qatarında qətl 1990.

– Girişmə, öldürər 1990 (I hissə) (Telefilm).

– Qətl günü 1990 (2 seriya).

– Şahid qız 1990.

– "Yapon" və yaponiyalı 1990 (Telefilm).

– Zirzəmi 1990.

– Tələ 1990 (Azərb-İnterdet).

– Qətldən 7 gün sonra 1991.

– Qəzəlxan 1991 (2 seriya) (Telefilm).

– Bəxt üzüyü (Nakəs) 1991 (Telefilm).

– O dünyadan salam (Ölülər) 1991.

– Şirbalanın məhəbbəti 1991 (Telefilm).

– Pəncərə 1991.

– Müqəddəs oda yanıram 1991.

– Sonuncu məhəbbət 1991.

– Qisas 1991.

– Etiraf 1992.

– Kənar adamlar 1992.

– 777 №-li iş (“Mozalan” satirik jurnalı) 1992.

– Fəryad 1993.

– Haray 1993.

– Mənim ağ şəhərim 1993.

– Həm ziyarət, həm ticarət 1993 (Telefilm).

– Təhminə 1993 (Telefilm).

– Qırmızı qatar 1993 (2 seriya).

– Hökm 1994.

– Köpək 1994 (Telefilm).

– Ağ atlı oğlan 1995.

– İblis qadın 1995.

– Ümid 1995.

– Fransız 1995 (Telefilm).

– Yük 1995.

– Özgə vaxt 1996.

– Qarabağ şikəstəsi 1996 (Telefilm).

– Son döyüş 1996.

– Ləqəbi “İka”dır 1997.

– Ailə 1998 (2 seriya).

– Hər şey yaxşılığa doğru 1997.

– Otel otağı 1998 (Telefilm).

– Sarı gəlin 1998.

– Yarasa 1998.

– Nə gözəldir bu dünya... 1999.

– Yuxu 2001 (Telefilm).

– Güllələnmə təxirə salınır 2002.

– Hacı Qara 2002 (Telefilm).

– Ovsunçu 2002.

– Qeybdən gələn səs 2002.

– Odla qol-boyun 2002.

– Məkanın melodiyası 2004 (Telefilm).

– Qara Volqa 2004.

– Küçələrə su səpmişəm 2004.

– Tunel 2005.

– Arxada qalmış gələcək 2005.

– Moskva-Bakı qatarı 2005 (Telefilm).

– Yalan 2005.

– Hərənin öz payı 2006 (2 seriya).

– Qafqazda olarkən 2006 (Telefilm).

– Məhkumlar 2006 (Telefilm).

– Balqabaq 2007 (Telefilm).

– Biz qayıdacağıq 2007.

– Cavid ömrü 2007 (2 seriya) (Telefilm).

– Sovqat 2007.

– Seçilən 2008 (Telefilm).

– Hökmdarın taleyi 2008.

– 40-cı qapı 2008.

– Cavad xan 2009.

– Tunel 2009.

– Dolu 2012.

– Xoca 2012.

Azərbaycan sənədli, tədris və cizgi filmləri;

– Balaxanı 1898 (səssiz).

– Bibiheybətdə neft fontanı 1898 (səssiz).

– Xəzər neftçiləri haqqında povest 1953 (ilk rəngli film).

– Doğma xalqımıza 1954.

– Rac Kapur Bakıda 1956.

– Yada düşər xatirələr 1960 (konsert).

– Mücrü 1960.

– Payız konserti 1962.

– Toyda görüş 1964 (konsert).

– Oxuyur Ş.Ələkbərova 1966 (konsert).

– Abşeron ritmləri 1970.

– Bu Səttar Bəhlulzadədir 1988.

– Bakı haqqında 10 dəqiqə 1966.

– Valehedici təbiət 1967.

– Əcəmi Naxçıvani 1976.

– Gözəl səslər 1976.

– Nəğməkar torpaq 1981.

– Nəsrəddin Tusi 1984.

– Möcüzəli ağac 1984.

– Batabat 1984.

– İ.Əbilov 1986.

– M.S.Ordubadi 1986.

– Y.Məmmədəliyev 1988.

– Şəfa bulağı 1986.

– Sürüşmə 1991.

– Təbəssüm 1992.

– Əshabi-kəhf 1995, 1997 (Mif), 2000.

– Ümid 1995.

– Quzu 1999.

– Bu Naxçıvandır 2000.

– Naxçıvan-yeni dövr 2000.

– Nehrəmli qız 2002.

– Nar nağılı 2003.

– Əsrin müqaviləsi 2004.

– Naxçıvan muzeyləri 2004.

– Həyəcan təbili 2004.

– Vulkanla üz-üzə 2004.

– Şaxtaxtlılar 2005.

– Bal arısı 2005.

– Nəimi 2005.

– Ordubadda Novruz 2005.

– Dəvələr 2005.

– Sufilər 2005.

– Mömінə xatın 2005.

– Naxçıvan tarix muzeyi 2005.

– Naxçıvanlı Kəngərlilər 2006.

– Tarixin yollarında 2006.

– “Müəllim günü” tədbirində 2006.

– Şur 2006.

– Bağçada yolka şənliyi 2006.

– Bermund üçbucağı 2006.
– Müstəqilliyə gedən yol 2006.
– Əfsanəvi Nostradamus 2006.
– Qayıdış 2006.
– Pirverdinin xoruzu 2006.
– Şəhriyar 2006.
– Duzdağ müalicəxanası 2006.
– Bu yol Şabran yoludur 2006.
– Azərbaycan xəritəsi 2006.
– Kinoda yaşayan ömür 2006.
– Novruz 2007.
– Qüdsi 2007.
– Duzdağın əfsanəsi 2007.
– Limon 2007.
– Şahbuz mədəniyyəti 2008.
– Gəmiqaya abidələri 2008.
– Şərqdə doğan günəş 2009.
– Eşqin aynası (Cəlaləddin Rumi) 2013.

Xarici ölkə bədii filmləri;

– Aelita (səssiz) 1924 (Rus).
– Tətil (səssiz) 1925 (Rus).
– ”Potyomkin” zirehli gəmisi (səssiz) 1925 (Rus).
– Qutu gəzdirən qız (səssiz) 1927 (Rus).
– Eliso (səssiz) 1928 (Gürcü).
– Torpaq (səssiz) 1930 (Rus).
– Həyata vəsiqə 1931 (Rus).
– Qarşıdan gələn 1932 (Rus).
– Çarli Çaplin sanatoriyada (səssiz) 1933 (ABŞ).
– Tarzan 1934 (ABŞ).
– Şən uşaqlar 1934 (Rus).
– Pışka (Fahişə) (səssiz) 1934 (Rus).
– Yeni Qulliver 1935 (Rus).
– Culbars 1935 (Rus).
– Məhbuslar 1936 (Rus).
– Qızıl dağlar 1936 (Rus).

– Yeddi igid 1936 (Rus).
– Kapitan Qrantın uşaqları 1936 (Rus).
– Tom Soyer 1936 (Kiyev k/s).
– Rembrandt 1936 (ABŞ-İngilis).
– Alamas dərəsi 1937 (Rus).
– Dəfinələr adası 1937 (Rus).
– Ruslan və Lyudmila 1938 (səssiz) (Rus).
– Doktor Aybolit 1938 (Rus).
– Ayı 1938 (Rus).
– Zəngəzur 1938 (İrəvan k/s).
– Mərdlik 1939 (Rus).
– Müəllim 1939 (Rus).
– Qızıl açar 1939 (Rus).
– Tarzan-2 1939 (ABŞ).
– Dənizçilər 1939 (Odessa k/s).
– Timur və onun dəstəsi 1940 (Rus).
– Gözəl Vasilisa 1940 (Rus).
– ”Oryol” gəmisinin məhvi 1940 (Rus).
– Qozbel at 1941 (Rus).
– Sirli ada 1941 (Odessa k/s).
– Onun adı Suxe Batordur 1942 (Monqol-Özbək-Rus).
– Nəsrəddin Buxarada 1943 (Özbək).
– Ölməz Kaşey 1944 (Rus).
– Toy 1944 (Gürcü).
– Tahir və Zöhrə 1945 (Özbək).
– 15 yaşlı kapitan 1946 (Rus).
– Hava sürücüsü 1946 (Qazax-Rus).
– Qədim məzhəkə 1946 (Rus).
– Daş çiçək 1946 (Rus).
– Əlişir Nəvai 1947 (Özbək).
– Əbu Reyhan Biruni 1947 (Özbək) (2 seriya).
– Üçüncü zərbə 1948 (Kiyev k/s).
– Stalinqrad döyüşü 1949 (Rus) (2 seriya).
– Alitet dağlara gedir 1949 (Rus).
– Berlinin süqutu 1949 (Rus) (2 seriya).

– Kuban qazaxları 1949 (Rus).
– Yağmur mövsümü 1949 (Hind) (2 seriya).
– Tarixin yaddaşı (28 dekabr 2009 1 nüsxə).
– YAP Naxçıvan MR Təşkilatı;
– Nuh yurduna ziyarət (27 avqust 2008 1 nüsxə);
– Naxçıvanın təbii sərvətləri (27 avqust 2008 1 nüsxə);

– Tarixin yaddaşı (8 yanvar 2010 1 nüsxə).
– Naxçıvan MR yazıçılar Birliyi;
– Nuh yurduna ziyarət (21 avqust 2008 1 nüsxə);
– Tarixin yaddaşı (27 dekabr 2009 1 nüsxə).
– Naxçıvan müəllimlər İnstitutu;
– Naxçıvanın təbii sərvətləri (9 sentyabr 2008 3 nüsxə);
– Tarixin yaddaşı (6 yanvar 2010 3 nüsxə).
– Naxçıvan Mədəniyyət abidələri elmi-bərpa İdarəsi;
– Tarixin yaddaşı (20 yanvar 2010 1 nüsxə).
– Naxçıvan şəhər mədəniyyət və turizm şöbəsi;
– Nuh yurduna ziyarət (19 avqust 2008 2 nüsxə);
– Tarixin yaddaşı (15 yanvar 2010 1 nüsxə).
– Naxçıvan H.Əliyev Muzeyi;
– Nuh yurduna ziyarət (3 avqust 2008 2 nüsxə);
– Tarixin yaddaşı (25 dekabr 2009 2 nüsxə).
– Naxçıvan MR Dövlət tarix Muzeyi;
– Nuh yurduna ziyarət (19 avqust 2008 3 nüsxə);
– Tarixin yaddaşı (24 dekabr 2009 3 nüsxə).
– Naxçıvan Bəhruz Kəngərli Muzeyi;
– Nuh yurduna ziyarət (19 avqust 2008 2 nüsxə);
– Tarixin yaddaşı (22 dekabr 2009 2 nüsxə).
– Naxçıvan MR ədəbiyyat Muzeyi;
– Nuh yurduna ziyarət (14 avqust 2008 3 nüsxə);
– Tarixin yaddaşı (26 dekabr 2009 3 nüsxə).
– Naxçıvan açıq səma altındakı Muzey;
– Nuh yurduna ziyarət (19 avqust 2008 1 nüsxə);
– Tarixin yaddaşı (26 dekabr 2009 1 nüsxə).
– Naxçıvan xalça Muzeyi;
– Nuh yurduna ziyarət (19 avqust 2008 1 nüsxə).
– Naxçıvan MR döyüş şöhrəti Muzeyi;
– Nuh yurduna ziyarət (26 avqust 2008 1 nüsxə);
– Tarixin yaddaşı (27 yanvar 2010 1 nüsxə).
– Naxçıvan C.Məmmədquluzadənin Ev-Muzeyi;
– Nuh yurduna ziyarət (19 avqust 2008 1 nüsxə);
– Tarixin yaddaşı (24 dekabr 2009 1 nüsxə).

– Naxçıvan H.Cavid ev-Muzeyi;
– Nuh yurduna ziyarət (14 avqust 2008 2 nüsxə);
– Tarixin yaddaşı (24 dekabr 2009 2 nüsxə).
– Naxçıvan C.Naxçıvanskinin ev-Muzeyi;
– Nuh yurduna ziyarət (19 avqust 2008 1 nüsxə);
– Tarixin yaddaşı (26 dekabr 2009 1 nüsxə).
– Nehrəm kəndi C.Məmmədquluzadə Muzeyi;
– Nuh yurduna ziyarət (14 avqust 2008 2 nüsxə);
– Tarixin yaddaşı (22 dekabr 2009 2 nüsxə).
– H.Əliyev uşaq-gənclər yaradıcılıq Mərkəzi;
– Nuh yurduna ziyarət (21 avqust 2008 3 nüsxə);
– Naxçıvanın təbii sərvətləri (21 avqust 2008 3 nüsxə);
– Tarixin yaddaşı (26 dekabr 2009 3 nüsxə).
– Naxçıvan şəhər 5 №-li Məktəb;
– Naxçıvanın təbii sərvətləri (19 avqust 2008 3 nüsxə).
– Naxçıvan şəhər 3 №-li Məktəb;
– Naxçıvanın təbii sərvətləri (27 sentyabr 2008 4 nüsxə).
– Naxçıvan şəhər Tibb Kolleci;
– Naxçıvanın təbii sərvətləri (9 sentyabr 2008 3 nüsxə).
– Naxçıvan şəhər “Yaşıl apteki”;
– Naxçıvanın təbii sərvətləri (6 sentyabr 2008 3 nüsxə).
– Naxçıvan MR Dövlət film Fondu;
– Tarixin yaddaşı (28 dekabr 2009 1 nüsxə).
– Naxçıvan MR Dövlət rəsm Qalereyası;
– Tarixin yaddaşı (28 dekabr 2009 3 nüsxə).
– Naxçıvan şəhər uşaq incəsənət Məktəbi;
– Nuh yurduna ziyarət (27 noyabr 2008 1 nüsxə);
– Tarixin yaddaşı (28 dekabr 2009 1 nüsxə).
– Naxçıvan Şahmat Mərkəzi;
– Tarixin yaddaşı (29 dekabr 2009 1 nüsxə).
– Naxçıvan şəhər Poliklinikası;
– Naxçıvanın təbii sərvətləri (9 sentyabr 2008 2 nüsxə);
– Tarixin yaddaşı (29 dekabr 2009 1 nüsxə).
– Naxçıvan şəhər yaşıllaşdırma İdarəsi;
– Naxçıvanın təbii sərvətləri (8 dekabr 2008 2 nüsxə).

– Naxçıvan texniki yaradıcılıq Mərkəzi;
– Tarixin yaddaşı (7 yanvar 2010 1 nüsxə).
– Naxçıvan ekoloji tərbiyə Mərkəzi;
– Nuh yurduna ziyarət (14 avqust 2008 2 nüsxə);
– Naxçıvanın təbii sərvətləri (20 avqust 2008 2 nüsxə);
– Tarixin yaddaşı (7 yanvar 2010 2 nüsxə).
– Naxçıvan AHİŞ-ın turizm və Səyahətlər Bürosu;
– Nuh yurduna ziyarət (22 avqust 2008 2 nüsxə).
– Naxçıvan turist-ölkəşünaslıq Mərkəzi;
– Nuh yurduna ziyarət (14 avqust 2008 1 nüsxə);
– Tarixin yaddaşı (7 yanvar 2010 1 nüsxə).
– Naxçıvan texniki Kolleci;
– Naxçıvanın təbii sərvətləri (20 avqust 2008 2 nüsxə);
– Tarixin yaddaşı (7 yanvar 2010 2 nüsxə).
– Naxçıvan estetik tərbiyə Mərkəzi;
– Tarixin yaddaşı (20 yanvar 2010 1 nüsxə).
– Naxçıvan şəhər Cümə Məscidi;
– Nuh yurduna ziyarət (27 avqust 2008 20 nüsxə);
– Naxçıvanın təbii sərvətləri (15 avqust 2008 20 nüsxə);
– Tarixin yaddaşı (20 yanvar 2010 15 nüsxə).
– Ordubad şəhər Cümə Məscidi;
– Nuh yurduna ziyarət (27 dekabr 2008 2 nüsxə).
– Naxçıvan şəhər uşaq Xəstəxanası;
– Nuh yurduna ziyarət (28 fevral 2009 1 nüsxə);
– Naxçıvanın təbii sərvətləri (28 fevral 2009 1 nüsxə).
– Naxçıvan zona aqrokimya Stansiyası;
– Naxçıvanın təbii sərvətləri (15 avqust 2008 2 nüsxə).
– “Araz” elmi-təcrübə Birliyi;
– Naxçıvanın təbii sərvətləri (15 avqust 2008 2 nüsxə).
– Kəngərli rayon mədəniyyət və turizm Şöbəsi;
– Tarixin yaddaşı (5 may 2010 1 nüsxə).
– Şərur rayon Oğlanqala kənd Məktəbi;
– Nuh yurduna ziyarət (30 sentyabr 2008 2 nüsxə);
– Naxçıvanın təbii sərvətləri (30 sentyabr 2008 2 nüsxə);
– Tarixin yaddaşı (10 iyul 2010 1 nüsxə).

– Şahbuz rayon Kükü kənd Məktəbi;

– Naxçıvanın təbii sərvətləri (3 oktyabr 2008 2 nüsxə).

– Şahbuz rayon Keçili kənd Məktəbi;

– Naxçıvanın təbii sərvətləri (31 oktyabr 2008 2 nüsxə).

– Babək rayon Sirab kənd Məktəbi;

– Naxçıvanın təbii sərvətləri, (3 oktyabr 2008 2 nüsxə).

– Babək rayon Nehrəm kənd Məktəbi;

– Nuh yurduna ziyarət (19 oktyabr 2008 2 nüsxə);

– Naxçıvanın təbii sərvətləri (18 dekabr 2008 4 nüsxə. Babək rayon Tumbul kənd Məktəbi; Nuh yurduna ziyarət (10 sentyabr 2008 1 nüsxə); Naxçıvanın təbii sərvətləri (10 sentyabr 2008 1 nüsxə). Babək rayon Cəhri kənd Məktəbi; Nuh yurduna ziyarət (18 sentyabr 2008 1 nüsxə); Naxçıvanın təbii sərvətləri (18 sentyabr 2008 1 nüsxə). Babək rayon Qaraxanbəyli kənd Məktəbi; Nuh yurduna ziyarət (17 noyabr 2008 1 nüsxə); Naxçıvanın təbii sərvətləri (17 noyabr 2008 2 nüsxə); Tarixin yaddaşı (15 sentyabr 2010 1 nüsxə). Sabirabad rayon Mədəniyyət və Turizm Şöbəsi; Nuh yurdu- Naxçıvan (24 fevral 2014 4 nüsxə).

“... Sənin bizə öyrətdiklərindən başqa heç bir şey bilmirik.” (Bəqərə surəsi, 32)

“Hər işdə bir hikmət, hər hadisədə bir ibrət var.”

(Həzrəti Əli (ə))

“Nuh yurdu” internet saytı

“Nə qədər oxuyursan oxu, biliyini anlatmasan cahilsən.” (Sədi Şirazi)

> *“Nuh yurdu” Feyruz Bağırovun şəxsi internet saytına xoş gəlmişsiniz! Müasir dövrdə inkişaf etməkdə olan informasiya texnologiyaları internet rabitəsindən geniş istifadə etmək imkanları vardır. Hər bir ziyalı internet saytı ilə dünyanın bütün insanları ilə əlaqə yarada bilər.*

Rabitə sistemində informasiya texnologiyaları müasir cəmiyyətdə mühüm yer tutur. Müasir insan gündəlik həyatını informasiya texnologiyaları olmadan təsəvvür edə bilməz. Artıq bu gün hər hansı bir ölkədə vətəndaşların rifahından danışanda əsas faktorlardan biri informasiya texnologiyasıdır. Bu isə dünyadakı insanların bir-biri ilə internet əlaqəsinin təmini deməkdir.

2007-ci ildən mən də bir ziyalı kimi “Nuh yurdu” adlı internet saytı qazandım. Həmin saytda “Ana səhifə”, “Bioqrafiya”, “Kitablar”, “Məqalələr”, “Foto şəkillər”, “Kino filmlər” və “Əlaqə” səhifələrinə yer ayrılmışdır. İnternet əlaqəsi ilə dünyanın əksər ölkələrindəki vətəndaşlar mənim yaradıcılığımla tanış ola bilirlər. İndiyə kimi www.nuhyurdu.com internet saytımla 24 min 761 nəfər ziyarətçi tanış olmuşdur. 2009-cu il 31 dekabradək dünyanın müxtəlif ölkələrindən saytın səhifələrinə baxan ziyarətçilərin sayı aşağıdakı kimidir;

Azərbaycan- 87.166 nəfər, Rusiya Federasiyası- 33.351 nəfər, Türkiyə- 32.054 nəfər, ABŞ 8.228 nəfər, Almaniya- 4.115 nəfər, Ukrayna- 3.358 nəfər, ÇXR- 1.845 nəfər, Böyük Britaniya- 1.375 nəfər, Latviya- 1.276 nəfər, Kanada- 1.069 nəfər, Fransa- 1.041 nəfər, İsveçrə- 1.001 nəfər, Avropanın cırtdan dövlətləri- 823 nəfər, Niderlandiya- 814 Gürcüstan- 803 nəfər, İsrail- 621 nəfər, Qazaxıstan- 567 nəfər, İran- 512 nəfər, Moldaviya- 447 nəfər, Norveç- 419 nəfər, Səudiyyə Ərəbistanı-394 nəfər, Rumıniya- 327 nəfər, Çexiya- 312 nəfər, Birləşmiş Ərəb Əmirliyi- 292 nəfər, İspaniya- 272 nəfər, Şimali Koreya- 269 nəfər, Braziliya- 252 nəfər, Lüksemburq- 244 nəfər, Polşa- 231 nəfər, Belçika- 205 nəfər, Bolqariya- 198 nəfər, Avstriya- 191 nəfər, Hindistan, 190 nəfər, Misir- 192 nəfər, Yaponiya- 186 nəfər, Özbəkistan- 153 nəfər, Çili- 149 nəfər, Çexoslovakiya- 141 nəfər, Yunanıstan- 138 nəfər, Şvetsariya- 132 nəfər, Estoniya- 123 nəfər, Argentina- 118 nəfər, Meksika- 117 nəfər, Pakistan- 113 nəfər, İndoneziya- 101 nəfər, Makedoniya- 98 nəfər, Filippin- 96 nəfər, Danimarka- 92 nəfər, Tailand- 89 nəfər, Genuya- 88 nəfər, Litva- 77 nəfər, Qatar- 73 nəfər, Seneqal- 73 nəfər, Vyetnam- 72 nəfər, Əlcəzair- 72 nəfər, Macarıstan- 57 nəfər, Malta- 62 nəfər, İtaliya- 53 nəfər, Kolumbiya- 50 nəfər, Belorusiya- 53 nəfər, Avstraliya- 49 nəfər, Albaniya- 49 nəfər, Malayziya- 47 nəfər, İordaniya- 46 nəfər, Ivory sahili- 42 nəfər, Morokko- 39 nəfər, Slovak Respublikası- 36 nəfər, Sinqapur- 29 nəfər, Küveyt- 27 nəfər, Honk Qonq- 27 nəfər, Qırğızıstan- 24 nəfər, Tunis- 24 nəfər, Tayvan- 22 nəfər, Kıprıs- 22 nəfər, Finlandiya- 21 nəfər, Qana- 21 nəfər, Dominikan Respublikası- 20 nəfər, Şimali Afrika- 19 nəfər, Anqola- 14 nəfər, Peru- 13 nəfər, Sloveniya- 13 nəfər, Liviya- 12 nəfər, Yəmən- 12 nəfər, Venesuela- 11 nəfər, İrlandiya- 11 nəfər, Türkmənistan- 11 nəfər, İraq- 11 nəfər, Yunanıstan- 11 nəfər, Niderlandiya- 9 nəfər, Ekvador- 8 nəfər, Boliviya- 8 nəfər, Barbados- 8 nəfər, Portuqaliya- 6 nəfər, Yeni Zelandiya- 4 nəfər, Qvatemala- 3 nəfər, Panama- 3 nəfər, Myanmam- 2 nəfər, Puerto Riko- 2 nəfər, Unknown- 2 nəfər, Qameroon- 2 nəfər, Bəhreyn- 2 nəfər, Serbiya Respublikası- 1 nəfər, Antiqua və Barbados- 1 nəfər, Nigeriya- 1 nəfər.

2009-cu ilin axırınadək internet saytımdan dünya ölkələrinin oxucuları 13 min 868 nəfər ziyarətçi, 650 dəfə kitab və 300 dəfə də məqaləni öz ana dilində oxumuşdur. Saytla maraqlanan ziyarətçilər ünvanıma xoş sözlər yazmışlar ki, aşağıda onlardan nümunə üçün bir neçəsi göstərilir;

Naxçıvandan Rəhman Rzayev-

> *"Naxçıvanla fəxr edirəm, inşallah turizm burda inkişaf edəcək, mənim də bu sahəyə marağım vardır. NDU-nun ilk məzunuyam, Allah köməyimiz olsun."*

Naxçıvandan Yelena-

> *"Naxçıvanla fəxr edirəm, saytın müəllifinə təşəkkür edirəm ki, Naxçıvanı bu cür tanıdır, çox sağ olun, işlərinizdə uğurlar olsun."*

Türkiyə, İstanbuldan Dr. Nazilə Abbaslı-www.nazileabbasli.com.

> *"İllərin bəhrəsi olan yazılarınızı böyük maraqla oxudum,... ən mühümü məqalələrinizi türkçəyə çevirtdirib və buradakı oxuculara çatdırmaqdır."*

Türkiyə, Bursadan Nuh Kamacı-

> *"Azəri kardeşlerimizi çok seviyoruz, Allah yardımçınız olsun, sayteniz də güzel."*

Türkiyə, Mersindən Ahmet Karahan-

> *"Sizlerle tanışmak istiyorum, salam və sevgılarımı gönderiyorum."*

Türkiyə Ankaradan Bozoklu-

> *"Hamıya salam, qardaşlarıma Anadoludan salam olsun, iki dəfə Bakıda olmuşam, Allah amanında."*

Bakıdan Hüseyn Fətullayev-

> *"yazılarınızı böyük bir həvəslə oxumağıma vətənimin adı kömək etdi,... mən Naxçıvanımla fəxr edirəm."*

Bakıdan Əliyev Pərviz-"Allah köməyiniz olsun!" Bakıdan Həmzə Səfərov-"İnşallah çox gözəl saytdır." Bakıdan Toğrul-"Salam, işlərinizin davamını arzulayıram."

Bakıdan Bulud Cağlayan-"Salam, saytdakı məlumatlar məni sevindirdi." Rahilə Allahyarlı-"Sizə uğurlar diləyirəm!" Bakıdan Mirheydərzadə Hüseyn Rza oğlu-"Salam, Yazdığınız elmi kitablar sizin necə böyük əziyyətlərə qatlaşdığınızdan xəbər verir. Allah sizə can sağlığı və qüvvət versin.

Bakı, “Kitab Klubu” E-mail: info @ kitabklubu.org Elçin Hüseynov-“Salam, “Naxçıvanın təbii sərvətləri” kitabına xaricdən sifariş vardır. 4 nüsxə bizə göndərə bilərsinizmi? Kitablara görə təşəkkür edirik. Kitablarınız haqqında məlumat saytımızda yerləşdirmişik, əgər xəbəriniz varsa linkini www.nuhyurdu.com.a yönəldirik.”

Quba rayonu, Amsar kəndindən Əlimərdanova İradə-

> *“Salam, muzeyimizə göndərdiyiniz kitabınızı aldıq. Sizə çox təşəkkür edirik. Muzeyimizlə maraqlandığınız bizi çox şad etdi.”*

ABŞ, Sietl şəhərindən Tariyel (Əliyev) Azərtürk-

> *“Salam, böyük zəhmət çəkmisiniz. Bu, məni olduqca sevindirdi. Naxçıvanda yaşayıb, onun tarixinə belə əsərlər yazmaq böyük vətənpərvərlik və qeyrətli bir işdir. İlk dəfədir ki, sizin saytınızda Naxçıvan abidələri ilə tanış oldum.”*

Rusiya, Moskva şəhərindən (Şahbuzlu) Rasim Piriyev-

> *“Saytı oxudum, sizinlə qurur duyuram, əsərləriniz qiymətlidir, foto şəkilləriniz çox əzizdir bizim üçün. Sayənizdə dünyanın hər yerindən, heç bir çətinlik çəkmədən gözəl yazılarınızı oxumaq olur. Sizə Allahdan can sağlığı diləyirəm. Yaşasın Azərbaycanın vətənpərvər oğulları!”*

Türkiyə, Mərmərə Gökhan Dəmirkıran-“Sevgili Feyruz Bağırov. M.S.Ordubadi adına Kitabxanada “Naxçıvanın təbii sərvətləri” adlı kitabınızı tapdım. Həmin kitabdan dissertasiya üçün qaynaq göstərməklə faydalanacağam. Sizə faydalı işinizə görə sağlıq və təşəkkür edirəm.”

“Şübhəsiz ki, sən nə ölülərə (haqqı) başa sala bilər, nə də dönüb gedən karlara çağırışı eşitdirə bilməzsən!” (Nəml surəsi, 80)

> *“Ağac bar verdikcə başını aşağı dikər.”*
>
> **(Atalar sözü)**

“Əkdim ki, izim qala”

“Ağlın nəzərində ağacın hər yarpağı,

Allahı tanıtdıran kitabçanın yarpağı.”

(Sədi Şirazi)

İnsanı Allah yaratmış və təbii sərvətləri səxavətlə onun istifadəsinə vermişdir. Həzrəti Adəm (ə) Peyğəmbər zamanından bu yana, müasir insanla təbiət arasındakı münasibət müəyyən nisbətdə davam edir. İnsan oğlu öz inkişafının yüksək pillələrinə ayaq qoyduqca, bu nisbət müəyyən mənada insanların xeyrinə dəyişir. İnsan texniki vasitələrə əl atdıqca təbiətdən çox mənfəət götürür və əvəzində isə ona (təbiətə) az şey verir. Beləliklə insan oğlu təbiəti dəyişmək, dağıtmaq və zəhərləməklə özünə zərər vura bilər.

Təbii sərvətlərin mühafizəsi onlardan səmərəli istifadə edilməsi, xüsusən bitki və heyvanlar aləminin qorunması vacib işlərdən biri olmalıdır. Bu işlər isə bütün təbiət sevər insanların Allah qarşısındakı vacib əməllərdən biri olub, ibadət və itaət kimi elmi dəlildir. Təbii sərvətlərin mühafizəsi və onların artırılmasını insanın mənafeyi tələb edir. Bütün bunlar ilk növbədə insanların rifahı naminə və sağlam olması üçündür. İnsanın sağlamlığı isə onu əhatə edən təbii mühitdən asılıdır. (bax; H.Əliyev, “Həyacan təbili” Bakı-1982; F.Bağırov, “Naxçıvanın təbii sərvətləri”, Bakı-2008).

Yunanıstanın paytaxt şəhəri Afinada mərkəzi meydanlardan birində ətrafına məhəccər çəkilmiş iri gövdəli bir zeytun ağacı vardır. Oradakı kiçik lövhədə belə bir yazı diqqəti cəlb edir: “Platonun zeytunu”. Qəribədir ki, həmin ağacı doğrudan da 2360 il bundan əvvəl yaşamış məşhur Yunan filosofu Platon əkmişdir (?). Yunan əfsanələrinə görə evlənmək istəyində olan hər bir gənc, yeddi ədəd zeytun tingi əkməliydi. Həmin adət-ənənə indiyədək öz qüvvəsini saxlamaqla, Yunanıstan sənayesində əsas təsərrüfat gəlirlərindən biri məhz zeytun yağıdır.

Əlbəttə tarix və qədim adət-ənənəsini unudan, təbii sərvətlərinin qədrini bilməyən xalqın aqibəti pis olar. Allahın bizə bəxş etdiyi yaşıllıqları qorumaq və qədrini bilməklə insan sağlamlığının ilk amillərindən biridir. Bir sıra ölkələrin dövlət bayraqlarında ağac şəkilləri vardır. Onlardan Livan ölkəsində küknar, Kipr ölkəsində sərv, Kanadada yaşıl yarpaq emblemləri əks olunmuşdur.

“Yer üzündə bitən hər ot, hər çiçək,
Yaşar “Ona şərik yox”, söyləyərək.”

Hər bir insan dünya həyatında ömrü boyu ən azı üç ədəd ağac tingi əkib və becərməlidir. Həmin iş insanın dünyadakı elədiyi savab işlərdən ən üstünü və ən şərəfli təbiət sevərliyidir. Belə insanlardan biri də Azərbaycan xalqının tanınmış ensiklopedik biliyə malik olan təbiətşünas alim, akademik Həsən Əlirza oğlu Əliyev (1907-1993) olmuşdur.

Gənc yaşlarımda Naxçıvan Kənd Təsərrüfatı Texnikumunda oxuyarkən, ağsaqqal müəllimim Rauf Mirzəmməd oğlu Bəktaşinin (1910-1988) tələbələrinə belə tövsiyəsi olmuşdur:

> *"Yeraltı və yerüstü sərvətləri, canlı təbiəti və mədən sularını öyrənərək gələcək nəsillərə çatdırmaq lazımdır"*

. Naxçıvan MR Ali Məclisi sədrinin təşəbbüsü ilə hər il yaz və payız aylarında ümumxalq iməcilikləri keçirilərək və ərazilərdə yaşıllaşdırma işləri aparılır. (bax; F.Bağırov, "Naxçıvanın təbii sərvətləri", Bakı- 2008).

2003-cü ildən Şahbuz rayonunda Dövlət Təbiət Qoruğu yaradılmış və həmin ildən isə Araz çayı sahilindəki 9118 hektarlıq sahə, Arazboyu Dövlət Təbiət Yaşıllığı elan olunmuşdur. Bir ildən sonra isə, Ordubad rayonunda Akademik Həsən Əliyev adına Milli Yaşıllıq Parkı yaradılmışdır. Naxçıvan şəhəri orta əsrlərdə tarixi ipək yolunun üstündə olduğundan əhali əkinçilik sənətkarlıq işləri ilə yanaşı yaşıllaşdırma işləri də aparmışlar. Tarix boyu naxçıvanlılar xarici işğalçılara məruz qalsalar da ərazidəki təbii sərvətləri qoruyub saxlamışlar.

Müasir Naxçıvan şəhəri böyüyüb gözəlləşmiş geniş xiyabanlar salınmış və yaşıllaşdırma işləri ön plana çəkilmişdir. Əhali meyvə ağaclarını çoxaltmaq məqsədilə şəxsi təsərrüfat sahəsində yaşıllaşdırma işlərinə diqqət artırmışlar. Ərazilərdəki su arxlarının ətrafında çoxillik meyvə ağacları ilə yanaşı bəzək kolları və s. əkilib becərilməklə gənc nəslə təbii sərvətlərin qorunmasını öyrətmişlər. (bax; F.Bağırov, "Naxçıvanın təbii sərvətləri" Bakı-2008).

Yaşayış mülkümün 720,8 m2 torpaq sahəsində, uzun illərdən bəri yaşıllaşdırma işləri aparmaqla istirahət bağçası yaratmışam. Bütün bunlar təbiətə sevgidən irəli gələrək və aqronom kimi, bağçamda ətirli gül kolları ilə bərabər meyvə ağacları da əkib becərirəm. Bağçadakı 15 metr dərinliyi olan su quyusundan təsərrüfat və məişətdə istifadə olunur. Quyudakı suyun istifadəsində sanitar gigiyenik qaydalara əməl olunduğu üçün, çirklənməsinə qarşı lazımı tədbirlər görülür. Meyvə bağında əkib-becərdiyim aşağıdakı növdə çoxillik meyvə ağacı ilə çoxillik dekorativ gül kolları vardır; (2011-ci ilin məlumatı).

İnnab ağacı (Ziziphus jujuba) 1 ədəd. Çoxillik kol-ağac bitkisi Naxçıvan üçün nadir bitkilərdəndir. Bitkinin tikanlı budaqlarında qırmızı-qəhvəyi rəngli iydəyə bənzər meyvələri olur. Meyvəsinin tərkibində 30-72% şəkərlə C vitamini vardır. Xalq təbabətində süddə bişirilmiş quru meyvələri yeyildikdə kəskin öskürəyi azaldır.

Badam ağacı (Amygdalis kommunis) 1 ədəd. Azömürlü qərzəxli ağacın toxum tərkibində 35-67% efir yağı olur. Xalq təbabətində badamın caqqalası mədə və diş dibinin ətini möhkəmlədir.

Gilənar ağacı (Cerasus vulgaris) 10 ədəd. Çoxillik ağac bitkisinin qırmızı-qara rəngli şirəli meyvələrində 7-17% şəkər, 0,8-2,4% üzvü turşular, 0,98% azotlu maddə, 0,27% sellüloz və 0,18% aşı maddəsi ilə C vitamini vardır. Xalq təbabətində gilənar şirəsindən ürək bulanmaya qarşı istifadə edirlər. Milli mətbəxdə gilənar meyvəsindən kompot və mürəbbə hazırlanılır.

Gilas ağacı (Cerasus avium) 4 ədəd. Çoxillik ağac bitkisinin çəhrayı, sarı, yaxud qara şirəli meyvəsində 7-15% şəkər, 0,36-1,1% alma turşusu ilə C vitamini vardır. Milli mətbəxdə gilas meyvəsindən müxtəlif şirə, kompot və mürəbbə hazırlanılır.

Heyva kol-ağacı (Cudonia oblonqa) 3 ədəd. Çoxillik bitkinin meyvələri ətirli sarı rəngdə, üzəri tükcüklərlə örtülü olub və tərkibində 0,2-0,28% turşu, 8-12% şəkər və C vitamini vardır. Xalq təbabətində heyvanın yapışqanlı toxumlarından soyuqdəyməyə qarşı və dəmlənmiş yarpaqlarından isə nəfəs yollarının iltihabına qarşı müalicədə istifadə olunur. Heyva şirəsi dalaq ağrısını kəsir, ürəkbulanmanı və mədə pozğunluğunu nizamlayır. Milli mətbəxdə müxtəlif şirə, kompot və mürəbbə hazırlanılır. Cavan yarpaqlarından isə ətirli dolma bükürlər.

Alma ağacı (Malus domestica) 30 ədəd. Çoxillik bitkinin meyvələri ətirli sarı, qırmızı və yaşıl rəngdə olur. Tərkibində 5-15% şəkər, 1-1,5% üzvü turşular (limon turşusu), 1,30% sellüloz, 0,44% zülal və dəmirlə A, B, C vitaminləri də vardır. Xalq təbabətində alma şirəsindən ürək xəstəliklərinin müalicəsində istifadə edirlər. Milli mətbəxdə kompot və povidlo hazırlanılır.

Armud ağacı (Purus communis) 2 ədəd. Çoxillik bitkinin meyvələri ətirli sarı və yaşıl rəngdə olaraq, tərkibində 7-13% şəkər vardır. Xalq təbabətində armud şirəsindən daxili xəstəliklərin müalicəsində istifadə olunur. Milli mətbəxdə mürəbbə, kompot və şirələr hazırlanılır.

Alça ağacı (Prunus divaricata) 1 ədəd. Çoxillik bitkinin şirəli meyvələri sarı rəngdə olub, tərkibində 10% şəkər, 1,5-4% üzvü turşular və pektin maddəsi ilə vitaminlər də vardır. Xalq təbabətində alça meyvəsindən hazırlanmış lavaşa ilə bişirilən xörəklər, daxili xəstəliklərin müalicəsində faydalıdır. Milli mətbəxdə mürəbbə, şirə və kompot hazırlanılır.

Göycə ağacı (Prunus domestica) 10 ədəd. Çoxillik alça ağacına gavalını (almaxaranı) calaq etməklə yaranan yeni bitki növüdür. Bundan başqa alçaya ərik calaq ediləndə, ətirli şərəlli adlı meyvə olur. Alçaya şaftalı calaq ediləndə isə, tərəlli adlı meyvə yaratmaq mümkündür. Göycənin turşməzə meyvələri yetişməmiş halda yeyilir. Milli mətbəxdə yetişmiş meyvələrdən şirə və kompot hazırlanılır.

Şaftalı ağacı (Percica vulgaris) 2 ədəd. Azömürlü şaftalının cır növlərinə hülü deyirlər. Meyvəsinin tərkibində 5-15% şəkər, alma və limon turşusu ilə bir neçə vitaminlər də vardır. Şaftalı tumu acı olub tərkibində 5-50% piyli yağ maddəsi vardır. Xalq təbabətində şaftalının kilitkəsi saç tökülməyə qarşı yeyilir. Yarpaq və oduncağından təbii boyaq işlərində istifadə olunur. Milli mətbəxdə şirəli meyvəsindən kompot hazırlanılır.

Ərik ağacı (Armenica vulgaris) 7 ədəd. Çoxillik bitkinin şirəli meyvələri sarı və narıncı rəngdə olub tərkibində 7-23% şəkər, alma, limon və başqa üzvi turşularla A, D, E, vitaminləri də vardır. Əriyin tumunda 25-30% yağ, quru meyvəsində isə 84% şəkər olur. Xalq təbabətində ərikdən ürək xəstəliklərinə qarşı təbii müalicə kimi istifadə olunur. Yaxşı olar ki, ərik yedikdən sonra tərkibində 55% piy maddəsi olan tumu da yeyilsin. Milli mətbəxdə şirəli meyvəsindən mürəbbə hazırlanılır.

Cəviz (qoz) ağacı (Juglans regia) 5 ədəd. Çoxillik qərzəxli ağacın meyvəsində 60-70% piyli yağ maddəsi, 12-20% zülal və müxtəlif vitaminlər vardır. Qoz ləpəsi yüksək kaloriliyə görə kərə yağından sonra ikinci yerdədir. Ağacın yarpaqları və meyvənin qabığında fitonsid zəngin olduğundan bakterisid xassəlidir. Xalq təbabətində yarpağı həna ilə qarışdırıb ağarmış saçlara sürtülür, tüklər qaralır, dibi bərkiyir və baş ağrıları da aradan qalxır. Milli mətbəxdə kal və qabığı soyulmuş meyvələrindən mürəbbə hazırlanılır.

Tut ağacı (Moris alba (niqra)) 19 ədəd. Çoxillik tut ağacının şirəli meyvələri ağ və qara rəngdə olur. Meyvənin tərkibində 10-15% şəkər və azacıq da mineral turşular vardır. Meyvələri təzə və qurudulmuş halda yeyilir. Cavan yarpaqlarından ipək sənayesində istifadə edilərək ipəkqurdu baramalarını yemləyirlər. Xalq təbabətində tut şirəsindən (ona doşab deyirlər) boğaz ağrısı və difteriyaya qarşı müalicədə istifadə olunur. Milli mətbəxdə meyvələrindən mürəbbə, doşab (bəhməz) və sirkə hazırlanılır.

İydə ağacı (Elacagnus) 1 ədəd. Çoxillik tikanlı kol ağac bitkinin hündürlüyü 4-8 metrdir. Ətirli sarı rəngdə salxım çiçəkləri yarpaq altında olur. Yetişmiş qırmızıqabıq unlu və çəyirdəkli meyvəsinin tərkibində aşı maddəsi ilə efir yağları vardır. Xalq təbabətində balverən bitkinin meyvəsi təzə və qurudulmuş halda habelə kilitkəsi, mədə xəstəliklərinə qarşı yeyilir.

Pişpişə ağacı (Salicaceae) 1 ədəd. Söyüdkimilər fəsiləsindən olan çoxillik bitkinin iki növü Naxçıvanda yayılmışdır. Hündürlüyü 3 metr olan pişpişənin bir cinsiyyətli pişik quyruğuna bənzər çiçəkləri olur. Bitkinin civir növündən səbət və məişət əşyalarının toxunmasında istifadə edilir. Qurumuş budaqları yandırıldıqdan sonra kömüründən rəngkarlıqda istifadə olunur. Xalq təbabətində pişpişə çiçəyi cövhərindən dəmrov xəstəliyinin müalicəsində istifadə edirlər.

Nərbənd (Ulmus densa) 3 ədəd. Qarağackimilər fəsiləsindən olan çoxillik bəzək ağacının vətəni Kiçik Qafqazdır. Hündürlüyü 10-15 metrə çatan ağacın çətirinin diametri 20-40 metr və gövdəsi isə 1-1,25 m-ə çatır. Nərbənd ağacını cavan qarağac zoğlarına calaq vurma ilə çoxaldırlar. Xalq təbabətində meyvələrindən təpitməsini xroniki yaraların sağalmasında istifadə edirlər.

Çinar (Platanus) 1 ədəd. Çoxillik ağacın vətəni Aralıq dənizi sahilləridir. Ağacın hündürlüyü 50 metr və gövdəsinin diametri isə 16 metrə çatır. Meyvələri qozalı olub və yarpaqları üzüm yarpağı kimidir. Yetişmiş qozaları bülbüllərin əsas yem mənbəyidir. Ağacın çoxaldılması üzüm tənəyi kimi pöhrələrdən kəsilmiş doğanaqlı qələm vasitəsi ilədir. Xalq təbabətində göy öskürəyə qarşı kölgəsində yatmaqla dəmlənmiş çiçəkləri içilir.

Fındıq (Corulus aveliana) 7 kol. Çoxillik qərzəxli bitkinin hündürlüyü 2-4 metrə çatıb, əvvəl yalançı salxım və sonra isə birevli çiçəkləri olur. Fındıq ləpəsində 58-70% yağ, 15-20% zülal, 2-5% şəkər D vitamini və mikroelementlər vardır. Xalq təbabətində fındıq ləpələri bal və şəkərlə yeyilməsi öskürəyə qarşı istifadə olunur. Fındıq orqanizmin fəaliyyətini gücləndirir. Qovurulmuş fındıq ləpəsindən kosmetikada istifadə edirlər.

Yemişan (Crataegus) 3 kol. Çoxillik bitkinin hündürlüyü 4-5 metrə çatır. Ağ ətirli çiçəkləri olur. Meyvələri al qırmızı və toxumludur. Tərkibində alma turşusu, şəkər, C vitamini, karotin və digər mineral maddələr vardır. Xalq təbabətində yemişan çiçəklərindən ürək xəstəliklərində, yarpaqlarından isə mərkəzi sinir sisteminin müalicəsində istifadə edirlər.

Qafqaz xurması (xirnik) (Diosoyeros lotus) 1 kol. Subtropik çoxillik bitkinin hündürlüyü 16 metrə çatır. Çiçəkləri çox xırda olub meyvəsi əvvəl yaşıl, yetişdikdə isə sarı-çəhrayı rəngə boyanır. Meyvəsinin tərkibində 40% şəkər, 0,5% üzvi turşu və zəngin vitaminlər vardır. Xalq təbabətində insandakı əhval-ruhiyyəni yaxşılatmaq üçün xirnik mürəbbəsi ilə içilir.

Nar (Pinica granatum) 5 kol. Çoxillik subtropik bitkinin hündürlüyü 5 metrədək olur. Budaqları tikanlı kolun iri qırmızı çiçəkləri və sarımtıl-qırmızı meyvələri vardır. Hər bir qabıqlı meyvələrinin içərisində 400-dən çox turş və ya şirin gilələri olur. Nar şirəsində 8-19% şəkər, 0,3-9% limon turşusu, tanin və C vitamini vardır. Milli mətbəxdə turş nardan limon turşusu, şirəsindən narşərab hazırlanılır. Xalq təbabətində qurudulmuş qabığından qurdqovucu dərman kimi və kolit xəstəliyinin müalicəsində istifadə edirlər.

Üzüm tənəyi (Vitis vinifera) 10 kol. Üzüm tənəyinin uzunluğu 40-50 metrə çatan lian (sarmaşıq) koludur. Bitkinin şirəli meyvəsində 81% su, 16,5% şəkər, 0,6% sellüloz, 0,9% üzvi turşular, 0,4% azotlu birləşmələr, 0,2% pektin maddəsi, 0,4% mineral duzlar və B, C vitaminləri vardır. Milli mətbəxdə üzümdən şirələr, sirkə və şərab məhsulları hazırlanılır. Xalq təbabətində doşabından daxili xəstəliklərin müalicəsində istifadə olunur. (bax; F. Bağırov, “Naxçıvanın təbii sərvətləri” Bakı-2008).

Qarağat (Ribes orientale (nigrum)) 2 kol. Çoxillik bitkisinin hündürlüyü 80-1,80 sm olub giləmeyvələri salxımvaridir. Qara növünün tərkibində 5-12% şəkərli maddələr, 2-4% limon və alma turşusu, A, B1 və C, vitaminləri vardır. Bundan başqa giləmeyvə tərkibində pektin, aşı maddələri ilə K, Fe, P və digər mineral duzlar da vardır. Xalq təbabətində qarağat giləmeyvəsi qan təzyiqini nizamlayır.

Nun (qabaq) (Cucurbita) 5 kol. Birillik bitki iri yarpaq və sarı çiçəkləri olub sürünəndir. Bitki haqqında müqəddəs Qurani-kərimdə “Nun” və ya “Qələm” surəsində bildirilir ki, balığın qarnında iki gün halsız qalmış Hz. Yunus (ə) peyğəmbəri sağaldan bitkidir. Armuda oxşar meyvələrinin tərkibində 10% şəkər, 20% C vitamini və 10% karotin maddəsi vardır. 20-40% yağ olan toxumu xalq təbabətində daxili əzələ ağrıları, halsızlıq və bağırsaq qurdlarına qarşı yeyilir.

Zirinc (Berberis vulgaris) 1 kol. Çoxillik tikanlı kolun hündürlüyü 3 metrə çatır. Çiçəkləri tünd sarı rəngdə olur. Qırmızı salxımvarı meyvələrindən mürəbbə, şirə, marmelad və sirkə hazırlanılır. Xalq təbabətində C və E vitamini olan turş və tikanlı yarpaqları böyrək, qaraciyər, sidik kisəsi xəstəliyi və qanaxmaya qarşı müalicə məqsədi ilə dəmləyib içirlər.

Gülxətmi gülü (Althae officinalis) 6 kol. Çoxillik gül kolunun hündürlüyü 2,5 metrə çatır. Çiçəkləri ağ, çəhrayı və qırmızı rəngdə olur. Xalq təbabətində bitkinin qurudulmuş çiçəkləri dəmlənərək sidik yollarının iltihabı müalicəsində istifadə olunur.

Zanbaq gülü (Liliaceae) 100 kol. Narıncı və mürəkkəb rəngli çiçəkləri olan çoxillik dekorativ bitki, kökümsov soğanağı ilə çoxaldılır. May-iyun aylarında çiçəkləyən bitkinin uzun yarpaqları olur.

Payız gülü (Chrysanthemum indicum) 50 kol. Xrizantema deyilən çoxillik bitki əsasən payızda çiçəkləyir. Çiçəkləri mavi və mürəkkəb rəngində olur. Şərqi Asiya ölkələrində bitkinin yarpaq və çiçəklərindən tərəvəz kimi istifadə olunur. Payız gülünün şişək ləçəklərində mürəkkəb efir yağları da vardır.

Qızılgül (Rosa) 100 kol. Çoxillik kolun hündürlüyü 2 metrədək çatır. Bitkinin zoğları tikanlı olub, qırmızı, çəhrayı, ağ, sarı, narıncı rəngdə ətirli çiçəkləri olur. Milli mətbəxdə ləçəklərindən mürəbbə və gülab hazırlanır. Qızılgülün meyvəsinin tərkibində P vitamini və 15-18 % askorbin turşusu var.

Yasəmən (Syringa) 60 kol. Çoxillik kolun hündürlüyü 3 metrə çatır. Xırda, ətirli çiçəkləri süpürgəşəkilli çiçək qrupunda yerləşir. Meyvəsi ikiyuvalı qutucuq, kiçik toxumları uzunsovdur. Çiçəklərinin rənginə görə 3 növü (ağ, qırmızı və bənövşəyi) vardır. Çiçəyindən hazırlanan ekstraktdan, ətriyyat sənayesində istifadə olunur.

Yulğun (Tamatex) 1 kol. Hündürlüyü 3 metr olan çoxillik bitkinin uzun salxımlı bənövşəyi rəngli xırda çiçəkləri olur. Xalq təbabətində yulğunun cavan zoğları yandırılaraq, qara-bənövşəyi közünü dəridəki ziyilin müalicəsində dağbasma kimi istifadə olunur.

"Saçaqlı dənli bitkilər və xoş ətirli çiçəklər vardır. Belə olduqda Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz ?!" (Rəhman surəsi, 12-13)

"İmanın fəziləti ondadır ki, bilәsən harada olsan da, Allah sənindədir."

(Hz. Məhəmməd (s) peyğəmbər)

Əlvida ateizm !

“Baxdım ki, dünya həyatı bir oyun və əyləncədir. Gördüm ki, gələn gedir gedən gəlmir. Günlərimsə payız yarpaqları kimi tökülür. Külək kimi əsib gedən ömrümə yandım da, bir fərəh axtardım. Anladım ki, Ruhumun ayrılıq dərdinə ancaq Allah sevgisi dərman ola bilər. Ürəyim Onunla yanan, Onsuz qalınca sönən bir şamdır. Ona gedən bir qıssa yol axtardım,- “Allaha məhəbbətiniz varsa, Onun Həbibinə tabe olmalısınız!” əmrini eşitdim. Və sonunda sevimli Peyğəmbərimin yolunu taparaq kədərdən xilas oldum.” (F.Bağırov, “Dünya həyatı” Bakı- 2013).

Mən dindar-ziyalı ailəsində doğulsam da uşaqlıq illərində pioner və komsomol ideyalarına sadiq olub ateist ruhunda tərbiyələnmişəm. Gənclik illərində isə dindar xurafatçılara qarşı film və teatr tamaşalarına baxdıqca dindar ziyalılardan uzaqlaşmışam. Sovet məktəblərində ateist təbliğatı olduğu üçün ingilis təbiət həvəskarı Ç.Darvinin (1809-1882) təkamül təlim nəzəriyyəsi əsas yer tuturdu. Dərsliklərdə darvinist alimlər dünyanın öz-özünə yəni canlıların təbii seçmə yolu ilə və təkamül nəticəsində yaranmasını yazırdılar.

Uşaqlara Allahı tanıtmağın əhəmiyyəti çoxdur. Belə ki, Allahı tanımayıb və Onun İslam dinini öyrənmədən böyüyən uşaq, şübhəsiz ki, həyatında bir çox çətinliklə rastlaşar. O, dünyada daim zərərə uğrayacağı kimi, axirətini də itirər. Valideynlərin uşağa etməli olduğu ilk xeyirxah iş Allah sevgisini və Allah qorxusunu kiçik yaşda olarkən ona öyrətməkdir.

Hər bir ailədə uşaq Quranda təsvir edilən gözəl əxlaq üzrə böyüməlidir. Əgər bir uşaq inanclı və təvəkküllü tərbiyələnərsə, möhkəm xasiyyətə sahib olar. Uşaq nə qədər kiçik olursa olsun, yetkin mömin ağlına və əxlaqına sahib olar. (bax; “Düşünən insan” jurnalı, oktyabr 2012-ci il № 14).

Etiraf edirəm ki, Sovet kommunist ideologiyasına inanaraq “demokratiya” tərəfdarı olmuş və Sosialist quruculuğunun mənafeyini güdmüşəm. (Bütün bunlar isə yaşadığım mühitin hökmü ilə olmuşdur). Sonradan gördüm ki, əl barmaqları müxtəlif uzunluqda olduğu kimi din ideoloqlarının da inamla imanları müxtəlifdir. Həyatımın qırxıncı baharınadək (yaxınlarımın biganəliyindən) nəinki Allahı (Yaradanı) dərk etmiş habelə adi mənəviyyatı belə bilməmişəm.

Sonrakı illər məndə mənəviyyata həvəs yarananda elmi fəlsəfi ədəbiyyatlardan oxuyub öyrəndim ki, müsəlman (müslim) sözü elə Allahın dostu deməkdir. Daha sonra isə dərk etdim ki, uşaq valideynini tanıdığı kimi düşünən insan da Allahı tanıyıb və şəhadət gətirməlidir. Ərəbcə "İnna Lillahi və inna iləyhi raciun." (Mənası): Biz Allaha məxsusuq. Ona da qayıdacağıq! Ərəbcə

> *"Əşhədu ən lə ilahə illəllah və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh!"*

(Mənası):

> *"Şahidlik edirəm ki, Allahdan başqa İlah yoxdur və şahidlik edirəm ki, Muhəmməd(s) Onun qulu və rəsuludur!"*

Mən ateizmə əlvida deyib müqəddəs Quran kitabını oxumağı öyrəndim. 1994-cü ildə İranın Naxçıvandakı Baş Konsulluğunun təşəbbüsü ilə fars-ərəb dilləri kursu yaradılır. Kursda yazıb-oxumağı öyrəndikdən sonra, İslam mənəviyyatını təbliğ məqsədi ilə Naxçıvan MR Nazirlər Kabineti yanında Dini Qurumlarla İş şöbəsi (sədri Cəfər İmanov idi) mənə rəsmi səlahiyyət verir. (bax; "Şərq qapısı" qəzeti, 15 yanvar 1994-cü il № 4).

Doxsanıncı illərin sonunda İran İslam Respublikasının Naxçıvanda Baş Konsulluğu (konsul Məhəmməd Sadiq Turi idi) yarananda, Mədəniyyət işləri üzrə attaşesi (sədri Seyid Rza Mirməhəmmədi idi) və Naxçıvan din mədrəsəsi (müdiri Məhəmməd İsmaili idi) fəaliyyət göstərmişdir. Konsulluq və mədəniyyət attaşesi tez-tez mədəni-kütləvi tədbirlər və Naxçıvan Dövlət Universiteti Xarici tələbələr fakültəsi arasında birgə elmi konfranslar keçirərdi.

Həftənin cümə günləri İslam təlimlərini öyrənmək məqsədilə məscidə gedib namaz qılırdım. Mənəviyyata həvəs olduğundan İranın Məşhəd şəhərinə turist səfərinə getməli oldum. Səfər təəssüratları əsasında yazdığım "Ziyarətnamə" (Yol qeydləri) adlı kitabçanı ziyalılar arasında yaymaqla, oxucularda həvəs yaratdım.

Həmin illərdə Naxçıvan MR-ın 75 illiyinə töhfə kimi "Nuh yurdu-Naxçıvan" adlı ikinci kitab da yazmalı oldum. Bundan sonra Muxtar respublika ərazilərini qarış-qarış gəzib ziyarətgahlar haqqında məlumat topladıqdan sonra, yazdığım "Nuh yurduna ziyarət" adlı kitabı da tamamladım.

2002-ci ildə Naxçıvanda realist rəssam B.Kəngərlinin 100 illik yubiley tədbirləri keçirilirdi. Tarixi faktlar əsasında rəssamın həyatından bəhs edən "Əzablı günlər" adlı iki pərdəli və iki şəkilli pyes yazdım. Əsasən xalq teatrları üçün nəzərdə tutulan həmin pyes, ilk dəfə Naxçıvan estetik tərbiyə Mərkəzinin özfəaliyyət dram kollektivi (quruluşçu rejissor C.Vəzirov idi) səhnələşdirdi.

Atamın tərcüməsi əsasında, Azərbaycan yazıçısı Abbasquluağa Bakıxanovun (1794-1847) farsca yazdığı "Nəsihətlər" əsərini, ədəbi tərcüməsi üzərində işləməli oldum. "Nəsihətlər"ə nəzirə yazdığım "Axirət fədaisi" adlı kitabça, tezliklə mənəviyyatla maraqlanan oxucuların rəğbətini qazandı. Yazıçı hikmətli sözlərinin birində belə deyir;

> *"İnsana verilmiş bir dövlət varsa, o da Allahın bəxş etdiyi elmlə ədalətidir."*

Əvvəlki illərə görə indi məscidə gedən dindarların sayı azalmışdır. Bunun bir səbəbi insanların dolanışıq üçün başqa ölkələrə getməsi və digər səbəbi isə minbərdə cahil vaizlərin xütbə oxumasıdır. Tale elə gətirdi ki, həyat yoldaşımla bərabər ikinci dəfə Xorasanın Məşhəd şəhərinə getməli oldum. (Əgər Allah qismət verərsə (hər şey Onun izni ilədir) digər mənəvi ziyarətgahlara da gedərəm). İnşəAllah!

Azərbaycan Respublikası müstəqillik qazanana kimi Naxçıvandakı "Şərq qapısı" qəzeti "ateist tribunası" adlı rubrikada, mənəviyyat tənqid olunurdu. Qərəzli məqalələri ilə Məmmədəli Tarverdiyev, Məhəmməd Rzayev, Möhsün Möhsünov, Məcid Sirablı və başqa müxbirlər xalqı dindən uzaqlaşdırmaq istəyirdilər. (bax; "Şərq qapısı" qəzeti, 1965-70-ci illər).

Kitabdakı reallıqları yazanda həyatın əyri güzgüsündə özümü düz görüb və təskinlik tapmışam. Çünki

> *"Həqiqətən hər çətinlikdən sonra bir asanlıq gələr."*

(bax; Quran, İnşirah 94/6). Kitabda adı çəkilən bütün insanlar hafizəmin yaddaşındadır. Onların əksəriyyəti təbii ki, dünyadan köçmüşlər. Allahdan diləyim odur ki, ölənlərin Ruhu şad və rəhmət sahibi olsunlar. Amin!

> *"Əbədi aləmdə kimsəsiz qalmamaq üçün bu dünyada kimsəsizlərin kimsəsi olmaq ən gözəl işdir."*

“Allah kimi düz yola yönəltmək istəsə, onun köksünü İslam üçün açıb genişləndirər...” (Ənam surəsi, 125)

Foto şəkil, plan və xəritələr



1958-ci ilin may ayı. Naxçıvan şəhər 5 №-li yeddiillik məktəbin 5-ci sinif şagirdləri.

(Yuxarıda sağdan 4-cü Feyruz Bağırov)



1960-cı ilin may ayı. Naxçıvan şəhər 5 №-li yeddiillik məktəbin 7-ci sinif şagirdləri. (Aşağıda soldan 2-ci Feyruz Bağırov)



1983-cü il. Feyruz Bağırov öz ailəsi ilə.



13 avqust 2007-ci il. Feyruz Bağırov nəvələri ilə.



1963-cü ilin may ayı. Naxçıvan şəhər 2 №-li orta məktəbin 10-cu sinif şagirdləri.

(Ortada direktor Ə.Yusifzadə, müəllimlər H.Qocəliyev, Ə.Əkbərov və F.Hüseynova).



1971-ci ilin iyun ayında Naxçıvan rayon qiyabi orta məktəbin (Sovetabad kəndi) buraxılış foto vinetkası. (Ortada sinif nümayəndəsi F. Bağırov)



1970-ci ilin mart ayı. Naxçıvan k/t-ı texnikumu "Aqrokimyaçı-aqronom" ixtisası üzrə buraxılış tələbələrin foto vinetkası. (Sol tərəfdə Feyruz Bağırov)



8 iyun 1980-ci il.

Naxçıvan DPİ-nin "Təbiət-coğrafiya" fakültəsi tələbələri, Batabat yaylasında təcrübə məşğələsində. (Ortada Feyruz Bağırov).



2 mart 1970-ci il.

Abdulla Bağırov.



28 aprel 1972-ci il.

Abdulla Bağırov və həyat yoldaşı Nərgiz Bağırova.

(Fotomontaj Feyruz Bağırovun).



10 iyul 1966-cı il.

RSFSR Kaluqa vilayəti, Obninsk şəhərində əsgəri xidmətdə Feyruz Bağırov.



2 fevral 1966-cı il.

RSFSR Kaluqa vilayəti, Obninsk şəhərində əsgəri xidmətdə Feyruz Bağırov.



23 fevral 1967-ci il.

RSFSR Kaluqa vilayəti, Obninsk şəhərində əsgəri xidmətdə Feyruz Bağırov.



8 mart 1983-cü il.

Feyruz Bağırov və həyat yoldaşı Mehriban Bağırova.



15 dekabr 1968-ci il.

Naxçıvan k/t-ı texnikumu tələbəsi Feyruz Bağırov "Aqrokimya kabinəsi"ndə məşğələ zamanı.



10 iyun 1977-ci il.

Naxçıvan DPİ-nin "Təbiət-coğrafiya" fakültəsi tələbələri, Dırnıs kəndində təcrübə məşğələsində. (Soldan 6-cı Feyruz Bağırov).



15 iyun 1979-cu il.

Naxçıvan DPİ-nin "Təbiət-coğrafiya" fakültəsi tələbələri, Payız meşəsində təcrübə məşğələsində. (Soldan 1-ci Feyruz Bağırov).



16 fevral 1984-cü il.

Babək rayonu Qaraxanbəyli kənd orta məktəbin yuxarı sinif şagirdlər arasında.

(Coğrafiya müəllimi Feyruz Bağırov).



20 may 1989-cu il.

Naxçıvan şəhər 3 №-li orta məktəbin 5-ci sinif şagirdləri arasında sinif rəhbəri Feyruz Bağırov.



5 oktyabr 2006-cı il.

Mədəniyyət üzrə Elmi Metodik Mərkəzin şöbə müdiri Feyruz Bağırov (soldan 2-ci)

"Müəllim günü" tədbirindən sonra.



5 may 2000-ci il.

Naxçıvan Estetik Tərbiyə Mərkəzinin şöbə müdiri Feyruz Bağırov (soldan 1-ci)

Müharibə veteranları tədbirində.



5 may 2000-ci il.

Naxçıvan Estetik Tərbiyə Mərkəzinin şöbə müdiri Feyruz Bağırov (ortada)

Qələbənin 55-ci ildönümü tədbirində.



2005-ci ilə aid Naxçıvan şəhərinin planı (M 1:25000)

Şərti işarələr:

A – Avtovağzal, P – İstirahət parkı, D – Dəmiryol vağzalı, Q – Köhnəqala yeri.



1955-ci il „Əlixan məhəlləsi" „Bəktaş arxı" ərazisinin

PLANI

(M 1sm : 15m)

Şərti işarələr:

- Pambıq tarlası.
- Azmud bağı.
- Közpüləz.
- Buzxana.
- Yaşayış evləri.
- Dəyirmanlar.
- Qəbiristanlıq.
- Alman əsirlərinin qəbirləri.
- Kəhriz quyusu.



Azərbaycan Respublikasının siyasi- inzibati xəritəsi (2010).



Naxçıvan Muxtar Respublikasının siyasi- inzibati xəritəsi (2010).

İstifadə olunan qaynaqlar:

1) “Azərbaycan Respublikasının Konstitusiyası”, Bakı- 2004.

2) “Naxçıvan Muxtar Respublikasının Konstitusiyası”, Bakı- 1998.

3) “Məktəbdənkənar müəssisələrin nümunəvi əsasnaməsi”, Bakı-1994.

4) Mədəniyyət və turizm fəaliyyətinə aid qanunlar toplusu”, Bakı-2007.

5) “Uşaq incəsənət məktəbi rəssamlıq şöbələri üçün Proqram”, Bakı-2003.

6) “Naxçıvan Ensiklopediyası” (2 cilddə), Naxçıvan-2005.

7) Q.Həsənov, “Nax. MSSR-in tarixi və arxeoloji abidələri” Naxçıvan-1988.

8) F.Bağırov, “Naxçıvanın təbii sərvətləri” Bakı-2007.

9) F.Bağırov, “Nuh yurduna ziyarət” Bakı-2008.

10) F.Bağırov, “Tarixin yaddaşı” Bakı-2009.

11) F.Bağırov, “Dünya həyatı” Bakı-2013.

12) H.Əliyev, “Həyacan təbili” Bakı-1982.

13) M.Bakuvi, “Kəşfül-həqayiq” (3 cilddə Quran təfsiri) Tiflis-1901.

14) Z.Bünyadov və V.Məmmədəliyev, “Quarani-Kərim” Bakı-2005.

15) Əlixan Musayev, “Qurani-Kərim” Bakı-2010.

16) İbn Kəsir, “Peyğəmbərlərin həyatı”, I cild, Bakı-2011.

17) “101 hədis” (Hz. Məhəmməd (s) Peyğəmbərin söylədikləri) Bakı- 1990.

18) H.Yəhya, “Quran möcüzələri” İstanbul-2009.

19) Nizami Gəncəvi, “Lirika, Sirlər xəzinəsi, Şərəfnamə” Bakı-1988.

20) Marağalı Əhvədi, “Cami- Cəm” Bakı-1970.

21) Adil Qasım Ordubadi “Həyata baxış” Bakı-2009.

22) “Ağıl mücrüsü”, Bakı-1969.

23) “A S E”, 10 cilddə (V cild) Bakı-1981.

24) “Düşünən insan” jurnalı, oktyabr 2012-ci il № 14.

25) “Şərq qapısı” qəzeti, 1965-70-ci illər; 1994-cü il № 4; 2011-ci il № 184, 232.



FEYRUZ BAĞIROV

Feyruz Abdulla oğlu Bağırov 1946-cı ildə Naxçıvan şəhərində anadan olmuşdur. O, Naxçıvan Kənd Təsərrüfatı Texnikumu, Babək rayon Təhsil Şöbəsi, Naxçıvan şəhər 3 № -li məktəb, Naxçıvan Estetik Tərbiyə Mərkəzi, Naxçıvan Uşaq İncəsənət Məktəbində pedaqoji sahədə çalışmışdır.

"Fars və Ərəb dilləri kursu"nu bitirən F. Bağırov uzun illərdir ki, ictimai əsaslarla Naxçıvan MR Nazirlər Kabineti Yanında Dini İşlər Müvəkkilliyi və Muxtar Respublika Tarixi və Arxeoloji Abidələri Mühafizə Cəmiyyətinin fəal təbliğatçısıdır. 2011-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi Tarixi Abidələri Mühafizə Cəmiyyəti Rəyasət heyəti Naxçıvan MR şöbəsinin fəxri Diplomu ilə təltif olunmuşdur. 2012-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Əmək veteranı fəxri adını almışdır.

Feyruz Bağırov, "Ziyarətnamə" (1996), "Nuh yurdu-Naxçıvan" (1999), "Əzablı günlər" (2006), "Naxçıvanın təbii sərvətləri" (2007), "Nuh yurduna ziyarət" (2008), "Axirət fədaisi" (2009), "Tarixin yaddaşı" (2010), "Dünya həyatı" (2013) və "Müsəlmanın maraq dünyası" (2014) adlı kitabların müəllifidir.

Müəllifin veb saytı: www.nuhyurdu.com

E-mail ünvanı: info@nuhyurdu.com



“Keçmişini bilməyən,
gələcəyini də bilməz.”

(Şeyx Edebali)

Xatırlanan ömür

FEYRUZ BAĞIROV

www.nuhyurdu.com

NAXÇIVAN — 2014